AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

# TARİX, İNSAN VƏ CƏMİYYƏT

*Elmi-nəzəri və elmi-metodik jurnal*

ISBN: 90000000060074

*2021, 1 (31)*

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodik jurnal*

2021, 1 (31)

BAKI-2021

# Tarix, insan və cəmiyyət

Elmi-nəzəri və elmi-metodik jurnal № 1 (31), 2021

*Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 16 aprel 2005-ci il tarixdə qeydə alınmış (№ 1279), 2005-ci ildən Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda nəşr edilmişdir. 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsisçiliyi ilə nəşr edilir.*

*Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən 2020-ci ildən tarix və antropologiya elmi istiqamətləri üzrə "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısı"na daxil edilmişdir.*

## REDAKSİYA HEYƏTİ

**Tarix üzrə elmlər doktoru, professor Cəfər Cəfərov** *(baş redaktor)*
**Tarix elmləri doktoru, professor Abbas Seyidov** *(baş redaktorun müavini)*
**Tarix elmləri doktoru, professor İradə Hüseynova**
**Tarix elmləri doktoru, professor Anar İsgəndərov**
**Tarix elmləri doktoru, professor Oqtay Sultanov**
**Tarix elmləri doktoru, professor Xəqani Məmmədov**
**Tarix üzrə elmlər doktoru, professor Fəzail Vəliyev**
**Antropologiya üzrə elmlər doktoru, professor Əliağa Məmmədli**
**Tarix üzrə elmlər doktoru Eynulla Mədətli**
**Tarix üzrə elmlər doktoru, dosent Sevinc Əliyeva**
**Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Yasin Qaraməmmədli**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Ərəstun Mehdiyev**
**Tarix üzrə fəlsəfə doktoru Kərəm Məmmədov**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Naibə Əhmədova** *(məsul katib)*

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2021, 1 (31), s.3-11

# AZƏRBAYCAN SSR-NİN İQTİSADİ ƏLAQƏLƏRİ 1920-1922-Cİ İLLƏRDƏ

**Abbasova Oksana Əbdül**
*Bakı Dövlət Universiteti*
oksana.abbasova88@gmail.com

**Açar sözlər**: *neft, iqtisadi əlaqələr, Genuya konfransı, Avropa ölkələri, Moskva müqaviləsi*

Xarici hərbi müdaxilə və vətəndaş müharibəsindən sonra dağıdılmış kənd təsərrüfatını, eləcədə, neft sənayesini bərpa etmək Azərbaycan SSR-in ilk məqsədlərindən biri idi. 1920-ci ilin may ayından etibarən Azərbaycanın xarici ölkələrlə iqtisadi əlaqələr orqanı yaradıldı. Bu dövrdə Azərbaycan Respublikasının xarici ölkələrlə ticarət əlaqələri nisbətən sərbəst idi. 1920-ci ilin iyul ayında Azərbaycan SSR Xarici Ticarət Komissarlığı təşkil olundu. Komissarlığın əsas vəzifəsi bir sıra ölkələrlə ticarət əlaqələrinin bərpa olunması və xarici ticarətin dövlət inhisarına alınmasına nail olmaq idi. Azərbaycan SSR başqa ölkələrlə iqtisadi əlaqələr yaratmağı və onlarla müqavilələr bağlamağı yalnız RSFSR Xalq Xarici İşlər Komissarlığı vasitəsi ilə həll edə bilərdi. 1920-1922-ci illərdə Azərbaycan SSR-in ticarət-iqtisadi əlaqələrində bitərəf siyasət yeritməsi, Rusiyaya meyl göstərməsi və eləcədə, Avropa ölkələri ilə iqtisadi əlaqələri sovet hökumətinin tanınması müqabilində yaradıla biləcəyi ilə bağlı məsələlər təhlil edilir.

## ЭКОНОМИЧЕСКИЕ ОТНОШЕНИЯ АЗЕРБАЙДЖАНСКОЙ ССР В 1920-1922 гг.

Аббасова Оксана Абдул

**Ключевые слова**: *нефть, экономические отношения, Генуэзская конференция, Европейские страны, Московское соглашение*

Одной из первых целей Азербайджанской ССР было восстановление сельского хозяйства, а также нефтяной промышленности, разрушенных в результате иностранного военного вмешательства и гражданской войны. В мае 1920 года был создан орган экономических связей Азербайджана с зарубежными странами. В этот период торговые отношения Азербайджанской Республики с зарубежными странами были относительно свободными. В июле 1920 г. был образован Комиссариат

внешней торговли Азербайджанской ССР. Главной задачей комиссариата было восстановление торговых отношений с рядом стран и достижение государственной монополии на внешнюю торговлю. Азербайджанская ССР могла принять решение об установлении экономических отношений с другими странами и заключать с ними соглашения только через Народный комиссариат иностранных дел РСФСР. В статье также анализируется односторонняя политика Азербайджанской ССР в торгово-экономических отношениях в 1920-1922 годах, ее склонность к России, а также возможность установления экономических отношений с европейскими странами в обмен на признание Советского правительства.

## ECONOMIC RELATIONS OF THE AZERBAIJANI SSR IN 1920-1922

Abbasova Oksana Abdul

**Keywords***: oil, economic relations, Genoa Conference, European countries, Moscow agreement*

One of the first goals of the Azerbaijani SSR was to restore agriculture, as well as the oil industry, which had been destroyed after foreign military intervention and the civil war. Thus, in May 1920, the body of economic relations of Azerbaijan with foreign countries was established. During this period, the trade relations of the Republic of Azerbaijan with foreign countries were relatively free. In July 1920, the Foreign Trade Commissariat of the Azerbaijan SSR was established. The main task of the Commissariat was to restore trade relations with a number of countries and to achieve a state monopoly on foreign trade. Thus, the Azerbaijani SSR could decide to establish economic relations with other countries and conclude agreements with them only through the People's Commissariat of Foreign Affairs of the RSFSR. The article also analyzes the unilateral policy of the Azerbaijani SSR in trade and economic relations in 1920-1922, its inclination towards Russia, as well as the possibility of establishing economic relations with European countries in exchange for the recognition of the Soviet government.

***

Xarici hərbi müdaxilə və vətəndaş müharibəsindən sonra dağıdılmış kənd təsərrüfatını, ilk növbədə ən vacib təsərrüfat sahələrindən biri olan neft sənayesini bərpa etmək Azərbaycan SSR-in ilk məqsədlərindən biri idi.Beləliklə, 1920 ci ilin may ayından etibarən Azərbaycanını xarici ölkələrlə iqtisadi əlaqələr orqanı yaradıldı. Azərbaycan SSR-in ilk çağlarda, Litva, Latviya, Estoniya, Ermənistan, Türkmənistan, Gürcüstan, Əfqanıstan, Buxara,

Dağıstan və b. dövlət qurumları ilədə diplomatik əlaqələri var idi[1]. Hər iki tərəfi maraqlandıran məsələlər barəsindədanışıqlar da aparılırdı. Bir neçə xarici ölkənin Bakıda nümayəndəlikləri, Azərbaycanın da həmin ölkələrdə nümayəndəlikləri, konsulluqları mövcud idi. Qonşu ölkələrlə siyasi və iqtisadi sazişlər razılaşdırılır, ticarət haqqında danışıqlar aparılırdı.

Azərbaycanın xarici ölkələrlə iqtisadi əlaqələrinin təşkil edilməsi üçün görülən ilk tədbirlərdən biri 1920-ci il iyunun 1-də Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanovun imzaladığı "Xarici ticarətin inhisarı" adlı dekret oldu. Bu dekretə əsasən xarici ticarət dövlət inhisarına alındı, ölkə ərazisindən malların idxal və ixracı yalnız Azərbaycan Hökumətinin icazəsi ilə həyata keçirilməli idi [2].

Bu dövrdə Azərbaycan Respublikasının xarici ölkələrlə ticarət əlaqələri nisbətən sərbəst idi. 1920-ci il iyul ayında Azərbaycan SSR Xarici Ticarət Komissarlığı (AXTK) təşkil olundu. Komissarlığın əsas vəzifəsi bir sıra ölkələrlə ticarət əlaqələrinin bərpa olunması və xarici ticarətin dövlət inhisarına alınmasına nail olmaq idi. Qısa müddət ərzində bir sıra Avropa ölkələri ilə, o cümlədən İtaliya, Almaniya, Fransa və İsveçrənin ticarət firmaları ilə əlaqələr yaradıldı. Batum limanı vasitəsilə ölkəyə zəruri texniki,elektrik avadanlıqları, metal məmulatları, kənd təsərrüfatı alətləri və kütləvi istehlak malları (dərman preparatları, paltar, ayaqqabı, qənd, çay və s.) idxal edilirdi. Azərbaycandan isə bu ölkələrə xalça və ipək məmulatı, qaragül dəri, qara kürü, yun və s. mallar göndərilirdi.

Lakin, 1920-ci il 7 avqust xarici ticarət məsələlərinə dair sazişə əsasən, Azərbaycan SSR başqa ölkələrlə iqtisadi əlaqələr yaratmağı və onlarla müqavilələr bağlamağı yalnız RSFSR Xalq Xarici İşlər Komissarlığı vasitəsilə həll edə bilərdi. 1920-ci il iyulun 15-də AK(b)P MK bürosu mal mübadiləsi barədə müqavilə bağlamaq haqqında Gürcüstanın menşevik hökumətinin təklifini (neftlə mübadilə etmək üçün parça, ayaqqabı, kağız və s. təklif olunurdu) müzakirə edərək, belə bir ticarət müqaviləsi bağlamağı qərara almış və bunu onunla əsaslandırmışdı ki, Azərbaycanın Rusiya ilə ümumi iqtisadi siyasəti var (neft məsələsi ümumi məsələdir, onu birgə həll etmək lazımdır); siyasi məsələ iqtisadi məsələ ilə sıx bağlıdır.

V.İ.Lenin 1921-ci 21 sentyabr tarixli teleqramla N.Nərimanova "Vilayət Xarici Ticarətidarəsinin və RK(b)P MK-nın icazəsi olmadan nə almanlarla, nə də başqaheç kəslə xarici ticarət müqaviləsi bağlamayın"kimi göstərişlər verməklə bu məsələnin tamamilə RSFSR-in səlahiyyətinə aid olmasınıtəkid edirdi[2]. Belə bir şəraitdə Azərbaycan İnqilab Komitəsinin 1921-ci il 21 avqust tarixli dekreti ilə Azərbaycan SSR ərazisində idarə və təşkilatlar, həmçinin fiziki şəxslər tərəfindən idxal-ixrac əməliyyatlarının aparılması qadağan edildi. Xarici ticarət fəaliyyəti sovet orqanlarının əlində cəmləşdirildi.

Azərbaycan SSR-in gərgin daxili və xarici vəziyyəti bütün sovet respublikaları ilə, ilk növbədə RSFSR-lə dostluq münasibətləri və iqtisadi əlaqələr yaradılmasını tələb edirdi. 1920-ci il mayın 20-də RK(b)P MK-nın qəbul etdiyi qərarda deyilirdi: G.Çiçerinə tapşırılsın ki, qarşılıqlı münasibətləri müəyyənləşdirmək üçün danışıqlara başlamaq təklifi ilə Azərbaycan sovet hökumətinə müraciət etsin. RSFSR hökuməti Xalq Xarici İşlər Komissarı G.V.Çiçerin öz imzası ilə Azərbaycan SSR hökumətinin başçısı N.Nərimanova xüsusi nota göndərərək, "ümumi məqsədlərə nail olmaq naminə öz müntəzəm əməkdaşlığı yolunda hər iki Respublikanın birgə fəaliyyətini asanlaşdıran daimi qarşılıqlı münasibət formaları yaratmaq haqqında" danışıqlara başlamağı təklif etdi. Notada həmçinin deyilirdi: "Rusiyanın sovet hökuməti zənn edir ki, məqsədlərimizin birliyi və fəhlə-kəndli quruluşunun həmrəyliyi, təbii, hər iki qardaş respublikanı - Rusiya və Azərbaycan respublikalarını rəsmiləşdirilmiş sarsılmaz əlaqələr yaradılmasına gətirib çıxara bilər və bu əlaqələr ümumi sovet siyasəti yolunda daimi əməkdaşlığı asanlaşdırar"[2].

Beləliklə, 1920-ci il sentyabrın 30-da Moskvada Azərbaycan SSR ilə RSFSR arasında müqavilə imzalandı. Müqavilədə göstərilirdi ki, bir tərəfdən Azərbaycan SSR hökuməti və digər tərəfdən isə RSFSR hökuməti "Azərbaycan və Rusiyanın zəhmətkeş kütlələrinin tam mənafe birliyinin dərk olunmasını əsas tutaraq və ancaq hər iki respublikanın bütün qüvvələrini tam birləşdirməklə ümumi düşmənə - imperialist burjuaziyaya qarşı ağır mübarizədə onların müvəffəqiyyət qazanmalarının təmin oluna biləcəyini nəzərə alaraq, bu müqaviləni bağlamağı qərara almışlar". Müqavilənin birinci maddəsində deyilirdi: "Azərbaycan və Rusiya öz aralarında sıx hərbi və maliyyə-iqtisadi ittifaq bağlayırlar". İkinci maddədə göstərilirdi ki, hər iki respublika hərbi orqanlarını, xalq təsərrüfatı, xarici ticarət, təchizat, dəmiryol və su nəqliyyatı, maliyyə, poçt və teleqraf orqanlarını ən qısa müddətdə birləşdirməlidirlər. RSFSR və Azərbaycan SSR eyni zamanda, müqaviləyə əlavə olaraq, ərzaq siyasətinin, poçtun, teleqrafın birləşdirilməsinə və maliyyə, xarici ticarət, iqtisadi siyasət məsələlərinə dair sazişlər bağladılar. Azərbaycan SSR-in dəmir yollarının "Azərbaycan dəmir yolları" adı altında RSFSR-in dəmiryol şəbəkəsinə daxil edilməsi haqqında saziş isə hələ 1920-ci ilin avqustunadək imzalanmışdı.

Azərbaycan Rusiyaya hər şeydən əvvəl yanacaq təchizatçısı, rus mallarının satış bazarı və güclü dəniz nəqliyyatı qovşağı kimi lazım idi. Azərbaycan SSR-in gömrük xidmətinin idarə edilməsinin Moskvaya tabe edilməsinin də kökündə bu maraqlar dururdu. Azərbaycanda Rusiyanın maraqlarının hüquqi təminatı 1920-ci il sentyabrın 30-da imzalanmış müqavilə və müxtəlif məsələləri əhatə edən sazişlərlə təmin edildi.

1920-ci il aprelin 29-da şüşə-farfor istehsalı işçilərinin qurultayındasovet Rusiyasının daxili və beynəlxalq vəziyyətini şərh edən V.İ.Lenin Bakıneftini nəzərdə tutaraq deyirdi ki, "biz elə bir iqtisadi baza əldə etmişik

ki,bizim bütün sənayemizi canlandıra bilər. Bakıda milyon pudlarla neft vardırki, son vaxtlar satışı mümkün olmamışdır. Beləliklə, bizim nəqliyyatımız vəsənayemiz Bakı neft mədənlərindən çox mühüm kömək ala bilər"[2]. Xəzərticarət donanmasının gəmiləri Bakı neftini Həştərxana daşımağa başladı. Təkcə 1920-ci il aprelin 30-dan mayın 2-dək Həştərxana 12 gəmi ilə 1,3mln. pud neft aparılmışdı.

1920-ci il noyabrın 14-də Tiflisdə Azərbaycan, Gürcüstan və RSFSR arasında tranzit ticarət haqqında saziş bağlandı. Sazişdə Bakı neftinin Gürcüstanda çıxarılan daş kömürlə, meşə-ağac məmulatları və başqa məhsullarla mübadiləsi nəzərdə tutulurdu. Saziş Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları iqtisadi sahədə "əməkdaşlığı gücləndirmək" məqsədi daşısa da, əslində isə RSFSR rəhbərliyinin strateji məqsədlərinə uyğun idi. 1921-ci il aprelin 14-də isə Cənubi Qafqaz dəmiryolu, iyunun 2-də xarici ticarətdə idarəçiliyin mərkəzləşdirməsi haqqında sazişlər imzalandı. Hər üç respublikanı təmsil edən nümayəndələrin daxil olduğu kollegiyanın rəhbərlik etdiyi birləşmiş Xarici ticarət idarəsi yaradıldı.

Bu, bir tərəfdən Sovet RusiyasınınGürcüstana olan marağının hərbi-strateji məqsədlərindən irəli gəlirdisə,digər tərəfdən isə Rusiyanın Azərbaycanın neft yataqlarına və limanlarınaçatmaqda Gürcüstan ərazisindən tranzit yol kimi istifadə edilməsi imkanınıdəyərləndirirdi.Digər Qafqaz respublikaları ilə müqayisədə Ermənistan Rusiyanın ticarət-iqtisadi, hərbi-strateji vədiplomatik planda marağını daha az cəlb edirdi. Sovet Rusiyası tələm-tələsikimzalanmış ikitərəfli və çoxtərəfli müqavilələrlə iqtisadi-ticarətmaraqlarının hüquqi təminatını təsbit etdi və SSRİ-nin ərazisinin genişləndirilməsifaktını reallaşdırmış oldu.

Eyni zamanda, Sovet hökuməti bir sıra çətinliklərə baxmayaraq, qonşu İranla ənənəvi ticarət əlaqələrinin bərpası və daha da genişləndirilməsi üçün böyük səylərini davam etdirirdi. Bu məqsədlə 1921-ci ilin mart ayında Azərbaycan XTK-nin xətti ilə qonşu İrana 3 ticarət ekspedisiyası göndərilmişdi. Azərbaycan sovet hökumətinin və onun bu sahəyə rəhbərlik edən qurumunun gərgin səylərinə baxmayaraq, respublikanın xarici ölkələrlə ticarət balansı passiv idi. Bu vəziyyət ilk növbədə həmin qurumun xarici ticarət əməliyyatlarını səriştəsiz idarə etməsindən irəli gəlirdi. Buna görə də, 1921- ci ilin iyulundan başlayaraq bəzi dövlət müəssisələri İranla müstəqil ticarət aparırdılar.

1922-ci ilin sentyabrında Azərbaycan SSR Xalq Xarici İşlər Komissarlığının XKS-yə göndərdiyi məktubda göstərilirdi ki, İranın ölkəmizdəki Diplomatik nümayəndəliyi Azərbaycan hökumətindən 20 min pud pambıq lifinin maneəsiz və gömrük rüsumuna cəlb edilmədən tranzit olaraq Batuma göndərilməsinə icazə verilməsi xahişinə müsbət cavab verilsin. A.Şirvaninin imzaladığı məktubda göstərilirdi ki, bundan əvvəl Ali İqtisad Şurasının bu malların gömrük rüsumu tutulmaq şərti ilə buraxılması haqqında

qərarı İran tərəfində narazılıq yarada bilər. Buna görə, 20 min pud pambığın həqiqətən İran hökumətinə məxsus olmasını və son zamanlar hər iki ölkə arasında münasibətlərin qaydaya düşməsi faktı nəzərə alınmalıdır [3].

Sözsüz ki, Azərbaycanın xarici iqtisadi əlaqələrində RSFSR-in inhisarına aldığı malların siyahısında neft, pambıq, xam ipək və dərman bitkilərini əhatə edirdi. Neft məhsullarının ixracı hüququ RSFSR-in xarici ticarət komissarı L.Krasinin imzaladığı 1922-ci il 21 iyul tarixli qərarı yaradılan "Nefteksport" Cəmiyyətinə verildi. İran, Xorasan, Türkiyə (İstanbul vilayətindən başqa), Suriya, Fələstin, Fars körfəzi və Bolqarıstana Bakı, Batum və Poti limanlarından ixracı nəzərdə tutulurdu. Neft məhsullarının ixracı ilə əlaqədar bütün məsələlər, o cümlədən dəniz yolu ilə İrana daşınmasına icazə verilməsi səlahiyyəti Xarici ticarət komissarlığının Bakı nümayəndəsindən alınaraq Azneftin rəisinə verilirdi.

Avropa ölkələri ilə iqtisadi əlaqələrin inkişafı olduqca vacib idi. Belə ki, 1921-ci ilin dekabr ayına qədər fəaliyyət göstərən Azərbaycan XTK İtaliya, İsveçrə və Fransa şirkətləri ilə imzalanan 6 ticarət sazişi əsasında xalça, ipək parça, barama və xəz satmaqla 166, 8 min funt sterlinq həcmində müxtəlif mallar alınmışdı. Bundan əlavə 1,5 mln. funt sterlinq məbləğində alqı-satqı sövdələşmələri imzalanmış və Təkcə Almaniyadan 60 min ədəd elektrik lampası, elektrik avadanlığı, dəmir yolu vaqonları, kənd təsərrüfatı alətləri və kütləvi tələbat malları gətirilmişdi. 1921-ci ilin fevralından başlayaraq bir neçə ay ərzində Batum vasitəsilə Avropa ölkələrinə 3326 ədəd xalça, 513 pud qara kürü, 1149 pud frizon, 55903 dəst bağırsaq, 2566 ədəd qaragül dəri, 120 pud ipək, 996 pud yun və digər valyuta tutumlu mallar göndərilmişdi. Azərbaycanla xarici iqtisadi əlaqələrin bərpa edilməsində maraqlı olan bir sıra ölkələrin diplomatik nümayəndəlikləri fəaliyyətlərini davam etdirməyə səy göstərirdilər.

Estoniya Respublikası Azərbaycanla diplomatik, siyasi münasibətlər və ticarət əlaqələri qurmaq niyyətində idi. Onlar sərbəst mal mübadiləsi və qarşılıqlı iqtisadi əlaqələr qurmaq istəyirdilər. Ölkənin Azərbaycanın neft məhsullarının, kənd təsərrüffatı və balıq sənaye avadanlıqlarına ehiyacı var idi. Lakin Azərbaycan tərəfi müəyyən bəhanələrlə hətta layihəsi müzakirə olunmuş sazişi imzalamadı və Estoniya konsulu Bakıya buraxılmadı.

Əslində, 1920-1922-ci illərdə Azərbaycan ticarət-iqtisadi əlaqələrində bitərəf siyasət yeridərək, Rusiyaya daha çox meyl etdi. Avropa ölkələri ilə iqtisadi əlaqələr sovet hökumətinin tanınması müqabilində yaradıla bilərdi. Hətta, Azərbaycan ərazisində olan neft sənayesi və balıq vətəgələrinin Avropa dövlətlərinə konsessiyaya verilməsi ilə böyük xeyir götürə bilərdi. 1922-ci ildə keçirilən Genuya konfransında Bakı neftinə böyük maraq var idi.Neftin konsessiyaya verilməsi məsələsi müzakirə edilsə də, Rusiya buna maneə oldu. Eyni zamanda N.Nərimanov konfransda Bakı neft mədənlərinin xaricilərə konsessiyaya verilməsi məsələsini işıqlandırmışdı.O, belə hesab edirdi ki, neft

mədənlərinin qismən konsessiyaya verilməsi Azərbaycan üçün xeyirli olardı və sənayeni inkişaf etdirməyə geniş imkanlar açardı. Azərbaycanın təbii sərvətləri amansızcasına istismar edildi. Rusiya Sovet Respublikası hökuməti Bakı neftinin üzərində tam hüquqlu sahibkar kimi hərəkət edirdi. Azərbaycan Cümhuriyyətinin digər nümayəndələrindən biri olan Məhəmməd Məhərrəmov İtaliya mətbuatında çıxış edərək bildirmişdi ki, bolşeviklər Azərbaycan millətinə məxsus neft mədənlərini satmağa səlahiyyətli deyillər. Onun fikrincə, Bakı neft sənayesində rus kapitalı elə də əhəmiyyətli rol oynamamışdı.Buna görə də, Abşeronun neftlə zəngin əraziləri Azərbaycan xalqına və oraya kapital qoymuş xarici şirkətlərə aid olmalı idi [4].

Genuya konfransının rəsmi görüşünün məqsədi müharibədən yeni çıxan və iqtisadi vəziyyəti dəhşətli olan Avropa xalqlarını inkişaf etdirmək olsada,əslində Azərbaycan nefti uğrunda ayrı-ayrı dövlətlərin mübarizəsi dövrü idi. Bir sözlə, 1922-ci ilin aprel ayının 10-da Genuyada keçirilən konfransda əsas məqsəd Bakı neftinin imtiyazı idi.Belə ki, konfransın sənəd və konfransa təqdim edilən memorandumlarda neftin adı qətiyyən çəkilməmiş və gizli saxlanılmışdı. Buna baxmayaraq, konfransda müzakirə olunan konsessiyalardan söhbət gedərkən məsələnin əsasında neftin olduğu aydın görünürdü.

Konfrans əslində Royal-Dutch və Standard Oil üzərindən ingilis-amerikan mübarizə meydanına çevrilmişdi. Belə ki, Loyd Corc Rusiya ilə konsessiyalar və icarə barədə razılığa gəlmək istəyirdi. Krasin və ingilislər ingilis-İran neft şirkətinə güzəştlərin edilməsi, Bakı və Qroznı bölgələrində neftin inhisara verilməsinə dair danışıqlar aparmışdır. Amerika bu planın baş tutmaması üçün səylər göstərmişdir[5].

Fransa hökumətinin də Azərbaycana, xüsusilə, neftə olan marağı heç də az deyildi. Belə ki, Genuya konfransı ərəfəsində Fransanın baş naziri R.Puan-kare mart ayının 31-də parlamentdəki çıxışında Azərbaycanın Fransa üçün xüsusi önəm daşıdığını qeyd edərək deyirdi: "Biz Azərbaycan hökumətinin müstəqil hüquqlarını pozan hər hansı hərəkətləri tanıya bilmərik. Amerikanın mövqeyi də bizim mövqeyimizlə üst-üstə düşür" [4].

Bundan başqa, təkcə Avropa ölkələri deyil, eyni zamanda Azərbaycan SSR ilə Türkiyə hökuməti arasında ticarət əlaqələrinin bərpası o dövr üçün olduqca mühüm idi. Moskva müqaviləsi imzalanana qədər Sovet Azərbaycanı ilə Türkiyə hökuməti arasında iqtisadi əlaqələrin qurulması zəif olduğundan qarşılıqlı ticarət münasibətləri də qeyri-normal şəkildə inkişaf etmişdi. Belə ki, Moskva müqaviləsi imzalanandan sonra, Sovet Azərbaycanı ilə Türkiyə hökuməti arasında ticarət əlaqələrinin bərpa olunması üçün yeni şərait yarandı. 1921-ci ilin martın 16-da Moskvada sovet Rusiyası ilə Türkiyə arasında imzalanan müqavilə hər şeydən əvvəl iqtisadi, o cümlədən ticarət əlaqələrinin yaradılması və inkişafını nəzərdə tuturdu. Türkiyənin neftə olan tələbatının çox hissəsi Azərbaycan vasitəsilə ödənilirdi. 1922-ci ilin yanvarında Ankarada

Sovet Ticarət nümayəndəliyi fəaliyyətə başladı. Bu nümayəndəliyin vəzifəsi Türkiyə ilə ticarət münasibətlərini inkişaf etdirməkdən ibarət idi. Türkiyə özünə lazım olan bir sıra zəruri malları, o cümlədən neft və neft məhsullarını, tikinti materiallarını Sovet İttifaqından almağa başladı. Cənubi Qafqaz gömrük idarəsinin məlumatında göstərilir ki, "Azərneftsindikat" yalnız Batumi limanı vasitəsilə Türkiyəyə 1922-ci ildə 9294 ton yanacaq nefti və 340 ton benzin, 1923-1924-cü illər ərzində 16931 ton yanacaq nefti 509 ton benzin, 2695 ton maşın yağı, 180 ton mazut, toxuculuq dəzgahları üçün işlədilən 48 ton motor yağı aparmışdı [6].

Moskva müqaviləsi kimi Qars anlaşması da öz növbəsində Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında ticarət-iqtisadi əlaqələrinindaha da inkişafına şərait yaratdı. Hər iki ölkənin rəsmiləri ticarət əlaqələrinin qurulmasında maraqlı idi. Qars müqaviləsi iki ölkə arasında iqtisadi əlaqələrin hüquqi əsasını təşkil edən sənəd idi.Müqavilənin 17-ci maddəsində göstərilirdi ki, hər iki ölkə əlaqələrin fasiləsizliyini təmin etmək məqsədi ilə dəmir yolu, teleqraf və başqa rabitə vasitələrinin qorunmasını və mümkün sürətlə inkişafını, həmçinin insanların və məhsulların heç bir maneə olmadan sərbəst hərəkətini təmin etmək üçün bütün tədbirləri qarşılıqlı şəkildə həyata keçirməyi öz öhdəsinə götürürlər. Türkiyə ilə Qafqaz respublikaları arasında ticarət əlaqələri daha çox yerli səciyyə daşıyırdı.Belə ki, 1920-1922-ci illərdə hər iki ölkədə baş verən siyasi proseslər səbəbindən ikitərəfli iqtisadi-ticarət əlaqələri demək olar ki, pozulmuşdu. Bu dövrdə Azərbaycan Sovet hökuməti Türkiyə qurtuluş savaşına böyük maddi və maliyyə yardımı göstərmişdi.

Yalnız Moskva və Qars müqavilələrinin bağlanmasından sonra Türkiyə ilə qarşılıqlı iqtisadi əlaqələr genişlənməyə başladı.

1922-ci ilin martında Azərbaycan XTK ləğv edildi və xarici ticarət əməliyyatlarının vahid bir mərkəzdən idarə edilməsi səlahiyyətləri yeni təşkil olunmuş ZSFSR Xarici Ticarət Komissarlığı təşkil olundu. Bu komissarlığın ayrı-ayrı respublikalarda, o cümlədən Azərbaycanda şöbələri yaradıldı. Həmin ilin avqust ayından isə Komissarlığın yerlərdəki şöbələri dövlət idxal - ixrac kontorları ilə əvəz olundu.

## Ədəbiyyat

1. Dadaşova R. Azərbaycanın Avropa dövlətləri ilə münasibətləri (1920-1922-ci illər): Bakı: 2003. 170 s.
2. Azərbaycan tarixi: 3 cilddə, III c., Bakı: Elm, 1973, 548 s.
3. Quliyev R. Azərbaycan SSR Sovet Gömrük sistemi şəraitində(1920-1991) Bakı - 2015

4. Həsənli C. Tarixi şəxsiyyətin tarixi: Əlimərdan bəy Topçubaşov. Azərbaycan Diplomatik Akademiyası. Baku, 2013. 588 s.
5. Papers Relating to the Foreign Relations of the United States. 1922 (In two volumes). Volume II, p.774
6. ƏmirovaY.Azərbaycan SSR-Türkiyə münasibətləri (XX əsrin 20-ci illəri)

# MİLLİ ORDU AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİN QARANTIDIR

**Abbaszadə Nigar**
Sumqayıt Dövlət Universiteti
abbaszade1988@gmail.com

**Açar sözlər:**ordu, dövlət, müstəqil, ərazi, təminat, münaqişə, müharibə, texnika

Milli Ordu quruculuğunun rüşeymləri Ulu Öndər Heydər Əliyevin Azərbaycana ilk hakimiyyəti illərinə aiddir. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, ordumuzun müasir silahlarla təminatı istiqamətində görülən mühüm işlər sayəsində Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü orduları ilə bir cərgədə öz layiqli yerini tutmuşdur. Dağlıq Qarabağ problemi ilə bağlı siyasətin gedişində yaranan yeni keyfiyyət dəyişikliyindən biri də, İlham Əliyevin qeyd etdiyi kimi, sözdən işə, müdafiə olunmaqdan hücum siyasətinə keçməyin vaxtı çatmasının beynəlxalq təşkilatlara mesaj edilməsidir. 2003-cü ildən başlayaraq bu sahədə görülmüş işlərin nəticəsində Azərbaycan Milli Ordusu44 günlük Vətən müharibəsinin ikinci mərhələsində torpaqlarımız 28 illik erməni işğalından azad etməyə nail oldu və ərazi bütövlüyümüz bərpa edildi.

## НАЦИОНАЛЬНАЯ АРМИЯ - ГАРАНТИЯ ГОСУДАРСТВЕННОЙ НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНА

**Абасзаде Нигяр**

**Ключевые слова:** армия, государство, независимый, территория, безопасность, конфликт, война, техника.

Зародыши строительства Национальной армии восходят к первым годам правления Общенационального лидера Гейдара Алиева в Азербайджане. Благодаря проделанной важной работе по созданию воинских частей в соответствии с современными стандартами и оснащению нашей армии современным вооружением, Вооруженные силы Азербайджана заняли достойное место среди сильнейших армий мира. Одним из новых качественных изменений в политике в отношении

нагорно-карабахского конфликта, как отметил Ильхам Алиев, является сигнал международным организациям о том, что пора переходить от слов к делу, от политики обороны к политике наступления. В результате работы, проделанной в этой области в 2003-2020 годах, Азербайджанской национальной армии удалось освободиться от 28-летней армянской оккупации во втором этапе 44-дневной Отечественной войны, и наша территориальная целостность была восстановлена.

## NATIONAL ARMY - GUARANTEE OF STATE INDEPENDENCE OF AZERBAIJAN

**Abbaszade Nigar**

**Keywords:**army, state, independent, territory, security, conflict, war, technology

The embryos of the construction of the National Army date back to the first years of the rule of the National Leader Heydar Aliyev in Azerbaijan. Thanks to the important work done to create military units in accordance with modern standards and equip our army with modern weapons, the Armed Forces of Azerbaijan have taken a worthy place among the strongest armies in the world. One of the new qualitative changes in the policy towards the Nagorno-Karabakh conflict, as noted by Ilham Aliyev, is a signal to international organizations that it is time to move from words to deeds, from a defense policy to an offensive policy. As a result of the work done in this area in 2003-2020, the Azerbaijan National Army managed to free itself from the 28-year-old Armenian occupation in the second stage of the 44-day Patriotic War, and our territorial integritywas restored.

***

**Giriş.**Azərbaycan dövlətçiliyinin möhkəmləndiriməsi üçün xalqımızın cəlb olunduğu Qarabağ müharibəsinin nəticələrinin aradan qaldırılması, ərazi bütövlüyümüzün bərpasına xidmət edən uğurlu müasir ordu quruculuğunun həyata keçirilməsi olduqca vacib vəzifələrdən biridir.

2003-2017-ci illərdə beynəlxalq aləmdə Azərbaycanın cəlb olunduğu müharibənin əsl günahkarının Ermənistan olması, ermənilərin təcavüzkar kimi dünya ictimaiyyəti tərəfindən tanınması üçün ciddi və məqsədyönlü işlər görülmüşdür.Nəzərə almaq lazımdır ki, münaqişənin və onun nəticələrinin ara-dan qaldırılması məqsədi ilə aparılmış işlərin mühüm bir sahəsi, eyni zamanda dövlət müstəqilliyinin yeni inkişaf mərhələsinin əsas istiqamətlərindən biri də Azərbaycanda ordu quruculuğunun sürətləndirilməsi, silahlı qüvvələrimizin

dövlətimizin təhlükəsizliyini, ərazi bütövlüyünü təmin etmək üçün yüksək döyüş hazırlığı vəziyyətinə gətirilməsidir. Etiraf edək ki, dövlətçiliyin bərpası onun qorunmasını və möhkəmləndirilməsini zəruri edir. Bu, ilk vəzifədən daha məsuliyyətli, həm də çətindir.

Milli tarixşünaslığımızda silahlı qüvvələrimizin dünya standartları səviyyəsinə çatdırılması və ərazi bütövlüyümüzü bərpa etmək qüdrətinə malik olması üçün görülmüş işlər haqqında bəzi əsərlər yazılmışdır. Problem üzrə müəyyən məqamların hələlik tədqiqatlardan kənarda qaldığını, 44 günlük müharibənin ordu quruculuğunun nəticələri və perspektivlərinin müəyyən edilməsi baxımından vacibliyini nəzərə alaraq, məqalədə mövzuya aid bır sıra məqamları əhatə etməyə çalışmışıq.

**Milli Ordu quruculuğunun ilk addımları.**Qeyd etməliyik ki, Milli Ordu quruculuğunun rüşeymlərinin yaranması Ulu Öndər Heydər Əliyevin Azərbaycanda ilk hakimiyyəti illərinə təsadüf edir. Məlumdur ki, Rusiya işğalından sonra çar hökumətinin müsəlman əhalidən xüsusi hərbi vergi alaraq, əslində hərbi xidmətdən uzaqlaşdırması onlara etimad göstərmədiyini və ayrı seçkilik siyasəti məqsədləri güddüyünü sübut edirdi. Bunun nəticəsi idi ki, tarix boyu hətta, ən yaxın iki qonşularla – erməni və gürcülərlə müqayisədə milli hərbi kadrlarımızın sayı xeyli az olmuşdur. Heydər Əliyevin 1970-ci illərdəki uzaqgörənliyinin mühüm təzahürlərindən biri milli hərbi təhsilin əsasını qoymaq istiqamətində atdığı addımlar idi [4, s.36].

H.Əliyevin respublikada rəhbərliyə gəldiyi ilk günlərdən fəaliyyəti boyu bu məsələ onun diqqətində olmuşdur. O vaxt H.Əliyevin ənənəyə çevirdiyi ittifaqın digər şəhərlərində ali təhsil almağa göndərilən və təhsilini başa vurduqdan sonra geri dönən ali təhsilli mütəxəssis kadrlar arasında ali təhsilli zabit kadrlarımız da çox idi.

1971-ci il iyunun 20-də C.Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəb təşkil edildi [8]. Növbəti illərdə azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunması da həyata keçirildi.

O vaxtkı ittifaq rəhbərliyinin belə məsələlərə necə həssas yanaşdığını bildiyimizdən,bu uzaqgörən siyasi addımınsıradan adi bir hadisə deyil, H.Əliyevin o vaxt bir sıra ciddi maneələri aradan qaldıraraq bu məqsədə nail olduğundan xəbər verirdi. Bu uzaqgörənlik özünü çox da gözlətmədi. Bu hərbi məktəbin yetirmələrindən bir çoxu 1988-ci il hadisələri zamanı vətənə geri dönərək, yenicə yaranan Milli Ordunun sıralarında ərazi bütövlüyümüzün erməni işğalçılarından qorunmasında xüsusi rol oynadı.

**Milli Ordu quruculuğunun yeni mərhələsi.**Ordumuzun möhkəmləndirilməsi və nəinki bölgənin, hətta dünyanın ən güclü və təchizat baxımından təminatlı orduları sırasında dayanmasına xidmət edən müasir ordu quruculuğu

siyasətinin əsasları və ilk nəticələri də Ulu Öndər H.Əliyevin Azərbaycanda ikinci hakimiyyəti illərinə təsadüf etmişdir.

1993-2003-cü illərdə Qarabağ müharibəsinin nəticələrini aradan qaldırmaq, ərazi bütövlüyümüzün bərpasına nail olmaq üçün müəyyən işlər görülmüşdü. Onların nəticələrindən biri də bu oldu ki, BMT-nin TŞ-sı 1993-cü ildə Ermənistanın hərbi təcavüzünü pisləyərək, işğal olunmuş torpaqlarımızın dərhal azad olunmasını tələb edən 4 Qətnamə qəbul etdi [2, s.540]. Bu qətnamələrin icra olunması kağız üzərində qalsa belə, Ermənistanın təcavüzkar kimi tanınmasında, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması yolunda görülmüş işlərin ilk böyük addımları idi.

Daim yenilənən beynəlxalq münasibətlərin tez-tez köklü dəyişikliklərə məruz qalması, xarici təsirlərin və təhdidlərin mövcudluğu şəraitində ulu öndər Heydər Əliyevin siyasi varisi və tarixi dövlət idarəçiliyi məktəbinin ən layiqli davamçısı İlham Əliyev milli dövlətçiliyimizin qorunub möhkəmləndirilməsi yolunda ən məsuliyyətli mərhələnin əvvəli sayılan 2003-cü ildən başlayaraq xalqımıza şərəfli və ləyaqətli xidməti ilə dövlətçiliyin bütün istiqamətlərdə, o cümlədən ordu quruculuğu sahəsində inkişafımızı təmin etmək üçün misilsiz işlər görmüşdür.

Ulu Öndərin missiyasını ləyaqətlə davam etdirən İ.Əliyevin hakimiyyəti dönəmində bu istiqamətdə görülən işlər həm miqyas, həm də nəticələri baxımından yüksək səmərəliliyi ilə fərqlənmişdir.

Heydər Əliyevin ordu quruculuğu istiqamətində açdığı yol Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilərək ciddi uğurlar əldə edilməsi ilə yadda qalmışdır. 2003-2020-ci illərdə silahlı qüvvələrimiz yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması, ordumuzun müasir silahlarla təminatı istiqamətində görülən mühüm işlər sayəsində Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü orduları ilə bir cərgədə öz layiqli yerini tutmuşdur. 2016-cı ilin aprel döyüşləri Azərbaycan Ordusunun gücünü və işğal altındakı torpaqlarımızı qısa müddətdə azad etməyə qadir olduğunu bir daha göstərdi [1].

İ.Əliyevin dövlətimizə başçılıq etdiyi illərdə iqtisadi sahədəki uğurlarımız ordu quruculuğunu da genişləndirməyə şərait yaratmışdır. Bu illər ərzində hərbi xərclər dəfələrlə artmışdır [5, s.318]. Bunlar ordu quruculuğunun miqyası baxımından dövlətimizin bu sahədə dünyada aparıcı yerlərdən birini tutduğunu sübut edir.

Milli Ordumuzun möhkəm nizam-intizamı, yüksək döyüş ruhu və müasir döyüş texnikası ilə təmin edilməsi, peşəkarlıq səviyyəsi onu deməyə imkan verdi ki, işğal edilmiş torpaqlarımızın azad edilməsi üçün bütün şərtlər təmin edilmişdir.

Bu gün dünyada dövlətlərarası münasibətlərdə beynəlxalq hüquq normalarının etnik, məhəlli qarşıdurma və müharibə ocaqlarını söndürməkdə zəif təsir gücünə malik olduğu şəraitdə güc mövqeyinin nümayişi tez-tez rastlaşılan haldır. Bu baxımdan Qarabağ müharibəsinin ədalətli sonluqla başa çatdırılması hərbi qüdrətimizi artırmağı zəruri edirdi. Torpaqlarımızın erməni işğalından azad edilməsi üçün mümkün olan iki variantdan ən realı hesab olunan ədalətli və qalibiyyətli müharibəyə hər an hazır olmaq üçün bütün zəruri işlər görüldü.

**Güclü iqtisadiyyat, qüdrətli hərbi potensial.**Prezident İ.Əliyevin çıxışlarında səslənən və son dərəcə əhəmiyyətli olan bir müddəa üzərində dayanmaq istərdik. Məsələ bundadır ki, İ.Əliyevin prezidentliyi dönəmində dövlətimizin iqtisadi qüdrətinin durmadan artması düşmənin əvvəl-axır öz təcavüz siyasətindən əl çəkərək məsələnin sülh yolu ilə həlli üçün illərlə davam edən sülh danışıqlarının indiki mərhələsində mövqeyimizi gücləndirən həlledici təsir vasitələrindən birinə çevrilmişdir.

Güclü iqtisadiyyat, həm də qüdrətli silahlı qüvvələr və hərbi potensial deməkdir. Məhz bu faktor Azərbaycan tərəfinin müharibəyə başlayacağı halda Ermənistan rəhbərliyinin Ermənistanı nələr gözləyəcəyini dərk etməsi onun son illərdəki siyasətində də özünü büruzə verir və dövlət başçımızın mövqeyinə haqq qazandırır.

Beynəlxalq analitiklər və müxtəlif ölkələrdən hərbi mütəxəssislərin Azərbaycan və Ermənistan silahlı qüvvələrinin döyüş imkanları və malik olduqları hərbi texnikanın imkanlarının müqayisə etmələrinin nəticələri olduqca maraqlı qənaətlərə gəlməyə səbəb olmuşdur. Bu müqayisələrin nəticələri bir mənalı şəkildə bunu deməyə əsas vermişdir ki, Azərbaycan Milli Ordusu bütün göstəricilər baxımından, ilk növbədə isə ən müasir döyüş texnikası və silahlara malik olması baxımından dünyanın ən güclü ölkələri arasındadır. Bunu yalnız ona havadarlıq edən dövlətin artıq köhnəlmiş silah və döyüş texnikasının mövcud olduğu, yeni müasir döyüş texnikaları almaq üçün indiki ağır və acınacaqlı maliyyə durumunun heç cür imkan vermədiyini anlamağa məcbur olan Ermənistan tərəfi gec də olsa, anlamaqdadır. Milli Ordunun 2016-cı il aprel döyüşlərində və 2018-ci il Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılıb [5, s.321]. Bu, həmin döyüşlərin ağır nəticələrini artıq görmüş Ermənistan tərəfə və ona havadarlıq edənlərə də dərs olmuşdur. Bu həqiqət və reallıqdır.

"Azərbaycan Ordusu güclənir, maddi-texniki bazası möhkəmlənir, ordumuz müasir texnika və silah-sursatla təchiz olunur, hərbçilərin xidmət şəraiti yaxşılaşır, hərbi hissələrdə və hərbi şəhərciklərdə yenidənqurma işləri aparılır. Ordumuzda döyüş qabiliyyəti, mənəvi-psixoloji durum, vətənpərvərlik ruhu çox yüksəkdir. Bunu Aprel döyüşləri də göstərdi. Ermənistanın Aprel təxribatına ordumuz layiqli cavab verdi" [3, s.6].

Bir daha qeyd edilməlidir ki, bu adi hadisə olmayaraq böyük siyasi əhəmiyyəti olan tarixi həqiqət idi və bu ilk növbədə İ.Əliyevin həyata keçirdiyi uğurlu ordu quruculuğu siyasətinin təntənəsi olaraq, Azərbaycan Milli Ordusunun Cənubi Qafqaz regionunda ən güclü orduya çevrilməsindən sonra baş vermişdir.

İ.Əliyev yüksək beynəlxalq tribunalardan dəfələrlə bəyan etmişdi ki, Qarabağ müharibəsinin yalnız birinci mərhələsi başa çatıb. Atəşkəs rejimi var. Ancaq sülh müqaviləsi imzalanmayıb. Müharibə şəraitində yaşayan ölkədə birinci növbədə ordu məsələlərinə diqqət göstərilməlidir. Bu baxımdan Milli Ordunun möhkəmləndirilməsində Müdafiə Sənayesi Nazirliyinin təsis olunması da mühüm rol oynamışdır. Son illər ərzində 20-dən çox hərbi zavod yaradılıb. Bu zavodlarda 1200 adda hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur, ordumuz təchiz edilir [5, s.318]. Bütün bunlar bu sahədəki vəziyyətdə ciddi dönüşdən xəbər verir.

Bu gün Müdafiə Sənayesi Nazirliyinin istehsal etdiyi və düşməndə narahatlıq doğuran silah və texnikaya əsrlərlə müstəqillik tarixi olan dövlətlər də qibtə edir.

**Dünyanın ən güclü ordularından biri.**Son illərdə ənənəyə çevrilən Azərbaycan ordusunun yaranmasının ildönümlərində keçirilən hərbi paradlar və onları izləyənlər arasında qonşu dövlətlərin nümayəndələrinin olması, orada nümayiş etdirilən ən müasir döyüş texnikası və silah növləri, o cümlədən müasir tanklar, piyadaların döyüş maşınları, zenit raket qurğuları, reaktiv yaylım atəş sistemləri, pilotsuz uçuş aparatları, hava hücumundan müdafiə qurğuları bir daha Milli Ordumuzun kifayət qədər yüksək olan döyüş potensialından, dünyanın hərbi cəhətdən ən güclü dövlətlərinin malik olduqları döyüş texnikası və silahların Milli Ordumuzun cəbbəxanasında olmasından xəbər verir.

Milli Ordunun möhkəmləndirilməsi, ordu quruculuğu ilə bağlı bütün məsələlər dövlət başçısının gündəlik fəaliyyəti və nəzarətinə daxil olan ilk məsələlər sırasındadır. Gənclərin hərbi səfərbərliyi, hərbi kadrların hazırlığı ilə məşğul olan bir neçə ali hərbi məktəbin maddi-texniki təminatının yaxşılaşdırılması və digər məsələlərin vəziyyəti dərhal və ardıcıl şəkildə öyrənilərək əməlli tədbirlər həyata keçirilmişdir.

**Müdafiə olunmaqdan hücum siyasətinə keçid**. Dağlıq Qarabağ problemi ilə bağlı xarici siyasət kursunun gedişində yaranan yeni keyfiyyət dəyişikliklərindən biri də İ.Əliyevin qeyd etdiyi kimi, sözdən işə keçmək, müdafiə olunmaqdan hücum siyasətinə keçməyin vaxtı çatmasının dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara mesaj edilməsidir. Bu bir həqiqətdir ki, təcavüzə məruz qalmış istənilən bir xalq, torpaqları işğal edilmiş hər bir dövlət heç bir müzakirəsiz, qeyd-şərtsiz, kimisə xəbərdar etmədən, öz ərazisini azad edə və orada öz suveren hüquqlarını bərpa edə bilər. Hətta, o bunları etməyə borcludur.

Bu baxımdan heç bir qanun, beynəlxalq təşkilat Azərbaycanın öz torpaqlarının müharibə yolu ilə azad etmək hüququnu inkar edə bilməz.Ümumiyyətlə, nə belə qanun, nə də belə təşkilat yoxdur.

Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev dəfələrlə bəyan etmişdir ki, biz güclü, ən müasir silah və texnika ilə təmin edilmiş orduya malikik. Azərbaycanın 2016-cı ilin Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan əsgəri, zabiti, generalı – Azərbaycan Ordusu əsl qəhrəmanlıq, peşəkarlıq, rəşadət göstərdi [5, s.320]. Nəticədə Milli Ordumuz işğal altında olan torpaqlarımızın bir hissəsini azad etdi, əhəmiyyətli dərəcədə digər hissəsinə nəzarət etməyin təmin olunması ilə nəticələnən strateji məntəqələri geri qaytardı. Bütün bunlar dövlət başçısının öz mövqeyində nə qədər qətiyyətli, Azərbaycan silahlı qüvvələrinin öz torpaqlarını öz gücləri ilə azad etməyə həm israrlı, həm də qadir olduğunu bir daha sübut etmiş oldu.

**Ərazi bütövlüyümüzün bərpasının ilk addımları.**Yəqin ki, məhz aprel günlərində beynəlxalq kütləvi informasiya vasitələrini ardıcıl izləyənlər Ermənistan paytaxtında və digər iri şəhərlərdə ermənilərə artıq 3 əsrə yaxın havadarlıq edən ölkənin dövlət bayrağının yandırıldığını, dövlət rəhbərinin ünvanına isə təhqirlərin səsləndiyinin əyani şahidi olmuşdur.

Aprel döyüşlərində Azərbaycan silahlı qüvvələri öz gücü ilə işğal altında olan ərazilərimizi tamamilə azad edə bilərdi və əvvəlcədən də qarşıya qoyulmuş vəzifə, Ali Baş Komandan İ.Əliyevin döyüş əmri də belə idi. Lakin həmişə olduğu kimi, münaqişənin nizamlanmasında öhdəlikləri olan Minsk qrupunun həmsədr ölkələri, əvvəl etdikləri kimi, Ermənistanın bu cür gülünc və fəlakətli vəziyyətində onun köməyinə tələsərək hücum əməliyyatlarının dərhal dayandırılması üçün İ.Əliyevə diplomatik təzyiqlər göstərdilər. Bu təzyiqlərin içərisində bu dövlətlərin xüsusi "həmrəylik göstərərək" Azərbaycan silahlı qüvvələrinin hücum əməliyyatlarını davam etdirəcəyi təqdirdə illərlə qeyri-qanuni separatçı rejim adlandırdıqları oyuncaq, qondarma "Dağlıq Qarabağ Respublikasını" tanıyacaqları təhdidlərini israrla təkrar etmələri nəinki məhəlli münaqişələrin, ümumiyyətlə, diplomatiya tarixində görünməmiş nadir hal idi. Silahlı münaqişənin həlli üçün diplomatik fəaliyyəti gücləndirmək haqqında öhdəlik qəbul etmiş nizamlayıcı dövlətlər münaqişənin əsas səbəbkarının cinayətkar mövqeyinin müdafiəsinə keçməklə beynəlxalq və siyasi dairələrdə özlərini gülünc vəziyyətə salmış oldular.

**Münaqişənin hərbi yolla həllinin qaçılmazlığı.**Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində 2003-2020-ci illər ərzində Azərbaycan Respublikası qəbul etdiyi bütün beynəlxalq öhdəliklərə və ümumbəşəri sülh dəyərlərinə sadiq qalaraq münaqişənin danışıqlar vasitəsi ilə həllinə üstünlük verilməsininin nəticəsiz qalması münaqişənin hərbi yolla həllini qaçılmaz edirdi. 2008-ci il 14 martda BMT Baş Məclisində Azərbaycanın təşəbbüsü ilə Azərbaycanın ərazi bütövlüyü və erməni hərbi birləşmələrinin işğal edilmiş

bütün ərazilərdən çıxarılması məsələsi müzakirə edilsə də, lakin çox acınacaqlı və təəssüf doğuran səbəbdən - Minsk qrupu həmsədrləri ölkələri ABŞ, Rusiya və Fransanın təklif etdiyi qətnamə layihəsinin əleyhinə səs verməsi, ən azı əsassız bəhanələrlə, bu müzakirələrin nəticəsiz qalması ilə başa çatmasına səbəb oldu [2, s.541].

Eyni vəziyyət İ.Əliyevin 2008-2013-cü illəri əhatə edən ikinci prezidentliyi dövründə də davam etmiş və Azərbaycan Respublikası Prezidenti Minsk qrupu həmsədrlərinin fəaliyyətindən, daha dəqiq desək, fəaliyyətsizliyindən xalqımızın ciddi şəkildə narazı qaldığını bəyan edərək demişdir ki, problem ətrafında mövcud status-kvo uzun müddət qala bilməz və vəziyyət hər an dəyişə bilər.

Münaqişənin başlanmasından 32 il keçsə, onun həlli üçün sülh danışıqları əvvəlki formatda yenə də davam etsə də, son danışıqlarda vəziyyət və tərəflərin mövqeyi 2016-cı ilə qədər olduğundan xeyli fərqli idi. Bir tərəfdən yeni Ermənistan rəhbərliyinə nəhayət ki, tam şəkildə aydın olmuşdur ki, ölkəsi Dağlıq Qarabağ məsələsində mövcud status-kvonu uzatmağa davam etdikcə regionda həyata keçirilən, irimiqyaslı iqtisadi layihələrdən özünü kənarlaşdırmaqla hər il milyardlarla ABŞ dolları ilə ölçülən maddi itkiləri ilə iqtisadiyyatı kəskin iflic vəziyyətinə düşmüşdür.

Digər tərəfdən Azərbaycan Respublikasının bu münaqişəni gec-tez öz silahlı qüvvələrinin köməyi ilə qısa bir vaxtda həll edə biləcəyinə möhkəm əmin olan beynəlxalq təşkilatların, o cümlədən Minsk qrupunun iki aparıcı üzvü olan ABŞ və Rusiyanın Ermənistan rəhbərliyinə müxtəlif formada təzyiqləri artmaqla bərabər, bu iki ölkənin bu məsələ ətrafında get-gedə daha çox, əvvəlki illərdə olduğundan fərqli şəkildə həmrəylik nümayiş etdirməsi də Ermənistanda çox ciddi narahatlıq yaratmışdır.

Nəhayət, əvvəlki iki səbəbdən daha tutarlı və inandırıcı olan üçüncü amildən bəhs edək. Ali Baş Komandan İlham Əliyevin apardığı ardıcıl siyasətin, diqqət və qayğısının məntiqi nəticəsidir ki, Azərbaycan Ordusu müasir silah-sursat, döyüş texnikası, onların keyfiyyəti, şəxsi heyətin sayı və döyüş əzmi baxımından düşmən ordusunu dəfələrlə qabaqlayır[6].

2003-2020-ci illərdə Azərbaycan cəmiyyətində münaqişənin hərbi yolla həllinə çağırışlar da durmadan artmışdır. Eyni vaxtda İ.Əliyevin son illərdə bütün beynəlxalq qurumlarda yüksək səviyyəli görüşlərdə məsələnin sülh yolu ilə həllini 30 ildən artıq bir müddətdə gözləyən vətəndaşlarının səbir limitinin tükənməsi haqqında açıq mesajları da öz işini görmüş oldu.

**Uğurlu ordu quruculuğu siyasətinin nəticələri.**Qeyd etməliyik ki, tədqiqatın əhatə etdiyi illərdə İ.Əliyevin uğurlu ordu quruculuğu siyasətinin nəticələri tezliklə öz bəhrəsini verdi. Vətən müharibəsinin ikinci 44 günlük ikinci mərhələsində Minsk qrupunun həmsədr ölkələri, təcavüzkarın bütün

havadarları Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinin qarşısını ala, torpaqlarımızın işğaldan azad edilməsinə mane ola bilmədilər.

Bu sahədə görülmüş işlərin nəticəsində Möhtərəm İlham Əliyevin Ali Baş Komandanlığı ilə şanlı Azərbaycan Ordusu cəmi 44 gün ərzində torpaqlarımızı azad edərək, 30 ilə yaxın davam edən erməni işğalına son qoydu. Bu tarixi hadisə ilə son bir neçə yüz il ərzində ilk dəfə olaraq Azərbaycan işğal olunmuş torpaqlarını özünə qaytardı, bununla da ərazi bütövlüyümüz təmin edildi [7].

Azərbaycan Milli Ordusu, Ali Baş Komandan İ.Əliyev 2020-ci ilin sentyabrın 27-də başlanmış 44 günülük Vətən Müharibəsinin ikinci mərhələsində hərb tariximizin ən böyük uğuruna imza ataraq torpaqlarımızı 28 illik erməni işğalından azad etməyə nail oldu və ərazi bütövlüyümüz bərpa edildi.

**Nəticə.** 2003-cü başlayaraq bu sahədə görülmüş işlərin nəticəsində Azərbaycan Milli Ordusu, Ali Baş Komandan İ.Əliyev 44 günülük Vətən Müharibəsinin ikinci mərhələsində hərb tariximizin ən böyük uğuruna nail oldu. Torpaqlarımız 28 illik erməni işğalından azad edildi və ərazi bütövlüyümüz bərpa olundu.Bu, eyni zamanda milli dövlətçiliyimizin ağır sınağa çəkdiyi 30 ildən çox davam edən çətin və gərgin günlərin arxada qalması deməkdir.

Yaşadığımız günlərdə, yaxın ətrafımızda dövlət müstəqiyimizi təhdid edən, ona hər vasitə iləzərbə vurmağa cəhd edən dairələr, qüvvələr, hətta qonşular yenə də var. Bu, o deməkdir ki, Milli Ordudaima dünya standartlarına cavab verəcək səviyyədə qalmalı, müasir silahlarla silahlandırılmalı, müstəqilliyimizə qarşı yonələcək ən cüzü hərəkəti, cəhdi belə dəf etməyə hazır olmalıdır. Ordu quruculuğu bundan sonra da dövlətçilik siyasətimizin prioritet istiqaməti olmalıdır.Azərbaycanın Milli Ordusu dövlət müstəqilliyinin qarantı olaraq qalacaqdır.

## Ədəbiyyat

1.Azərbaycanın Ordu quruculuğunda Prezident İlham Əliyev mərhələsi [Elekrton resurs] / URL: https://mod.gov.az/az/news/azerbaycanin-ordu-quruculugunda-prezident-ilham- eliyev-merhelesi-21110.html[müraciət tarixi 20 dekabr 2017]

2.Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016). Məqalələr toplusu / red: F.Məmmədov. -Poliart, - Bakı: - 2017. - 904 s.

3.Behbudov K. Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində mövcud status - kvo tezliklə dəyişməlidir // Xalq. – 2017. - 4 aprel. - s. 6.

4. ƏliyevHeydər: biblioqrafiya / tərt. ed. M.Vəliyeva, M.İbrahimova, A.Hüseynova - Zərdabi - Nəşr, Bakı: - 2018. - 680 s.

5.Əliyev İlham. İnkişaf - məqsədimizdir: 87-ci kitab / İ.Əliyev. - Azərnəşr, Bakı: - 2019. - 391 s.
6.Əliyev M. Ali Baş Komandan İlham Əliyev: Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır: [Elekrton resurs] / URL: https://mod.gov.az/az/pre/23115.html [müraciət tarixi 22 iyun 2018]
7.Möhbaliyev S. İlham Əliyevin müzəffər hərbi yürüşü // Azərbaycan. - 2020. 12 noyabr. .8.
26 iyun Azərbaycan Silahlı Qüvvələri Günüdür: [Elekrton resurs] / URL: https://www.aztc.gov.az/az/posts/id:414[müraciət tarixi 26 iyun 2016]

# NADİR ŞAH ƏFŞARIN DİNİ BAXIŞLARI

**Samir Baxşəliyev**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
bakhshaliyev81@bk.ru

**Açar sözlər**:*din, islam, dünya, türk, toplantı, hakimiyyət, imperiya*

*Məqalədə göstərilir ki, Nadir şah dinin siyasiləşməsini istəmirdi və ruhanilərin islam dinindən siyasi məqsədlərlə istifadə etməsi hallarına qarşı kəskin mübarizə aparırdı. Nadir şahın hakimiyyəti illərində din dövlətin rəsmi ideologiyası olmaq çərçivəsindən çıxarıldı. Ruhanilərin vəzifələri əhəmiyyətli dərəcədə ixtisar edildi. Onlar dövlət idarəçiliyində əvvəlki səlahiyyətlərini itirdilər. Onun yeritdiyi dini siyasətin nəticəsi olaraq ruhanilər dövlət aparatından məscidlərə çəkilməyə məcbur oldular. Nadir şahın İslam dünya-sında barışıq yaratmağa cəhd göstərməsi müsbət dəyərləndirilməlidir. Lakin bu barışıq xalq və ya onları yönləndirən ruhanilər tərəfindən olmadığı üçün, baş tutmamışdır.*

# РЕЛИГИОЗНЫЕ ВЗГЛЯДЫ НАДИР ШАХА АФШАРА

**Самир Бахшалиев**

**Ключевые слова:** *религия, исламский, мир, турецкий, ассамблея, правительство, империя*

*В статье указывается,что Надир шах не хотел политизировать религию и упорно боролась против использования ислама духовенством в политических целях. Во время правления Надир шаха религия перестала быть официальной идеологией государства. Духовенство утратило большую часть своего авторитета в правительстве. В результате его религиозной политики духовенство было вынуждено уйти из государственного аппарата в мечети. Следует отдать должное усилиям Надир шаха по установлению мира в исламском мире. Однако это примирение не состоялось из-за отсутствия поддержка людей или духовенства, которые ими руководили.*

# RELİGİOUS VİEWS OF NADİR SHAH AFSHAR

**Samir Bakshaliyev**

**Key words:** *religion, islamic, peace, turkish, assembly, government, empire*

*The article indicates that Nadir Shah did not want to politicize religion and fought hard against the use of Islam by the clergy for political purposes. During the reign of Nadir Shah, religion ceased to be the official ideology of the state. The clergy lost much of their authority in government. As a result of his religious policy, the clergy was forced to leave the state apparatus in the mosque. We must pay tribute to the efforts of Nadir Shah to establish peace in the Islamic world. However, this reconciliation did not take place due to the lack of support from the people or clergy wholed them.*

***

**Giriş.**Dinin mənbəyi Yaradana (Allaha - S.B.) dayanan və insanı mənəvi cəhətdən kamilliyə aparan, ona doğru yolu göstərən, ədalətli, mərhəmətli və xüsusilə də, vicdanlı olmağı əmr edən ilahi dəyərlər sistemidir. Səmavi dinlərin əsas məqsədi insanın pislikdən uzaqlaşaraq yaxşılığa yönəlməsini təmin etməkdir. İnsanın mənəvi yüksəlişə nail olmasında din müstəsnarol oynasa da, onun siyasi səciyyə daşıması çox təhlükəlidir.Dünya və türk tarixinin, o cümlədən, Azərbaycan tarixinin ən böyük dövlət və fikir dühalarından biri Nadir şah Əfşar haqqında bu günə qədər çox əsərlər yazılıb. Onun 21 illik siyasi fəaliyyətinin ən maraqlı istiqamətlərindən biri, sözsüz ki, dini baxışlarıdır. Lakin böyük sərkərdə və dövlət xadiminin dinə münasibəti və dini siyasəti haqqında hər şeyin deyildiyini söyləmək düzgün deyil. Onun bu siyasətinin doğurduğu nəticələr, onların şahın bütövlükdə aqibətinə etdiyi təsir və digər məsələlər ciddi araşdırmalar tələb edir.

*Tarixçilərin Nadir şahın dini baxışlarına münasibəti.*Nadir şah dinin siyasiləşməsini istəmir və ruhanilərin islam dinindən siyasi məqsədlərlə istifadə etməsi hallarına qarşı kəskin mübarizə aparırdı. O, dinlərə qarşı münasibətdə tolerant idi.Onun dinlərə qarşı münasibətini xarakterizə edən müsbət cəhətlərindən biri də 1740-cı ildə müqəddəs kitabları - Quranı, Tövratı və İncili fars dilinə tərcümə etdirməsi idi[3, s.344].

Tədqiqatçı R.İ.Dadaşova"Səfəvilərin son dövrü (ingilisdilli tarixşünaslıqda)" adlı kitabında Qurani-Kərimin məhz bu zaman fars dilinə tərcümə edildiyini göstərsədə, bu fikir həqiqəti əks etdirmir. Çünki,Qurani-Kərim Nadir şah Əfşardan 8 əsr əvvəl Samani hökmdarı I Mənsurun zamanında fars dilinə tərcümə edilmişdi[11, s.116].

Kembric Unversitetinin professoru LourensLokkart "Nadir şah" monoqrafiyasında onun dini fanatizmdən uzaq durduğunu, birləşmiş müsəlman dünyasının başçısı olmaq istədiyini və həyatının son illərində əsl dini etiqada malik olmadığının az qala şübhə doğurmadığını qeyd edir. L.Lokkart yazır: "Nadirin çatışmazlıqları çox idi, amma dini fanatizm həmin çatışmazlıqlardan biri deyildi. Birləşmiş müsəlman dünyasının başçısı olmaq istəyən Nadirin başlanğıcda şiə, yaxud sünni olması məlum deyildisə, ən azı həyatının son illərində əsl dini etiqada malik olmadığı az qala şübhə doğurmur"[12, s.462-463].

Nadir şah haqqında ən sanballı əsərlərdən birinin müəllifi olan L.Lokkartın bu böyük türk oğlunun dini baxışları ilə bağlı fikirləri tamamilə yanlışdır. Bu yanlışlığı L.Lokkartın öz monoqrafiyasında Nadir şah haqda göstərdiyi faktlarla, həmdə Hindistanın gələcək fatehinin həyatını səciyyələndirən bir çox hadisələrlə sübut etmək olar. Məsələn, L.Lokkart monoqrafiyanın əvvəlində Nadirin şiə, yaxud sünni olmasının məlum olmadığın qeyd edir [12, s.462].Lakin elə həmin monoqrafiyada Nadir şahın islamın şiə əqidəsinə mənsub olduğunu göstərərək yazır: "Şiə adları üçün səciyyəvi olan Rzaqulu, İmamqulu (Nadirin atası və üçüncü oğlu) və Murtuzaqulu kimi adlar təsdiq edir ki, onu ailəsində hamı şiə idi və o, özü də erkən yaşlarından şiə kimi tərbiyə olunurdu" [12, s.39].

Eyni zamanda L.Lokkartınonun əsl dini etiqada malik olmadığının az qala şübhə doğurmadığını qeyd etməsi fikri dəhəqiqəti əks etdirmir.Nadir şah dinin cəmiyyətdəki yerinə dəyişiklər gətirsə də, bu sahədə müəyyən yeniliklər irəli sürsə də, özü bütün varlığı ilə Allahına, Peyğəmbərinə tapınan bir şəxs idi. Bu fikrimizin təsdiqinə ən böyük sübut olaraq «Nəcəf vaqiəsi» kimi tarixə düşən toplantının Nadir şah Əfşarın verdiyi müvafiq şah fərmanında İslam peyğəmbərini "Yaxşıların Əfəndisi" adlandırmasıdır [9, s.72].

Nadir şahın dinə münasibətini və baxışlarını dəyərləndirərkən Səfəvilər imperiyasının tənəzzülünü səciyyələndirən səbəblərə nəzər yetirmək lazımdır. Böyük Şah Abbas Səfəvilər imperiyasını Şərqin ənqüdrətli imperiyasına çevirmişdi (S.B).Doğrudur,mərkəzləşdirilmiş hakimiyyət və ölkənin iqtisadi qüdrəti I Şah Səfinin vəoğlu II Şah Abbas dövründə zəifləsə də, hələ tənəzzül mərhələsinə keçməmişdi. Lakin Şah Süleyman Səfəvinin zamanında dövlətin tənəzzülün əlamətləri aydın görünməyə başlayır və dərinləşir.

L.Lokkartın zəif iradəli adlandırdığı [12, s.7] Şah Sultan Hüseyninhakimiyyəti illərində isə iqtisadi və siyasi böhran daha kəskin xarakter aldı.L.Lokkartyazır: "1694-cü ildə Sultan Hüseynin şahlığa başlaması ilə Səfəvi sülaləsinin məhvi möhürləndi. Onun xarakteri sələflərindən təzadlı şəkildə fərqlənirdi. Belə ki, həlim xasiyyətli, yumşaq ürəkli olan bu şəxs hətta hər hansı heyvanın axan qanını gördükdə, böyük təşvişə düşərmiş. Bu şəxs qətiyyən öz hakimiyyətinin möhkəmlənməsi haqqında düşünmürdü və demək olar ki,

ambisiyalardan halı idi. Qısası, Sultan Hüseyn taxt-tacdan daha çox rahiblik həyatı üçün yararlı idi”[3, s.353-354].

I Pyotr çağının bacarıqlı siyasi xadimlərindən biri ArtemiVolınski isəŞah Sultan Hüseyni öz gündəliyində belə xarakterizə edir: “Hökmdar söhbəti sevəndir, mərhəmətlidir və həm özününkülərə, həm də əcnəbilərə meyllidir. Ancaq utancaqdır.Belə ki, kiminləsə danışarkən üzü qızarır. Həmçinin, hüzurunda dayanan xacələrə tərəf tez-tez nəzər yetirir.Bəzən isə hətta soruşur ki, beləmi danışmaq gərəkdir?! Əlahəzrət şah heç bir məsələyə qulaq asmağı sevmir və onun həzrətlərinə heç nə barədə hesabat vermirlər. Şahın yanında xacə İsmayıl ağa – çebadarbaşı böyük hörmətə malikdir. Yüzbaşılar İbrahim ağa və Məhəmməd ağa nüfuzlu xacələrdəndir. Şah ruhanilərə böyük mərhəmət və hörmət bəsləyir. Həm də mülki şəxslərdən daha çox onlarla ünsiyyətdə olur. Beləcə, dünyəvi işlərə də çox az qarışmağa üstünlük verir” [3, s.85].

*Son Səfəvi şahlarının uğursuzluqları*. Şah Sultan Hüseyn hərəmxana mühitində yetişdiyinə görə (S.B.), onun dövründə hərəmxana üstün siyasi qüvvə idi və xüsusi mövqeyə malik institut rolunu oynayırdı. Hətta, saraydakı “fövqəladə şuraya” şahın anası, baş xacələr və şahın ən sevimli hərəmləri daxil idi. Amma bütün bu sadalananlara baxmayaraq, çox təəssüflə qeyd etmək istəyirəm ki, ingilis və rusdilli tarixçilərin əsərlərində Şah Sultan Hüseynlə bağlı məsələlərdə səhv mülahizələr üstünlük təşkil edir.Ayrı-ayrı müəlliflərin Səfəvi şahı Sultan Hüseynin şəxsiyyətinə münasibəti müxtəlif və təzadlıdır. Bir çox müəlliflər Şah Sultan Hüseyn dövrünün siyasi, iqtisadi mürəkkəbliyini nəzərdən qaçırmış və bir sıra taleyüklü məsələləri diqqət mərkəzindən kənarda qoymuşlar.Hesab edirəm ki, qərb müəllifləri sayca Səfəvilərin IX hökmdarı olan [1, s.207] Şah Sultan Hüseynin siyasi uğursuzluqlarınıçox qabartmış və bəzən hətta şişirdilmiş təəssürat yaratmağa çalışmışlar. Onlar qalmaqallı məlumatlardan, şayiələrdən istifadə etməklə, oxucuya öz fikirlərini daha canlı, oxunaqlı şəkildə çatdırmağa çalışmışlar.Qərb müəlliflərinin bu meyli və Şah Sultan Hüseyn haqqında da ifrat fikirlərinin əsas səbəbionun hərəmindəki həyatı ilə bağlıdır. Lakin bu fakt da təəccüblü görünməməlidir.Çünki, o dövrün xüsusiyyətləri bunu tələb edirdi.

Sultan Süleyman dövrünün dünyada ən tanınmış mütəxəssisi, tarixçi və eyni zamanda şərqşünas, Amerika Birləşmiş Ştatlarının Prinston Universitetinin professoru Lesli Pirs özünün “İmperator Hərəmi” kitabında XVIII əsrin ortalarında Osmanlı sultanının hərəmxanasında 444 cariyənin[olduğunu qeyd edir [13,s.134].

Qeyd edək ki, Sultan Hüseynin uğursuz şahlığının əsas səbəbi onun hərəmxana mühitində formalaşaraq gələcək monarxa lazım ola biləcək təhsil və təlimdən uzaq düşməsi idi. Şahzadələrin hərəmxana mühitində yetişməsi siyasəti I Şah Abbasdan sonra Səfəvi taxtında əyləşən bütün şahların uğursuzluqlarının ən başlıca səbəbi idi. Səriştəsiz idarəçiliyin və qətiyyətsizliyin

nəticəsi olaraq mərkəzi hakimiyyət zəiflədi və dövlətin himayə etdiyi müxtəlif etnik mənşəli xalqlar yaranmış bu fürsətdən yararlanmağa çalışdılar. Ölkə daxilində baş verən qiyamların ən təhlükəlisi əfqan Gilzayi tayfalarının mərkəzi hakimiyyətə qarşı başladığı idi. Bu qiyamın vaxtında yatırılmaması Səfəvi şahlarının taxtdan salınması ilə nəticələndi.

Səfəvilər dövlətinin tənəzzülə uğramasının bilavasitə səbəbkarı olan Gilzay və ya Gilzayi adı ilə tanınan əfqan qəbiləsinin etnik tərkibi müxtəlifdir. Onların türk və ya əfqan mənşəli olduqları uzun müddət mübahisə mövzusu olmuşdur. L.Lokkart və Gilzayların bir qisminin özlərini bugünkü İranın Mərkəzi və Qum vilayətində yaşayan Xələc türklərinə, digər bir qisminin isə öz mənsubiyyətlərini Nuh peyğəmbərə bağladıqlarını qeyd edir [10, s.71]. Məşhur Türkiyə siyasətçisi və tarixçisi İsmail Haqqı Uzunçarşılı Gilzayların iki qolundan birinin Turan adını daşımasını əsas gətirərək, onlarınXələc türkləri olduğunu və Qəznəvilər zamanında Əfqanıstana yerləşərək dövlətin xidmətinə girdikləri fikrini müdafiə edir[10, s.72].

Professor, türkoloq Faruk Sümər də Gilyazların Xələc türkləri olduğunu təsdiqləyərək incələdiyimiz dövrdə 10 min ailədən ibarət olduqlarını təxmin edir [10, s.72].

Gilzaylar I Şah Abbas dövründə qüvvətlənmiş və digər türk qəbiləsi Əbdaliləri Qəndəhardan Herata doğru sıxışdıraraq bu əraziyə yerləşmişdilər. Lakin I Şah Abbasın Əbdalilərdən Sadu adlı birisini "Əmir-i Əfqanə" ləqəbini verərək, Herat mühasirəsində Səfəvilərə yardım qarşılığında ona Sultan ünvanı verməsi Əbdaliləri Gilzayların təcavüzündən xilas etsə də, iki qəbilə arasında ixtilaf hələ səngiməmişdi. Sadudan sonra ki, Əbdali rəhbərləri də Səfəvi şahları tərəfindən eyni məqama təyin edilsələr də, Şah Süleymanın hakimiyyət illərində vəziyyətGilzayların xeyrinə dəyişir. Belə ki, Əbdalilərin rəhbəri Həyat Sultanın Səfəvilərin maliyyə məmuru ilə münaqişədə sonuncunun qətlə yetirilməsi Əbdalilərin sürgün edilmələri ilə nəticələnir [10, s.73].

Sünni təriqətinə mənsub olmalarına baxmayaraq [5,s.56], gilzaylar üstünlüyü Səfəvilərə verirdilər. Lakin Səfəvi şahlarının Şiə siyasəti gilzayları incidirdi. Onlar dövlət idarəçiliyindəkizəiflikdən istifadə edərək, Səfəviləri məğlub etmiş və 22 oktyabr 1722-ci ildə paytaxt İsfahanı işğal etmişlər[14, s.200].

*Nadirin fəaliyyətinin ilk dövrü.* Məhz bu hadisədən sonra bədbinliyə qapanan Səfəvi şahı II Təhmasib Nadirqulu xandan yardım istəmişdi. Nadir xan Əfşar da Səfəvi şahının xidmətinə girməyi qəbul etmiş və "Təhmasib-qulu" ünvanına layiq görülmüşdü. Bu hadisə Nadiri əyalət başçısı simasından çıxarıb ölkə əhəmiyyətli şəxsə çevirmişdi. Şah II Təhmasib çox yaxşı dərk edirdi ki, hərbi cəhətdən üstünlük əldə etməzsə, siyasi səhnəni tərk etmək məcburiyyətində qalacaqdır. Buna görə də ona cəsur, döyüşlərdə möhkəm təcrübə toplamış Nadirqulu xanın dəstəyi lazım idi. II Təhmasib də Nadirqulu

xana lazım idi.Çünki, qüdrətli Səfəvi imperiyasını bərpa etmək amili Nadir Əfşarın ətrafında ordu toplamaq üçün yeganə əlverişli vasitə idi.Tezliklə Nadir II Təhmasibin ən yüksək vəzifəli və etibarlı adamlarından birinə çevrilərək gilzayları ölkədən qovmuş, eyni zamanda Osmanlı qüvvələrini də məğlub edərək Həmədanı, Təbrizi, Kirmanşahı geri qaytarmış və II Şah Təhmasibi öz qanuni taxtına bərpa etmişdi [8, s.66]. Lakin hadisələrin sonrakı gedişi müttəfiqləri bir-birinə düşmən etmişdi. Belə ki, Nadir Əfşarın nüfuzunun artmasından ehtiyat edən II Şah Təhmasib öz mövqeyini möhkəmləndirmək üçün Nadirin Xorasanda əfqanların hücumunu dəf etməsindən istifadə edərək osmanlılara qarşı müharibəni davam etdirmiş və məğlub olaraq, Arazdan şimaldakı Azərbaycan torpaqlarının osmanlılara verilməsi barədə 1732-ci il yanvarın 16-da Kirmanşah sülhünü[9, s.58] imzalamışdı.

Bu hadisə onsuzda onunbaşında çox zəif qalan tac bahasına başa gəlir.Nadir Kirmanşah müqaviləsindən bəhanə kimi istifadə etdi və tamamilə zəifləmiş II Təhmasibi vəzifəsindən kənarlaşdıraraq, onun kiçik yaşlı oğlu Abbası Səfəvi taxtına çıxardı. Mənbələrdə tacqoyma mərasimi zamanı ağlayan III Abbasın şah elan olunduğu zaman neçə aylıq olması barədə müxtəlif versiyalar mövcuddur. Həmin vaxt onun 2 aylıq, 4 aylıq və hətta 8 aylıq olması barədə fikirlər söylənilir[3, s.215].

Gözlənildiyi kimi, Abbas Mirzənin şah elan edilməsi əslində formal xarakter daşıyırdı və heç şübhəsiz ki, real hakimiyyətnayibüssəltənə (səltənət nayibi) elan olunan Nadirin əlində idi.Amma onun məqsədi yalnız saraya və böyük səlahiyyətlərə yiyələnmək deyildi.Nadir Əfşar yadelliləri ölkədən qovduqdan və Azərbaycanı tamamilə nəzarət altına aldıqdan sonra, hakimiyyəti rəsmən özünə tabe etdirməyi qərara aldı. Bədəncə zəif olan III Şah Abbasın kiçik yaşlarında dünyasını dəyişməsi Nadirə özünün şahlıq iddiasını reallaşdırmağaimkan verdi.Bu məqsədlə Muğanda (Suqovuşan) qurultay çağırıldı. Qurultayda taxta kimin sahib olması məsələsi müzakirəyə çıxarılsa da, əsas məqsəd tam başqa idi. Hesab edirəm ki, bu məsələnin gündəliyə çıxarılmasının əsas səbəbi ölkədə ikihakimiyyətliliyə son qoymaq idi. Belə ki, real hakimiyyət Nadirin əlində olsa da, qanuni hakimiyyəti III Şah Abbas və onun ətrafında olan qüvvələr təmsil edirdi.Beləliklə də, Nadir 1736-cı ilin martında Muğan düzündə özünü şahənşah elanetdi [6, s.240].

*Dini islahatların başlaması.*Nadir Əfşar məhz şah seçiləndən sonra onun dini baxışları özünü qabarıq şəkildə göstərməyə başladı. Belə ki, Muğanda Nadirqulu xan qurultaya toplananlara taxta çıxması üçün irəli sürdüyü əsas şərtlərdən üçüncüsü Şiə təbəqəsinin Şiəlikdən imtina edərək Cəfəriliyi (Cəfərilik VI İmam Cəfər Sadiqə aid edilərək İslam peyğəmbərindən sonra müsəlman cəmiyyətinə rəhbərliyin on iki imama aid olduğuna inanan Əhli-Beyt məktəbinə verilən ad) V sünnü məzhəbi olaraq qəbul etmələrini istədi. Lakin qurultay iştirakçısı olan mollabaşı (Şiə məzhəbinin rəhbəri) Mirzə Əbdül

Həsənin Nadirə cavabı kəskin oldu. O, dedi:”Bizim məzhəb işlərində rəhbərimiz Allahın hökmləri və Peyğəmbərin hədisləridir. Hökmdarların onları dəyişdirməyə haqqı yoxdur. Mən şahın mövcud dini dəyişdirməyə gücününçatmayacağına qüvvətlə ümid bəsləyirəm. Çünki, bu xüsusda atılacaq istənilən addımtəhlükəli sonluğa yol aça bilər”[7, s.102].

Nadir şahın iradəsinə qarşı çıxan mollabaşının qaldığı çadırında boğdurularaq qətlə yetirilməsi Şiə din adamlarını Cəfəriliyi qəbul etməyə məcbur etdi. Suqovuşanda cərəyan edən hadisələr din adamlarıyla Nadir arasında olan münasibəti açıq şəkildə göstərdi. Nadir şahlığının elə ilk günlərində Şiə icmasından hesabat istədi və onları Qəzvində toplayaraq vəqf (dini məqsədlə və ya xeyriyyə məqsədi ilə dövlətin, yaxud ayrı-ayrı şəxslərin könüllü olaraq bağışladığı daşınar və daşınmaz əmlak) gəlirlərini hara xərclədikləri ilə maraqlandı. Onlarda bu gəlirlərin bir qisminin dindarların, digər qisminin isə məscid və mədrəsələrin ehtiyaclarına sərf edildiyini bildirdilər. Bu cavab Nadir şahı qane etmədi və o, dindarlara “Demək ki, Allah bu fəaliyyətinizdən razı deyil ki, ölkə son 50 ildir fəlakətlərlətoqquşmaqdadır. Əsgərlər gəldi və canları bahasına bu pis gedişatdanqurtardı. Bundan sonra vəqf gəlirləri onlara aiddir”[8, s.61] söylədi.

Nadir şah toplantıdan dərhal sonra vəqf torpaqlarının böyük bir qisminin müsadirə olunması, onlardan əldə edilən gəlirin isə dövlətin ehtiyacı və əsgər maaşları üçün xəzinəyə köçürülməsi barədə fərman verdi.Din adamları Nadir şahın bu qərarından narazı olsalarda,mollabaşı Mirzə Əbdül Həsənin aqibəti onları susmağa vadar etdi. Əslində, vəqf gəlirlərinin ordunun xeyrinə müsadirə edilməsi Şiə icmasının mövqeyini zəiflətməyə yönəlmişdi. Çünki ölkədə Şiə din adamları zadəgan təbəqəsinin IIIqolunu təşkil edirdilər və Nadir şaha qarşı müxalif mövqedən çıxış edirdilər. Nadir şah ölkə ərazisindəki bütün dini qurumlara fərmanlar göndərərək İslam peyğəmbərindən sonra xəlifə olan ƏbuBəkr əs-Siddiqin,Ömər ibn Xəttabın, Osman ibn Əffanınsöyülməsini qadağan edərək, onların adlarının rəhmətlə anılmasını və Şiə əzanında Əli ibn ƏbuTalibi yad etmək üçün oxunan “Əliyyənəmirul-mumininə və vəliyyullah” kəlməsinin oxunmamasını əmr etdi[5, s.186]. Bu əmrə uymayanlar isə şahın adamları tərəfindən çox sərt şəkildəcəzalandırılmalı idilər.

*Dini islahatların əsas məqsədi.*Nadir şah Əfşarın dini islahatlarının əsas məqsədlərindən biri dini qurumların siyasi və iqtisadi gücünü zəiflətməyə yönəlmişdi. Çünki Nadir şahın din siyasəti Şiə konfessiya rəhbərlərinin şiddətli müxalifəti ilə qarşılaşmış və onlar dəfələrlə xalqı üsyana təhrik etməyə cəhd göstərsələr də,buna nail ola bilməmişdilər. Bunun əsas səbəbi xalq kütlələrinin Nadir şahın islahatlarından məmnun qalmaları idi. Çünki, vəqf torpaqlarından faydalanan ruhanilərin bütün ehtiyacını əhali ödəyir və var yoxdan çıxırdı.

Şah I Abbasdan sonra taxta əyləşmiş Səfəvi şahzadələri hərəmxanada olarkən, böyük şiə teoloqlarının güclü təsiri altına düşmüş (Məsələn: Şah Sultan

Hüseyn şiə teoloqu Şeyxülislam Məhəmməd Bağır əl-Məclisinin təsiri altına düşərək şərab içilməsini, əlbəyaxa vuruşu, göyərçin uçurmağı qadağan etmiş və sufilərin şəhərdən qovulmasına dair fərman vermişdi [2, s.170]. Bütün bunlar din adamlarının dəstəyə ehtiyacı olduqda hər cür imkanı onların siyasi və iqtisadi nüfuzlarını gücləndirmək üçün təmin etmişlər.Təəccüblü deyil ki, hakimiyyətdə olmuş nisbətən zəif Səfəvi hökmdarları (Şah I Səfi, Şah I Süleyman, Şah Sultan Hüseyn) dövründə mollabaşılar hakimiyyət pilləsində bu vaxta qədər heç zaman qalxa bilmədikləri ən yüksək mərtəbəyə yetişmişdilər. Şiəliyin mövcudluğu öz-özlüyündə səfəviliyin dirçəldilməsi üçün baza ola bilərdi. Bu səbəbdən də Nadir şah Səfəvi şahlarından fərqli davranaraq, Şiə din xadimlərini maddi üstünlüklərdən məhrum etdi və onların xalq arasında olan təsir qüvvələrini zəiflətdi. Hesab edirəm ki, bununla Nadir şah anti-şiə siyasəti yeritmir, lakin onların nüfüzunun artdığı təqdirdə, səfəvilərin hakimiyyətini bərpa edəcəklərindən ehtiyatlanırdı.

Nadir şahın ölkədə Şiə məzhəbini Cəfəri məzhəbiilə dəyişdirməyə cəhd göstərməsi müxtəlif səbəblərlə izah oluna bilər. Zənnimizcə,şiəliyi cəfəriliklə əvəz etməkdə əsas məqsəd Səfəvilərin nüfuzunu tamamilə aradan qaldırmaq idi. Bu da təəccüblü görünməməlidir. Çünki, Nadir şah Səfəvi xanədanı soyundan gəlmirdi və ondanideologiyası şiəlik üzərində qurulmuşolan bu sülalənin dəstəklənməsini gözləmək olmazdı. Əksinə Səfəvilər hakimiyyətindən fərqli olaraq Nadir şah dövlətini dini ideologiya üzərində qurmaq istəmirdi və cəmiyyətin idarə edilməsində dini qaydaları əsas hesab etmirdi.Nadir şah hakimiyyəti illərində din dövlətin rəsmi ideologiyası olmaq çərçivəsindən çıxarıldı. Ruhanilərin vəzifələri əhəmiyyətli dərəcədə ixtisar edilərək dövlət idarəçiliyində əvvəlki səlahiyyətlərini itirdilər. Onun yeritdiyi dini siyasətin nəticəsi olaraq ruhanilər dövlət aparatından məscidlərə çəkilməyə məcbur oldular.

*Osmanlı sultanı ilə danışıqlar.* Nadir şah din xadimlərini itaətə gətirəndən dərhal sonra Osmanlı sultanına məktub göndərək onun xəlifəliyini tanıdığını bildirdi və ondan Cəfəri təriqətini islamın qanuni məktəblərindən biri kimi qəbul etməsini xahiş etdi[3, s.683].Osmanlı sarayına nümayəndə heyəti göndərən Nadir şah Sultanın müzakirəsinə təqdim etdiyi sülh şərtləri arasında dini yönlü tələblər əsas yer tuturdu. Nəticədə həm Avstriya, həmdə Rusiya ilə müharibə vəziyyətində olan Osmanlı imperiyası Nadir şah Əfşarın dini tələblərini müzakirə edəcəyinə söz verdi. Nadir şahınbarışıq müqaviləsinin şərtləri aşağıdakı müddəalardan ibarətdir: 1) Osmanlılar yeni cəfəri məzhəbini tanıyacaq; 2) bu məzhəbə Məkkədə bir ibadət yeri (rükn) veriləcək; 3) Əfşarlar hər il Şam (Suriya) üzərindən bir əmirhac göndərəcək; 4) əsirlər dəyişdiriləcək; 5) qarşılıqlı elçilər göndəriləcək [4, s.13].

Nadir Şah ƏfşarOsmanlı sarayı qarşısında konkret təkliflər qaldırmışdı və iki ölkənin nümayəndə heyəti bu təklifləri müzakirə etmək üçün səkkiz görüş keçirmişdilər. Əsirlərin dəyişdirilməsi, səfirlərin göndərilməsi və

həccə ziyarətdə Əfşarlardan bir əmirhacın olması qəbul edildi.Ancaq qalan məsələlər (ilk iki şərt) şəri və mülki müzakirəyə saxlanıldı.Lakin Nadir şahın əsas tələblərinin(iki ölkə arasındakı məzhəb ixtilafı) üstündəİstanbulda keçirilən müzakirələrdə Əfşar dövlətini təmsil edən mollabaşı Əbul Qasım Kaşani ilə əvvəllər İstanbulun da Qazisi olan Anadolu baş qazisi arasında çox ciddi fikir ayrılığı yarandı [7, s.122]. Bunun nəticəsi kimi, Osmanlı sultanının göndərdiyi məktubda Nadir şahın qaldırdığı əsas məsələ haqqında hər hansı bir qeyd yox idi. Osmanlı hökuməti yalnız Əfşar dövlətindən Kəbə ziyarətinə gələnlərin az məsrəflə öz ziyarətlərini yerinə yetirməsinə şərait yaradacığını bildirdi. Nadir şah Cəfəri məzhəbinin qəbul edilməsinə nə qədər çalışsada, İslam xəlifəliyini əlində saxlayan Osmanlı sarayı Cəfəri məzhəbinin rəsmiliyini qəbul etmədi. Osmanlı sultanının Nadir şaha göndərdiyi bütün cavab məktublarında bildirilirdi ki, cəfəriliyin dörd sünni məzhəbə əlavə beşinci məzhəb sayılması və Kəbədə bu məzhəbə məxsus bir yerin (rüknün) verilməsi həm şəriət, həm siyasət baxımından rədd edilir.Bunun nəticəsi kimi, 1746-cı ildə Osmanlı dövləti ilə imzalanan sülh müqaviləsində də Cəfəri məzhəbinin rəsmiləş-dirilməsi öz əksini tapmadı [9, s.80].

Bu müqavilə ilə üç əsas məsələ ön plana çıxmışdı: 1) Osmanlı dövlətinin Əfşar hacılarının Məkkəyə, Bağdad və Suriyanın ərazisindən keçməklə getməsinə icazə verilməklə bərabər bütün yol boyu onların mühafizəsini təmin edilməsi; 2) iki tərəf arasında diplomatik münasibətlərin inkişaf etdirilməsi; 3) müharibə əsirlərinin dəyişdirilməsi [7, s.124].

Müqavilənin əlavə maddələri arasında IV Murad dövründəki sərhədlərin saxlanılması, sərhədçilərin dostluğa zidd hərəkətlərdən çəkinmələri, Hicaz da daxil olmaqla Osmanlının başqa şəhərlərinə gedib gələn Əfşarlardan qanunazidd əlavə vergilərin alınmaması, hacıların haqları, onların vergidən azad edilməsi kimi məsələlər yer almışdı [7, s.125].

*Yeni dini islahatların əsas yekunları.*Göründüyü kimi, Nadir şahın əsas dini tələbi olan İslam dünyasında Cəfəri məzhəbinin rəsmiləşdirilməsi məsələsi heç əlavə maddələrdə də öz əksini tapmamışdır.Halbuki, Nadir şah Osmanlı dövləti ilə dostluq münasibətlərinin qurulması naminə öz dini ideyasından əl çəkirdi və iki dövlət arasındakı ərazi ixtilaflarına və iddialarınason qoyulmasına çalışırdı.Nadir şahın həyatını və fəaliyyətini araşdıran çox az tarixçi tapmaq olar ki, onun nəyə görə Şiəlikdən imtina etmək cəhdinə cavab axtarmasın.

Nadir şah dövrünü araşdıran tədqiqatçıların bu məsələyə münasibəti birmənalıolmamışdır.Məsələn L.Lokkart belə hesab edir ki, Nadir Şahın şiə təriqətini sünni təriqəti ilə əvəz etmək istəməsində əsas məqsəd Osmanlı İmperiyası ilə münasibətləri müvəqqəti nizama salmaqla, bütün müsəlman dünyasını birləşdirmək və özünün vahid dövlətin başında durmaq arzusu idi[12, s.172].

Dövrümüzün tanınmış ingilis şərqşünası MayklAksvörti isə hesab edir ki, Nadir şah dini məsələlərdən bəhanə kimi istifadə edərək ölkəsini Osmanlı və Rusiya ilə müharibə təhlükəsindən uzaq tutmuşdur. M. Aksvörti özünün "Nadir Şah" kitabında bu haqda yazır: "Nadir Osmanlılarla rusların arzuladığı kimi, müharibə etmək əvəzinə, məzhəb məsələsini ortaya ataraq uzunmüddətli sülh prosesinə təkan vermiş oldu. Nadirin də məqsədi məhz bu idi. Dini məsələləri danışıqlar mövzusuna çevirməklə, Nadir həqiqətən də uzaqgörənaddım atmışdı" [6, s.246].

Məhşur Rus şərqşünası, Brüssel və Kembric universitetlərinin fəxri doktoru VladimirMinorskinin fikrincə isə "Nadir şah islamı parçalanmaqdan qurtarmaq məqsədilə şiələrin beşinci ortodoks rüknü olaraq, V imam Cəfəri-Sadiqin himayəsi altında tanınmasına çalışırdı" [2,s.343].V.Mironski burada səhv edirdi. Çünki, əslində Cəfər Sadiq VI imamdır.K.Bosvortun mülahizələrinə görə isə Nadir şah ölkə daxilində Səfəvilərin nüfuzunu tamamilə aradan qaldırmaq üçün şiəliyi dəyişməyə çalışırdı [9, s.77]. Bu mülahizəyə görə, Səfəvi hakimiyyəti şiəlik üzərində qurulmuşdu və ölkə əhalisinin əksəriyyəti də bu məzhəbə riayət edirdi. Şiəliyin mövcudluğu öz-özlüyündə səfəviliyin dirçəldilməsi üçün baza ola bilərdi. İrəli sürülən mülahizələrə görə, Nadir şah şiəliyi dəyişməklə və əhalini başqa məzhəbə tapındırmaqlasəfəviliyə ciddi zərbə endirmək istəyirdi.

Hesab edirik ki, şiəliyi sünniliklə əvəz etmək məramı Nadir şah üçün siyasi əhəmiyyət kəsb edirdi. Çünki,Nadir Şah Sultan Hüseynin hakimiyyət illərində sünnilərin təqib edilməsinin Dağıstanda, Əfqanıstanda və İranın qərbində üsyanlara səbəb olduğunu görmüşdü və onları özünə müttəfiq etmək istəyirdi. Nadir şah Əfşarın qısa müddətdə davam edən Sünniliklə Şiəliyi birşəşdirmək axtarışları orduda olan Sünni Əfqanlarla Şiələr arasındakı fikir ayrılıqlarını aradan qaldırmaq və qüdrətli qonşusu olan Osmanlı imperiyası ilə münasibətləri normallaşdırmaq idi. Nadir şah Əfşar həmdə ölkəsində olan məzhəb düşmənçiliyinə son qoymaq istəyirdi və bunu Nəcəf toplantısına rəhbər təyin etdiyi Abdullah əs-Şüveydilə danışığında belə ifadə etmişdir: "Bilirsiniz ki, mənim məmləkətim iki hissədən ibarətdir, biri Türkistan, digəri isə Əfqanıstan. Bunlar bir-birilərinə kafir deyirlər. Əmrimdəki insanların bir - birinə kafir deməsi düz deyil"[8, s.66,67].

*Nəticə.* Son olaraq qeyd edək ki, Nadir şahın Cəfəriliyi V Sünni məzhəbi olaraq qəbul etdirməyə cəhd göstərməsi və bununlada barışıq yaratması müsbət dəyərləndirilməlidir. Lakin bu birləşdirmənin xalq tərəfindən və ya onları yönləndirən ruhanilər tərəfindən olmaması üzündən, bu barışıq baş tutmamışdır.

## Ədəbiyat

1.Bayramlı Ceyhun.,Zifəroğlu Vüqar. Azərbaycan hökmdarları: Səfəvilər. "Oğuz Müstəqil Araşdırmaçılar Qrupu", Bakı: 2015, 210 s.
2.Dadaşova. R.İ. Səfəvilərin son dövrü (ingilisdilli tarixşünaslıqda). "Nurlan Nəşriyyatı", Bakı: 2003, 393 s.
3.Süleymanov Mehman. Nadir şah. "İrani Nəşriyyatı", Tehran: 2010, 741 s.
4.Tahirzadə Ədalət. Nadir Şah Əfşar. "Çıraq nəşriyyatı", Bakı: 2005, 40 s.
5.Abdurrahman Ateş. Osmanlı-İran siyasi ilişkileri. "Altınpostyayıncılık", Ankara: 2012, 309 s.
6.Aksvörti Maykl. Nadir Şah. "Şərq-Qərb" ASC, Bakı: 2018, 400 s.
7.Arunova Marianna. ZarmayrovnaKlara. Nadir Şahı Avşar. "Selengeyayınları", İstanbul: 2015, 275 s.
8.Hakyemez Cemil. Osmanlı-İran İlişkilerive Sünni-Siiİttifakı. "Kitapyayınevi", İstanbul: 2014, 207 s.
9.Hüseynov Cahangir. Azərbaycan Nadir Şah Əfşar dövləti. "Şərq-Qərb" ASC, Bakı: 2014, 256 s.
10.Karadeniz Yılmaz. İran Tarihi (1700-1925). "SelengeYayınları", İstanbul: 2012, 576 s.
11.Kitapçı Zekeriya. Türk Boyları Arasında İslam Hidayet Fırtınası. "Yedi KubbeYayınları", İstanbul: 2013, 351 s.
12.Lokkart Lourens. Nadir Şah. "Qanun Nəşriyyatı", Bakı:. 2013, 550 s.
13.Leslie P. Peirce. The Imperial Harem."OxfordUniversity Press",NewYork: 1993, 374 page.
14.Иванов М.С. ИсторияИрана. "Издательство МГУ",Москва: 1977, 487 с.

# XIX ƏSRİN BİRİNCİ YARISI: TARİXŞÜNASLIĞIN MƏXƏZLƏRİ

***Əhmədova Naibə Əhmədağa qızı***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***naiba.ahmedova@mail.ru***

**Açar sözlər:** *tarixşünaslıq, tarixi qaynaqlar, arxiv sənədləri, statistik məlumatlar*

*Məqalədə XIX əsrin birinci yarısının tarixşünaslığına dair Rusiyanın, Gürcüstanın, Azərbaycanın müxtəlif arxiv fondlarında saxlanılan sənəd və materiallar, rus hərbçilərinin topladığı statistik məlumatlar təhlil edilmişdir ki, bu mənbələr vasitəsilə dövrün araşdırılması mühüm əhəmiyyət kəsb edir. Rusiya arxivlərinin fondlarında saxlanılan materiallar Rusiyanın Azərbaycana dair planlarının araşdırılmasında əhəmiyyətlidir.*

## ПЕРВАЯ ПОЛОВИНА XIX ВЕКА: ИСТОЧНИКИ ИСТОРИОГРАФИИ

**Ахмедова Наиба Ахмедага кызы**

**Ключевые слова**: *историография, исторические источники, архивные документы, статистика.*

*В статье представлены документы и материалы по историографии первой половины XIX века, хранящиеся в различных архивах России, Грузии, Азербайджана, статистические данные, собранные российскими военными, что важно для изучения периода с помощью этих источников. Материалы, хранящиеся в фондах российских архивов, важны для изучения планов России в отношении Азербайджана.*

## THE FIRST HALF OF THE XIX CENTURY: SOURCES OF HISTORIOGRAPHY

**Ahmedova Naiba Ahmedaga**

**Keywords:** *historiography, historical sources, archival documents, statistics.*

*The article presents documents and materials on the historiography of the first half of the XIX century, stored in various archives of Russia, Georgia, Azerbaijan, statistical data, collected by the Russian military, which is an important source of information. Materials stored in the funds of the Russian archives are important for the study of Russia's plans in relation to Azerbaijan.*

***

XIX əsrin birinci yarısına aid Azərbaycanla bağlı Rusiyanın müxtəlif arxivlərində saxlanılan sənədlər çox qiymətlidir. Rusiya arxivlərində ölkəmizlə əlaqədar olan sənədlərin böyük bir hissəsi müxtəlif illərdə Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun əməkdaşları tərəfindən toplanılmışdır və hazırda institutun elmi arxivində saxlanılır.

Rusiya Dövlət Hərbi Tarix Arxivi (RQVİA), Rusiya Dövlət Qədim Aktlar Arxivi (RQADA) və Rusiya İmperiyasının Xarici Siyasət Arxivinin (AVPRİ) fondlarında saxlanılan sənədlər Rusiyanın Azərbaycana dair planlarının aydınlaşdırılması üçün əhəmiyyətlidir.

1869-cu ildə (I hissə) və 1888-ci ildə (II hissə) çap olunmuş "Dövlət Şurasının arxivi" adlı iki cildlik sənədlər toplusunda daha çox rəsmi dövlət sənədləri, Qafqazdakı rus ordusuna verilən təlimatlar, Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğalı ilə bağlı qərarlar, Azərbaycanda və Qacar dövlətindəki rus konsullarının hesabatları və s. cəmlənmişdir.

"XVIII-XIX əsrin əvvəllərində Rusiya-Dağıstan münasibətləri" sənədlər məcmuəsi (1988) toplusunda "Osmanlı dövləti ilə Azərbaycan türk xanlıqları arasındakı münasibətlərə dair arxiv bəlgələri" (1992) iki cildlik məcmuədəki sənədlər də dövrə aydınlıq gətirməyə imkan verir.

XVIII əsrin sonu-XIX əsrin birinci yarısına aid Cənubi Qazfqaz üzrə qiymətli materiallar Tiflisdə yerləşən Gürcüstan Respublikası Dövlət Tarix arxivində toplanmışdır. Xüsusən, Zaqafqaziya diyarının baş hakiminin dəftərxanası fondunda çarizmin aqrar siyasətinin başlıca xüsusiyyəti, kənd təsərrüfatının vəziyyəti, köçürmə tədbirləri və s. haqqında cox dəyərli məlumatlar vardır.

Quzey Azərbaycanın çar Rusiyası tərəfindən işğalı ərəfəsi, işğal dövrü və sonrakı illərdə sosial-siyasi və iqtisadi həyatın ən mühüm məsələlərinə dair sənədlər Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin (ARDTA), Ali Gürcüstan hökümətinin Xəzinə Ekspedisiyası, müsəlman əyalətlərinin və Lənkəran (Talış) xanlığının hakiminin dəftərxanası fondlarında saxlanılır.

Tarixi qaynaqlar içərisində dövlət idarələrinin və digər qurumların kargüzarlıq sənədləri mühüm yer tutur ki, bu səpkili sənəd və materialları iki qrupa bölmək olar: birinci qrup sənədlər arxivlərdən əldə olunaraq elmi dövriyyəyə cəlb edilmişdir.Bunların sırasında Azərbaycan Respublikası Dövlət

Tarix Arxivi (ARDTA), Naxçıvan Mərkəzi Dövlət Arxivi (Naxçıvan MDA), Rusiya Federasiyası Mərkəzi Dövlət Tarix Arxivi (RFMDTA) və Gürcüstan Respublikası Mərkəzi Dövlət Tarix Arxivindən (GRMDTA) toplanan sənəd və materiallar xüsusi yer tutur.

Kargüzarlıqda olan sənəd və materialların digər qrupu isə Rusiya imperiyası zamanında, yaxud sovet və ya postsovet dövründə çap olunmuşdur. Rusiya imperiyası dövründə nəşr olunan sənəd və materiallar külliyatından bəhs edərkən Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarını fərqləndirmək lazımdır.

Sovet dövründə nəşr edilmiş iki hissədən ibarət "XIX əsrin 20-60-cı illərində rus çarizminin Azərbaycanda müstəmləkəçilik siyasəti" [2] adlı sənəd və materiallar toplusu da bu sırada mühüm yer tutur.

Statistik mənbələr Car-Balakən camaatlığının işğalı ərəfəsində və işğaldan sonra bölgədə olan rus hərbçilərinin topladığı statistik məlumatlardır. Həmin statistik məlumatlar 1826-1829, 1830 və 1839-cu illərə aiddir. Bu qaynaqlarda əsasən kəndlərin, tüstülərin (evlərin) sayı və əhalinin məşğuliyyəti haqqında məlumatlar verilmiş, əhalinin ailə tərkibi, yaşı, cinsi, nigah, miqrasiya kimi məsələlərə toxunulmamışdır [3] .

Car-Balakən camaatlığı haqqında ilk statistik məlumat 1826-cı ildə alman mənşəli çar zabiti polkovnik M.A.Kotsebu tərəfindən toplanılmışdır. O, "1826-cı il Çar mülkləri haqqında məlumat" [7] adlı əsər yazmışdır. Bu statistik məlumatda camaatlığın ərazisi, kəndləri, tüstülərin sayı, əhalinin məşğuliyyəti kimi məsələlər öz əksini tapsa da, camaatlığın ərazisi, sərhədləri, kəndlilərin sayı dəqiqləşdirilməmişdir.

1829-cu ilin sonlarında T.N.Yaşnikov [8] tərəfindən camaatlıq haqqında statistik məlumat M.A.Kotsebunun müəllifi olduğu statistik məlumatın daha mükəmməl variantıdır. Digər statistik məlumat isə camaatlığın işğalından sonra, yəni 1830-cu ildə toplanılmışdır.

1839-cu il statistik məlumatı Car-Balakən camaatlığı ləğv edildikdən sonra yaradılmış eyni adlı vilayətdə keçriləcək yeni inzibati-ərazi islahatından əvvəlki vəziyyəti öyrənmək məqsədi ilə toplanılmışdı. Bu məlumatda yalnız mahallar üzrə kəndlərin və tüstülərin sayı verilmişdir.

Car-Balakən camaatlığında mövcud olan sosial-iqtisadi münasibətlərə dair sənədlərdən ən mühümü Car-Balakən camaatlığının, İlisu sultanlığının işğalından sonra çar hökümətinin buradakı sosial-iqtisadi münasibətləri öyrənmək məqsədilə yaratdığı Zaqatala Silki Torpaq Komissiyasının (1869-1874) materiallarıdır.

Rusiya tarixşünaslığında yazılan bir sıra elmi əsərlərin mənbə bazasını Qaqfaz Arxeoqrafiya Komissiyasının topladığı 12 cildlik sənədlər toplusu təşkil edir.Məşhur qafqazşünas alim Adolf Berjenin redaktəsi ilə hazırlanaraq 1866-cı ildən Tiflisdə çap olunan bu toplularda rəsmi səciyyə daşıyan sənədlərlə (Qafqazın Baş komandanı və hakimlərinin hesabatları, raportları, məktub və

reskriptləri və s.) yanaşı, statistik materiallar (vergi siyahıları və cədvəlləri, gəlir-çıxar sənədləri və s.) da öz əksini tapmışdır [3]. Qaqfaz Arxeoqrafiya Komissiyasının aktlarında mövcud olan sənədlərə əsasən Azərbaycan xanlıqlarının XVIII əsrin sonu – XIX əsrin əvvəlləri tarixinə dair məlumatları müqayisə etmək, dəqiqləşdirmək mümkün olmuşdur. Topludakı sənədlərdə xanlıqlarınn sosial tarixinə, qeyri-müsəlmanların Azərbaycan torpaqlarında yerləşdirilməsi, çar hökümətinin azərbaycanlılara qarşı həyata keçirdiyi siyasi, dini, milli bərabərsizlik və s. kimi sualların cavabları öz ifadəsini tapmışdır. Toplanılan sənədlərin böyük elmi əhəmiyyəti olsa da, yanlış fikirlərdən, qeyri-dəqiq məlumatlardan da xali deyildir.

Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı probleminə dair külli miqdarda qaynaqlar - sənəd və materiallar mövcuddur. Bu qaynaqlar sonradan problemə toxunan müəlliflərin istinadgah nöqtəsi olmuşdur. Demək olar ki, bütün tarixi əsərlər ilkin mənbələr əsasında yazılmışdır. Həmin mənbələr olmasaydı, yəqin ki, mövcud problemə dair külli miqdarda elmi əsərlər də meydana gəlməzdi. Bəhs olunan problemin mənbə bazasını işğal dövründə ayrı-ayrı dövlətlərlə və Azərbaycan xanlıqları ilə Rusiyanın bağladığı müqavilələr, islahat proqramlarından, qərar və sərəncamlarından, hərbi və mülki əmrlərindən ibarətdir. Bu materiallar əsasən Azərbaycan, Gürcüstan və Rusiyanın Mərkəzi Dövlət Tarix arxivlərində qorunub saxlanılmışdır. Bununla yanaşı problemə dair çap olunmuş mənbələrə də rast gəlmək mümkündür. Bu sahədə hələ XIX əsrin ikinci yarısından A.P.Berje, T.Yuzefoviç və başqaları fəal təşəbbüs göstərmiş və mənbələrin kütləvi şəkildə ictimaiyyətə çatdırılmasını təmin etmişlər.

Böyük Britaniyanın Ost-Hind şirkətinin XIX əsrin əvvəllərində Qacar dövlətində səfiri olmuş kapitan C.Malkolmun ilk mənbə xarakteri daşıyan “Persiyada indi çarlıq edən sülalənin əsasını qoyan Ağa Məhəmməd xan Qacarın həyatının təsviri, onun ölümündən sonra baş verən başlıca hadisələrin qısa şərhi” (1835) tədqiq olunan mövzunun bəzi aspektlərini öyrənmək baxımından maraqlıdır. 1801-cü il yanvarın 4-də C.Malkolm və İranın (Qacar – N.Ə.) birinci naziri Hacı İbrahim xan arasında siyasi (29 dekabr 1800-cü il tarixli) və ticarət əlaqələrinə həsr edilmiş iki müqavilə imzalanmışdır. Bu müqavilələr antirus və antifransız səciyyə daşıyırdı. Bu müqavilələr İran (Qacar) dövlətinin İngiltərə, sonralar isə digər Avropa dövlətləri ilə qeyri-bərabər hüquqlu müqavilələr bağlamağın əsasını qoydu.

Rusiya imperatoru I Aleksandr (1801-1825) hakimiyyətə gəldikdən sonra ikinci dəfə (birinci dəfə 1783-cü il 24 iyulda) 1801-ci il sentyabrın 12-də gürcü çarı XII Georginin vəsiyyəti üzrə Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında manifest və Qafqazdakı rus qoşunlarının Baş Komandanı Knorrinqin adına fərman verdi. Gürcüstanda hakimiyyətdə olan Baqrationilər sülaləsi hakimiyyətdən uzaqlaşdırıldı, Kartli-Kaxetiya çarlığı ləğv

edildi. I Aleksandrın məlum fərmanı ilə Qazax və Şəmşəddil sultanlıqları da Rusiyaya ilhaq edildi.

1803-cü il 12 aprel Car-Balakən camaatları ilə Tiflisdə rus diılində bağlanmış preambula və 11 maddədən ibarət Andlı öhdəlik. Bu Andlı Öhdəliyi carlıların nümayəndələri ilə Qafqazdakı rus ordusunun Baş Komandanı (1802-1806) P.D.Sisianov imzalamışdır. Bu Andlı Öhdəlik ilk dəfə AKAK-da çap olunmuşdur. Bəhs olunan dövrün rəsmi sənədləri tarixi proseslərin izlənməsi və yazılmasında mühüm qaynaqlardan olmuşdur.

Qarabağ xanı İbrahimxəlil xan və Rusiya imperiyası qoşunlarının Baş Komandanı general P.Sisianov arasında 1805-ci il mayın 14-də Kürəkçayda bağlanmış 11 maddəlik Andlı öhdəlik, 1805-ci il mayın 21-də Şəki xanı Səlim xanla P.Sisianov arasında bağlanmış müqavilə, 1805-ci il dekabrın 27-də şamaxılı Mustafa xanla P.Sisianov arasında bağlanmış müqavilə və s. bu qəbildəndir. Yeri gəlmişkən, Qarabağ xanlığının Rusiyaya keçməsi müqaviləsinin azərbaycanlı İbrahim xanın imzalaması həyasız ermənilərə və onların havadarlarına sübut edir ki, bu torpağın əsil sahibi azərbaycanlılar (Azərbaycan türkləri) olmuşdur.

1805-ci il 14 may müqaviləsinə görə Qarabağ xanı Rusiya çarının vassalı olmağına razılıq verir, üçüncü xarici dövlətlər ilə müstəqil münasibətlər saxlamaq hüququndan Rusiya çarının xeyrinə imtina edir, çar xəzinəsinə hər il 8 min çervon bac verməyi öhdəsinə götürür, Şuşa qalasında və xanlığın ərazisində Rusiya qoşun dəstələri yerləşdirilirdi. İbrahimxəlil xan öz nəvəsini Tiflisə Baş komandanın qərargahında girov saxlamaq üçün göndərməli idi. Çar qoşunları tərəfindən general-leytenant hərbi rütbəsi olan İbrahimxəlil xan birbaşa çar Baş komandanına tabe edilirdi. Bununla yanaşı, çar hökuməti xanın və onun qanuni varislərinin daxili idarə etmək hüquqlarına heç vaxt toxunmayacağını öhdəsinə götürürdü. Beləliklə, Kürəkçay müqaviləsi ikitərəfli dövlətlərarası münasibətləri siyasi yolla, savaşsız həll etmiş bir sənəddir. Kürəkçay müqaviləsi Qarabağ xanlığının çar hökuməti tərəfindən ləğv edilməsi ilə rəsmi qüvvəsini itirmiş oldu. Kürəkçay müqaviləsinin mətni ilk dəfə general Sisianovun çar I Aleksandrın adına 22 may 1805-ci il tarixli “tam sədaqətli” raportundan olduğu kimi götürülmüşdür. Raportun mətni isə öz növbəsində “Qafqaz Arxeoqrafiya Komissiyasının topladığı aktların (rus dilində komissiyanın adı qısaldılmış şəkildə AKAK, Azərbaycan dilində isə QAKA kimi işlədilir – N.Ə.) II cildində çap edilmişdir.

1804-cü ildə Rusiya ilə Qacar dövləti arasında başlanmış müharibənin gedişində sülh danışıqları Aslandüzdə 1812-ci ilin sentyabrında başlanmışdı. Həmin ilin sonunda danışıqları Qarabağın Gülüstan kəndində (indiki Goranboy rayonu ərazisində) aparmaq qərara alındı. 1813-cü il oktyabrın 1-də (13) orada barışıq imzalandıqdan sonra Qafqazdakı rus ordusunun Baş komandanı N.F.Rtişşev və İran tərəfindən Mirzə Əbdülhəsən xan müqavilənin maddələrini

razılaşdırmağa başlamış, oktyabrın 12-də (24) isə sülh bağlanmışdı. I Aleksandr İranla sülh bağlanılması haqqında manifestin layihəsini 1813-cü il dekabrın 12-də (24) Fribunda imzaladı, ancaq P.A.Rumyantsev Sankt Peterburqda manifesti alanda orada səhv müəyyən etdi (Rusiyaya ilhaq edilən Qarabağ və Gəncə xanlıqlarının adı yox idi). Buna görə 1814-cü ilin sentyabrında ratifikasiya olunmuş sülh haqqında manifesti yalnız 1818-ci il iyulun 16-da (28), müqavilənin mətni isə avqustun 7-də (19) elan edilmişdi.

Gülüstan müqaviləsi 11 maddədən ibarət idi. Gülüstan müqaviləsinin şərtləri I Aleksandrın "Bütün xalqa bəyanatı" ilə yalnız 1818-ci il avqustun 7-də Senatın nəzdində çap edilmişdir.Gülüstan müqaviləsi 1813-cü il oktyabrın 12-də, İran təqvimi ilə səvvalan ayının 29-da Zeyvə çayı yaxınlığındakı Gülüstan kəndində, rus ordugahında, hər iki tərəfin səlahiyyətli müvəkkilləri vasitəsilə Bütün Rusiya imperiyası və İran dövləti arasında bağlanmış və 1814-cü ilin sentyabrın 10-da Tiflisdə hər iki dövlətin səlahiyyətli müvəkkillərinin bir-biri ilə dəyişiklikləri ratifikasiyalarla təsdiq edilmiş əbədi sülh və dostluq müqaviləsidir. Müqavilənin preambula (giriş) hissəsində belə yazılmışdır.

Müqavilənin birinci maddəsinə görə müqavilə bağlandığı andan iki dövlət arasında düşmənçiliyə son qoyulur. İkinci maddədə iki dövlət arasında sərhəd xətti – coğrafi hüdudlar müəyyən olunur, Naxçıvan və İrəvan xanlıqları İrana aid edilir. Üçüncü maddəyə görə İran Qarabağ xanlığı, Yelizavetpol (keçmiş Gəncə - N.Ə.)əyalətinin (əslində hərbi dairə - N.Ə.) Şəki, Şirvan, Dərbənd,Quba, Bakı, Lənkəran (Talış) xanlıqlarının, Dağıstan, Gürcüstan (Şuragel) əyaləti ilə birlikdə İmeretiya, Quriya, Minqreliya, Abxaziya, Qafqaz sərhəd xətti və Xəzər dənizinə aid olan torpaqlar və xalqlarla birlikdə Rusiya imperatorluğuna keçir. Dördüncü maddədə Rusiya imperatoru və vəliəhdi adından İran şahının varisi təyin ediləcək vəliəhdin hakimiyyətini tanıyır. Beşinci maddədə Xəzərdə hər iki dövlətin ticarət gəmilərinə sərbəst üzmək, bir-birinin sahillərinə yan almaq, qəza zamanı bir-birinə kömək etmək nəzərdə tutulur, lakin dənizdə ancaq rus bayrağı altındakı hərbi gəmilər üzə bilərdi.Altıncı maddədə əsirlərin və ələ keçirilmiş sakinlərin üç ay müddətində qaytarılması, yeddinci maddədə hər iki dövlət arasında diplomatik münasibətləri tənzimləyən diplom və digər məmurlara qarşılıqlı hörmət, səkkizinci maddədə hər iki dövlət arasında qarşılıqlı ticarətin tənzimlənməsi, doqquzuncu maddədə gömrük məsələsinin tənzimlənməsi, onuncu maddədə hər iki dövlətin tacirlərinin ticarət əməliyyatlarına təminat verilməsi, on birinci maddədə müqavilə imzalanan andan hərbi əməliyyatların dayandırılması nəzərdə tutulurdu. Müqaviləni Gürcüstanda və Qafqaz xəttində rus qoşunlarının Baş komandanı N.Ratişşev və İran sarayının Gizli İşlər müşaviri Mirzə Həsən xan imzalamışlar.

**Türkmənçay traktatı.** İranın Rusiyaya müharibə elan etməsi ilə əlaqədar 1826-cı il sentyabrın 16-da Rusiyanın verdiyi bəyannamə ilə gələcək

sülh müqaviləsinin başlıca müddəaları qabaqcadan bildirilmişdir. Burada A.P.Yermolovun və A.S.Menşikovun 1826-cı il noyabrın 17-də Xarici İşlər Naziri qraf K.V.Nesselrodeyə təqdim etdikləri təkliflər də nəzərə alınmış, yeni müqavilə (Türkmənçay – N.Ə.) haqqında çar reskripti 1827-ci il mayın 24-də Cəlaloğlu yaxınlığındakı rus hərbi düşərgəsinə göndərilmişdi. Sülh danışıqlarını Rusiya bu aspektdə aparmışdır. Türkmənçay traktatında deyilirdi: Rusiya imperatoru və İran şahı, onların vərəsələri və taxt-tacın varisləri arasında əbədi sülh, dostluq və razılıq haqqında (maddə 1); Gülüstan müqaviləsinin qüvvədən düşməsi (maddə 2); İran şahının Arazın o tayı və bu tayı üzrə Erivan (İrəvan) və Naxçıvan xanlıqlarının Rusiyaya keçməsi (maddə 3); İranla Rusiya arasında sərhəd xəttinin müəyyənləşdirilməsi (maddə 4); Qafqaz dağları ilə Xəzər dənizi arasındakı bütün torpaqlar və adaların köçəri və başqa xalqların əbədi olaraq Rusiyaya keçməsi (maddə 5); İran rus təbəələrinə ödəmək üçün on kurur və ya iyirmi milyon gümüş manat ödəməli (maddə 6); Rusiyanın şahzadə Abbas Mirzənin İran taxt-tacının vərəsəsi və varisi, taxta çıxanda isə onu qanuni hökmdar kimi tanımaq öhdəliyi götürməsi (maddə 7); gəmiçilik barədə - Xəzər dənizində və sahil boyunca rus və İran ticarət gəmiləri sərbəst üzə bilər və sahillərinə yan ala bilər, qəza zamanı hər iki dövlət bir-birinin gəmilərinə kömək etməsi, Xəzər dənizində yalnız Rusiyanın bayrağı altında hərbi gəmilərin üzməsi (maddə 8); hər iki dövlətin bir-birinin səfirləri,nazirləri, müvəkkillərini qarşılıqlı olaraq ehtiramla qəbul etmələri (maddə 9); ticarət əlaqələrinin bərpası və inkişafı (maddə 10); hər iki dövlətin qarşılıqlı surətdə onların təbəələri barədə təəhhüdləri yerinə yetirmələri (maddə 11); hər iki dövlət öz təbəələrinə qarşılıqlı surətdə əmlakın satılmasına 3 il vaxt verir, lakin Rusiya imperatorunun bu iltifatı İrəvan sərdarı Hüseyn xana, onun qardaşı Həsən xana, Naxçıvan hakimi Kərim xana aid edilmir (12 maddə). Birinci və ikinci Rus-Qacar müharibəsi zamanı əsir düşmüş hərbi əsirlər, təbəələr 4 ay ərzində qarşılıqlı surətdə qaytarılmalı, bu tədbiri həyata keçirmək üçün hər iki tərəfin komissarları Abbasabada göndərilməli (maddə 13); axırıncı müharibənin (1826-1828-ci illər) başlanmasınadək və müharibə dövründə bir dövlətin təbəəliyindən başqa dövlətin təbəəliyinə keçmiş satqın və fərariləri bir-birindən tələb etməməli, İran Rusiyaya məxsus ərazilərdən bu ölkəyə qaçıb gəlmiş şəxslərin Rusiyanın göstərdiyi məntəqələrdə məskunlaşmasına imkan verməməli, Rusiya da İran qaçqınlarının (əsasən ermənilərin – N.Ə.) Qarabağ və Naxçıvan xanlıqlarında, İrəvan xanlığının Araz çayının sağ sahilində yaşamasına icazə verməyəcəyini vəd etməsi, İran tərəfi Quzey Azərbaycanından bu ölkəyə qaçmış xan, bəy, dini rəislər və ya mollaların öz həmvətənlərinə zərərli təsirinin qarşısını alacaq (maddə 14); şah Azərbaycan vilayətinin bütün əhalisinə və məmurlarına müharibə ərzində və ya rus ordusu adı çəkilən vilayəti tutduğu zaman davranışına görə (əsasən ermənilərə ruslara köməyinə görə - N.Ə.) təqibə, dini əqidəsinə görə təhqirə məruz qoymayacaq, onları bağışlayır,

hər hansı kömrük və vergi vermədən bir il ərzində daşınan əmlakını satıb Rusiyaya sərbəst köçə bilər, daşınmaz əmlakı satmaq üçün beş il vaxt verilir (maddə 15); müvəkkillər sülhü imzalayan kimi hərbi əməliyyatlar dərhal dayandırılır, eyni məzmunda iki nüsxədə tərtib olunmuş müqavilə hər iki tərəfin müvəkkilləri tərəfindən imzalanmış, onların gerbli möhürləri təsdiq edilmiş, Rusiya imperatoru və İran şahı tərəfindən təsdiq və ratifikasiya edilməlidir. Ratifikasiya mətnləri dörd ay ərzində dəyişdirilməlidir. Müqavilə 1828-ci il fevralın 10-da İsanın anadan olduğu gün Təbriz yaxınlığında Türkmənçay kəndində bağlandı (maddə 16). Əslinə qol çəkmişlər:İvan Paskeviç və şahzadə Abbas Mirzə. Rusiya ilə İran arasında ticarətə və hər iki dövlət təbəələrinin təhlükəsizliyinə dair Akt Türkmənçay barışığı ilə bir gündə bağlanmışdır.Türkmənçay müqaviləsi 1828-ci ilin martında çar hökuməti, iyul ayında isə Qacarlar tərəfindən ratifikasiya edilmişdir. Paskeviç qeyd etmişdir ki, 4 və 13-cü maddələr Qriboyedov tərəfindən "yaxşılaşdırılmış", 14-cü maddə isə genişləndirilmişdir. Ermənilərə və təzminatın həcminə aid maddələr dəyişikliyin əsas hissəsini təşkil edirdi. Tarixi ədəbiyyatda 14 və 15-ci maddələrin müəllifi A.S.Qriboyedov sayılır. Türkmənçay müqaviləsinin mətni Rusiyada dəfələrlə çap edilmişdir.

14-cü maddə ilə bağlı olaraq Qafqazın Baş hakiminin adına 12 noyabr 1842-ci il tarixdə göndərilən şah fərmanında göstərilirdi ki, sərhəd sakinlərinə bəxş edilmiş keçmə sərbəstliyindən sui-istifadə edilir. Bu narazılığı aradan qaldırmaq üçün Rusiya ilə İran arasında danışıqlar aparılmış, 1844-cü il iyulun 3-də bu iki dövlət arasında konvensiya imzalanmışdır. Konvensiyaya görə: 1. Hər iki dövlətin təbəələri bundan sonra bir dövlətdən o birinə pasportsuz və rəislərin formal icazəsi olmadan keçə bilməzdi və s.

## Ədəbiyyat

1.Акты, собранные Кавказской Археографической Комиссией: Под редакцией А.Берже,тт, 1-XII,Тифлис,1866-1904

2.Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в. часть II, Феодальные отношения и колониальный режим 1843-1868 гг. М.-Л.,1937, 478 стр.

3.Quliyev C.Ş.Qaqfaz Arxeoqrafiya Komissiyasının sənədləri Şimali Azərbaycanın Rusiya tərəfindən işğalını öyrənmək üçün mənbə kimi. Tarix üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2014. 22 səh.

4.Paşayeva E.M. 1801-1830-cu illərdə Rusiya, Türkiyə və İran münasibətlərində Azərbaycan problemi.Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2005. 26 səh.

5.Məmmədova A.Ə. Car-Balakən camaatlığı XVII əsrin sonları –XIX əsrin 30-cu illərində (tarixi-demoqrafik tədqiqat).Tarix elmləri üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı,2010. 30 səh.

6.Əliyev M.M.Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının tarixşünaslığı (20-90-cı illər) Tarix elmləri namizədi elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 1996. 23 səh.

7.КоцебуМ.А.Сведения о Джарских владениях1826 г. /ИГЭД. Под редакцией М.О.Косвена и Х.М.Хашаева. М.,1958

8.ЯишниковТ.Н.Выдержки из описания Лезгино-Джарских вольных обществ.1830 г. /ИГЭД. Под редакцией М.О.Косвена и Х.М.Хашаева. М.,1958

9.Mahmudov Y.M. Şükürov K.K.Azərbaycan beynəlxalq münasibətlər və diplomatiya tarixi 1639-1828. Dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları. Dörd clddə, I cild. Bakı,2009, 512 səh.

# DÖVLƏT MÜSTƏQİLLİYİ UĞRUNDA XALQ HƏRƏKATININ BAŞLANMASI

**Əzizova Rübabə Yasin qızı**
Sumqayıt Dövlət Universiteti
azizova60@mail.ru

**Açar sözlər:***hərəkat, müstəqillik, dövlət, tarix, vətənpərvərlik, etiraz, demokratiya, siyasət*

*1988-ci ilin fevralından noyabrın 17-ə kimi xalq hərəkatıartaraq milli azadlıq xarakteri aldı. Bu mərhələnin xarakterik xüsusiyyətlərin biri kortəbii çıxışların mütəşəkkil bir qüvvəyə çevrilməsi idi.Hərəkatın ilk iştirakçıları tələbələr və ziyalılar idi. Onların ardınca əhalinin digər kateqoriyalarından hərəkata qoşulanların sayı artdı.Dağlıq Qarabağdakı qanunçuluğun pozulmasına etirazlarla başlayan çıxışlar vətənpərvərlik, milli özünüdərk kimi xüsusiyyətlərin formalaşmasının göstəriciləri oldu.1988-ci ilin sonunda bir qrup ziyalı xalq hərəkatına rəhbərlik üçün Azərbaycan Xalq Cəbhəsi yaratdı.*

*"Meydan hərəkatı" adı almış mitinq və çıxışların gedişində yaranan başqa bir yeni cəhət sovet hərbi hissələrinintəxribatlarının aradan qaldırılaraq hərəkatın gözlənilməz hadisələrəyol verilmədən idarə olunması idi.Başqa yeni cəhət bu idi ki, əvvəllər mitinq və çıxışlara rəhbərlik, tələblərin hazırlanmasının məsuliyyətini, ziyalılar daşıyırdılarsa, indi hərəkatın gedişində sadə peşə sahibləri olan yeni gənc liderlər də tanınmağa başladılar.*

# НАЧАЛО НАРОДНОГО ДВИЖЕНИЯ ЗА ГОСУДАРСТВЕННУЮ НЕЗАВИСИМОСТЬ

**Азизова Рубаба Ясин**
**Ключевые слова:***движение, независимость, государство, история, патриотизм, протест, демократия, политика*

*С февраля по 17 ноября 1988 г. народное движение усилилось и приняло характер национально-освободительного. Одной из характерных черт этого этапа было превращение спонтанных выступлений в организованную силу. Первыми участниками движения были студенты и представители интеллигенции. За ними последовали представители других категорий населения. Выступления, начавшиеся с протестов против нарушения законности в Нагорном Карабахе, были показателями*

*формирования таких черт, как патриотизм и национальное самосознание. В конце 1988 года группа представителей сформировала Народный фронт Азербайджана, возглавив народное движение.*

*Одним новым аспектом митингов и демонстраций так называемого «народного движения» стало устранение провокаций со стороны советских войск и контроль движения против непредвиденных событий. Ещё одним новым аспектом было то, что если интеллигенция была ответственназа руководство предыдущими демонстрациями и выступлениями, подготовку требований, то теперь в ходе движения начинают признаваться новые молодые лидеры с простыми профессиями.*

## THE BEGINNING OF THE PEOPLE'S MOVEMENT FOR STATE INDEPENDENCE

**Azizova Rubaba Yasin**

**Keywords:** *movement, independence, state, history, patriotism, protest, democracy, politics*

*From February to November 17, 1988, the popular movement intensified and took on the character of a national liberation. One of the characteristic features of this stage was the transformation of spontaneous performances into organized force. The first participants in the movement were students and intellectuals. They were followed by representatives of other categories of the population. The demonstrations, which began with protests against the violation of the rule of law in Nagorno-Karabakh, were indicators of the formation of such traits as patriotism and national identity. At the end of 1988, a group of representatives formed the Popular Front of Azerbaijan, leading the popular movement.*

*One new aspect of the rallies and demonstrations of the so-called "popular movement" was the elimination of provocations by Soviet troops and the control of the movement against unforeseen events. Another new aspect was that if the intelligentsia was responsible for leading previous demonstrations and speeches, preparing demands, now new young leaders with simple professions are beginning to be recognized in the course of the movement.*

***

**Giriş.** Azərbaycanın dövlət müstqəlliyinin bərpası haqqında indiyədək müəyyən tədqiqatlar aparılmışdır. Problemlə bağlı bir çox məsələlər təhlil olunsa da, məsələyə dəfələrlə qayıtmaq yenə də aktual olaraq qalır. Azərbaycan bu gün müstəqildir, özü öz torpaqlarının və taleyinin həm sahibi, həm

müdafiəçisidir. Lakin bəzi qonşu dövlətlərin regionda qalmaq, burada yenidən möhkəmlənmək cəhdləri yenə də davam edir.

Bu baxımdan xalqımızı müstəqilliyə aparan yolun bütün gedişindəki proseslərin ciddi araşdırılmasının vacibliyini qeyd etməklə bərabər, bu müstəqilliyin qorunub möhkəmləndirilməsi üçün bundan sonra nələrə nail olmalı olduğumuzu, hansı addımlar atacağımızı diqqətlə düşünüb müəyyən etməliyik. Ona görə dədövlət müstqəlliyinin bərpasınagedən yolla bağlı hələlik tam cavablandırılmamış müəyyən suallara cavab tapmaq yenə də aktualdır.

**"Meydan hərəkatı"na gedən yol.** Dağlıq Qarabağdakı qanunçuluğun pozulmasına etirazlarla başlayan çıxışlar "1988-ci ilin noyabr ayının 17-də 1 milyon insanın Bakının mərkəzi meydanına toplaşaraq indiyədək görünməmiş dərəcədə mütəşəkkillik nümayiş etdirməsi, bu ana qədərki və bundan sonrakı hadisələrin ən yüksək dövrü demək idi. "Meydanda 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayrağı qaldırıldı" [3].

1988-ci ilin fevralın ortalarından noyabrın 17-ə kimi olan dövrü demokratik xalq hərəkatının, geniş xalq kütlələrinin iştirak etdiyi milli-azadlıq hərəkatı kimi qəbul etmək olar. Bu mərhələ üçün xarakterik xüsusiyyətlərin biri kortəbii başlamış çıxışların kütləvi hal alaraq, get-gedə genişlənən, idarə olunan mütəşəkkil bir qüvvəyə çevrilməsi idi. Hadisələrin həm respublikada, həm də ondan kənardakı müşahidəçilərinin həmrəy olduğu yekdil qənaət bundan ibarət idi ki, əhali arasında Dağlıq Qarabağdakı özbaşınalıqlara qarşı çevrilən çoxsaylı etiraz aksiyaları qısa bir vaxtda kütləviləşdi, hərəkat özü ilə ictimai hərəkatdan, xalq çıxışlarından çox ilk siyasiləşmə meylləri ilə zənginləşdi.

Xalq hərəkatının xarakterinin qısa bir vaxt ərzində dəyişməsi kökündə çox müxtəlif səbəblər dayanırdı. Respublika rəhbərliyinin mövcud şəraitdə sosial-iqtisadi problemlərdən başlamış Dağlıq Qarabağdakı vəziyyətin nizamlanmasına qədər göstərdiyi acizlik, bacarıqsızlıq, səriştəsizlik, mərkəzin çirkin oyunlarının dairəsindən kənara çıxa bilməməsi sözsüz ki, ilk yerdə dayanırdı.

Bu mərhələdə Ermənistanda Azərbaycan əleyhinə çıxışlara rəvac verən, onların icraçıları olan təşkilatlar sırasına yeniləri əlavə olunurdusa, Azərbaycanda bunun olduğunu demək çətin ki, mümkün olardı. Mərkəzin nəzarətindən, demək olar ki, bir addım da kənara qoymağı bacarmayan respublika rəhbərlərindən fərqli olaraq, Ermənistandakı və vilayətdəki separatçı liderlərin başlıca məqsədi Azərbaycanın ərazi bütövlüyü pozmaqdan ibarət yeni erməni milli cəmiyyətlərinin, təşkilatlarının yaradılması aktları Dağlıq Qarabağa da keçmişdi. Beləliklə, Dağlıq Qarabağda erməni separatçı milli təşkilatlarının pozuculuq fəaliyyəti get-gedə gücləndiyi halda respublika rəhbərləri mitinq iştirakçılarına "DQMV-nin heç bir vəchlə Azərbaycanın tərkibindən ayrılmasına yol verilməyəcəyini" bəyan edirdilər [1].

Hadisələrə qiymət verilməsi tək bununla bitsəydi, bəlkə də əlavə şərhə ehtiyac qalmazdı. Vilayətdəki özbaşınalıqlardan respublikada ən tez xəbər tutan Ağdam şəhərində insanların narahatlılıqlarının ifadəsi olan toplantılar, mitinqlər, demək olar ki, ətraf rayonlardan gələnlərin iştirakı ilə hər gün keçirilirdi.

1988-ci ilin fevralın 21-də Sov. İKP MK Siyasi Bürosunda qəbul edilmiş qərarda vilayətdə baş verənlər formal olaraq pislənilmiş və "DQMV XDS-nin məlum qərarının həyata keçirilməsinin mümkün olmadığı" göstərilmişdi [1].İstər Bakıda, istərsə də rayonlarda keçirilən izdihamlı mitinqlərdə səslənən fikirlərdə sonralar yalnız taktiki gediş kimi qiymətləndirilən bu qərarın az qala vilayətdəki separatçı qüvvələrin məğlubiyyəti, vəziyyətin əvvəlki məcrasına qayıtması kimi qiymətləndirilməsi tam yanlışlıq idi.

**Respublika rəhbərliyinin mövqeyi.** Bu mərhələdə baş vermiş daha bir məsələ vilayətdəki erməni separatçıların gizlincə sonrakı özbaşınalıqlara hərtərəfli hazırlaşmaları, hətta silahlanmaları haqqında inzibati orqanlarda kifayət qədər məlumatlar olduğu halda, qəzəblənmiş insanların dinc yürüşlərinə, mitinqlərin təşkilinə hər vasitə ilə maneələr yaradılırdı. Ən pisi isə bu idi ki, vilayət ətrafı bütün rayonlarda və kəndlərdə əhalidəki soyuq və odlu silahlar toplanılmışdı. Bu azmış kimi, yürüş və mitinq iştirakçılarının hüquq-mühafizə orqanları tərəfindən təqib olunması, incidilməsi xüsusi ilə dözülməz idi.

Dağlıq Qarabağdakı hadisələrin durmadan genişləməsinə etiraz mitinqləri, yürüşləri 1988-ci ilin mayında yenidən genişləndi. Etiraz çıxışlarının genişlənməsi fonunda respublika rəhbərliyi konkret səmərəli addımlar atmaq əvəzinə Bakıda, bəzi nazirliklər isə rayonlarda xırda kosmetik kadr dəyişiklikləri ilə kifayətlənirdi. Tezliklə kadr dəyişikliyi taktiki gedişlərində növbə respublika rəhbərliyinə də çatdı.

Bəzi müəlliflər həmin günlərdə K.Bağırovun vəzifədən getməsi haqqında Moskvaya ərizə ilə müraciət etməsini bildirsələr də, fikrimizcə, bu həqiqət kimi qəbul oluna bilməz. Moskvanın eyni vaxtda hər iki respublikada birinciləri dəyişməsi, həm də mərkəzin Dağlıq Qarabağ məsələsinin həllində ta SSRİ-nin dağılmasına qədər kimin günahkar olmasından asılı olmayaraq balanslı siyasət yürütməsini göstərən inkaredilməz faktlardan biri idi.

Etiraz çıxışlarının xalq hərəkatı adlandıranlar yəqin ki, səhv etmirdilər. Fevral ayının ortalarından başlamış çıxışların ilk iştirakçıları tələbələr və ziyalılar idilər. Onların ardınca əhalinin digər kateqoriyalarından hərəkata qoşulanların sayı günbəgün artmaqda idi.

Dağlıq Qarabağdakı qanunçuluğun pozulmasına etirazlarla başlayan çıxışlar vətənpərvərlik, milli özünüdərk kimi xüsusiyyətlərin formalaşmasının başlıca göstəriciləri oldu.

**Moskvanın daha bir hiyləsi.**İctimaiyyətin fəaliyyətində xalq hərəkatının gedişinə ciddi təsir göstərən bir hadisədən bəhs etmək yerinə düşərdi. 1988-ci

ilin iyun ayının 18-də Azərbaycandakı vəziyyətin həddən qrtıq gərginliyini görən Moskva yeni hiyləyə əl atdı [1].SSRİ Ali Sovetinin Rəyasət Heyətində hər iki respublikanın və vilayətin nümayəndələrinin iştirakı ilə keçirilən yığıncaq - şouda M.Qorbaçov erməni separatçılarının tələblərinin qeyri – mümkünlüyünü söyləsə də, vilayətin Azərbaycan SSR ərazisndə qalacağını bəyan etsə də, elə oradaca iclasın sonunda DQMV-nin idarəçiliyinin Azərbaycanın tabeçiliyindən çıxarılaraq, birbaşa ittifaq tabeçiliyinə keçməsini bəyan etdi [1].

Bu, Azərbaycan SSR Konstitusiyasının kobudcasına pozulması demək idi. Çox təəssüf ki, yığıncaqda deyilənlər, qəbul edilmiş qərarı Azərbaycanın xeyrinə qəbul edilmiş qərar, ədalətli həll və s. kimi başa düşənlər çox, bu hiyləgər addımın arxasında nələr olduğunu, onun böyük faciənin - ərazi bütövlüyümüzün pozulmasına aparacaq fəlakətli gedişində növbəti təhlükəli addım kimi qiymətləndirənlər isə az oldu.

Məsələ bunda idi ki, ittifaq rəhbərliyi həmin vaxt Azərbaycanda ictimai-siyasi vəziyyətin həddən artıq mürəkkəb olduğu bir vaxtda vilayətin Ermənistana birləşdirilməsinə razılığını açıq şəkildə bildirməyə risk etməyərək, problemin çoxgedişli və ya mərhələli taktikasını seçmişdi. Tezliklə vilayətin ittifaq tabeçiliyinə keçməsini qanunilaşdirən daha bir addım atıldı. Dağlıq Qarabağa rəhbərlik üçün Xüsusi İdarə Komitəsi yaradıldı vəermənipərəst A.Volski komitənin sədri təyin edildi [4, s.29].

Xüsusi İdarə Komitəsinin vilayəti idarə etmək adı altında burada Azərbaycan idarəçiliyi adı ilə bağlı hər nə vardısa ləğv edərək, Ermənistan tabeçiliyinə keçmək üçün bütün əlindən gələnləri etdiyini söyləməklə kifayətlənirik. Onu da əlavə edək ki, Dağlıq Qarabağda vəziyyətin nə vaxtsa yaxınlaşacağına inam, burada Azərbaycanın suveren hüquqlarının bərpasına olan son ümidlərə məhz XİK-nin mənfur siyasəti nəticəsində son qoyuldu.

Bu hadisədən sonra xalq hərəkatının gedişində müəyyən süstlük baş versə, arxayınçılıq yaransa da, lakin ziyalılardan ibarət bir qrup məsələnin həll olunmadığını bildirərək, mübarizəni davam etdirməyə çağırışlar səsləndiridilər.

Xalq hərəkatı hələlik Moskvanı, respublika rəhbərliyini Dağlıq Qarabağla bağlı operativ hərəkət edib, qanunçuluğu möhkəmlətməyə, vilayətdə artıq başlamış olan ayrılma prosesinin dayandırılmasına məcbur etmək gücündə deyildi. İctimai-siyasi cəmiyyətlərin və təşkilatların pərakəndə fəaliyyəti, bir mərkəzdən idarə edilməməsi də öz sözünü deyirdi. Çünki xalq hərəkatının sosial bazasının genişlənməsi, qarşısına qoyduğu vəzifələrin konkretləşdirilməsi, fəaliyyət istiqamətlərinin müəyyən edilməsi olduqca vacib idi. Başqa sözlə desək, respublika rəhbərliyinin məsələni həll edəcəyinə inamını itirmiş əhalinin müxtəlif təbəqələrinin nümayəndələrinin pərakəndə fəaliyyətini idarə etmək üçün ayrıca mərkəz, əlaqələndirici rolu oynayacaq bir quruma ehtiyac vardı.

**“Meydan hərəkatı”.**Dağlıq Qarabağdakı vəziyyətin günbəgün pisləşməsi xalq hərəkatının yeni – “1988-ci ilin noyabrın 17-dən dekabrın 5-dək davam etmiş Bakının indiki Azadlıq – o vaxtkı Lenin meydanında Azərbaycan xalqının uzunmüddətli mitinqlərin keçirilməsi” [3] mərhələsində ictimai-siyasi fəallığın olduqca artması ilə yadda qaldı. Beləliklə, kütlələrin dinc formada başlayan çıxışları ilə xalq hərəkatının ən yüksək mərhələsi başladı. Bu mübarizənin əvvəlkilərdən fərqi o oldu ki, mitinq iştirakçıları Azadlıq meydanına tərk etməyərək dekabrın 5-dək gecələr də orda qalırdılar.

Sonralar “Meydan hərəkatı” adı almış bu mitinq və çıxışların gedişində yaranan başqa bir yeni cəhət onların inzibati orqanların, sovet hərbi hissələrinin qüvvələr tərəfindən törədilən bütün təqib və təxribatları aradan qaldıraraq hərəkatın gözlənilməz hadisələrə, özbaşınalıqlara yol verilmədən idarə olunması idi.

Başqa bir yeni cəhət bu oldu ki, əgər əvvəlki yürüş və çıxışlara rəhbərlik, tələblərin hazırlanmasının bütün məsuliyyətini, ağırlığını, ziyalılar daşıyırdılarsa, indi hərəkatın gedişində sadə peşə sahibləri olan yeni gənc liderlər də tanınmağa başladılar.

Mitinq iştirakçılarının mütəşəkkilliyini göstərən daha bir cəhət bu idi ki, təşkilat komitəsi hakimiyyət orqanlarına özlərinin tələblərini təqdim etmişdi. “Mitinq iştirakçıları tələb edirdilər ki, Azərbaycan hökuməti iqtisadi əlaqələri kəsəcəyi haqqında Ermənistana qəti xəbərdarlıq etməlidir. Eyni zamanda, televiziyanın Topxanada nə işlər görüldüyü barədə ətraflı məlumat verməsi tələb olunurdu. Digər tələblər bu idi ki, Ağdam şəhərində qadağa saatı ləğv edilsin, Dağlıq Qarabağ Muxtar Vilayətində partiya və sovet orqanları buraxılsın, orada Azərbaycanın hüquqi və siyasi hakimiyyəti bərpa edilsin” [5, s.4]

Bütün mütəşəkkilliyinə, davamlılığına baxmayaraq, hərəkat iştirakçıları olan müxtəlif cəmiyyətlərin liderləri arasında müəyyən məsələlərə fərqli taktiki baxışların olması dekabrın 5-də fiziki güc tətbiq edilməsi yolu ilə mitinqlərin dayandırılması ilə nəticələndi. Məhz bu bəhs etdiyimiz fikir ayrılıqları ona şərait yaratdı ki, verilmiş tələblərin yalnız 3-ü təmin edildi.

Tələblərin təhlili də bəzi məqamları müəyyən etməyə imkan verir. Qeyd etməliyik ki, bu tələblər yekun formaya gəlib çıxana qədər hərəkat liderlərinin günlərlə diskussiyaları, bir-birinə zidd mövqeləri çıxışların mütəşəkkilliyini bir qədər azaldırdı.

Digər tərəfdən tələblərdə diqqət çəkən bir cəhət də bu idi ki, mitinqlərə rəhbərlik edənlərin bəzilərinin təkidlərinə baxmayaraq, etirazçıların belə bir mövqeyi nəzərə alınmışdı ki, guya hələ də vəziyyəti stabilləşdirmək, vilayətdəki özbaşınalıqlara son qoymaq mümkün olacaq. Çünki tələblərin dördünün həlli birbaşa Moskvanın razılığı ilə həyata keçirilə bilərdi.

**Hərəkatın nəticələri.**Burada milli-azadlıq hərəkatının gedişi, davamı və uğurlu sonluqla nəticələnməsi üçün mühüm məktəbi rolu oynamış meydan hərəkatının yekunları haqqında bəzi qənaətlərimizi bölüşmək istərdik.

Əvvəla, meydan hərəkatı əvvəlki onilliklərdə, sovet rejiminin varlığı gedişində Azərbaycan cəmiyyətinin sovet ideologiyasına qarşı ara-sıra davam etmiş mübarizəsinin indiki mərhələdə daha da mütəşəkkil hal almağa getdiyini, ziyalılarımızın xalqla birləşməsi ilə mübarizəyə siyasiləşmə, mütəşəkkillik təşkilatlanma kimi yeni xüsusiyyətlər əlavə etmişdi.

Hərəkat sovet rejiminin xalqımıza təbliğ etdiyi, cəmiyyətdə hakim kəsildiyinə aid etdiyi mütilik, tabeçilik mənzərəsini aradan qaldırdı. Hərəkatın gedişində milli maraqların pozulmasına qarşı mübarizlik, çətin vəziyyətdə bir yumruq kimi birləşmək, öz qüvvəsinə inam və digər xüsusiyyətlər üzə çıxmış oldu.Hərəkat gedişində xalqımızın mübarizlik, milli birlik, şəxsi maraqları ümummilli maraqlara qurban verməyi bacarmaq kimi yüksək mənəvi əxlaqi, milli dəyərləri formalaşdı və daha da inkişaf etdi.İttifaq rəhbərliyini həmin günlərdə ciddi şəkildə narahat edən bu hərəkat ilk olaraq respublika rəhbərliyini bəzi xırda sosial-məişət xarakterli güzəştlərə getməyə vadar etsə də, lakin bundan irəli getmək mümkün olmadı.

Meydan hərəkatının sona çatdırılmamasının səbəblərini onun təşkili, idarə edilməsindəki bir sıra nöqsanlarla da izah etmək olar. Çünki hərəkatın sıraları genişləndikcə, meydana heç bir siyasi təcrübəsi, tarixi biliyi, vilayətdəki hadisələr haqqında lazımi qədər xəbəri olmayan, birbaşa fabrik-zavoddan gələn gənclərin hərəkatın idarə olunmasında rolu artırdı. Belələrinin lideri rolunu oynayan N.Pənahovun fikirlərinin hərəkatın daha təcrübəli iştirakçıları olan, vaxtı ilə sovet rejiminin təqiblərinə məruz qalmış insanların, o cümlədən İ.Mustafayev, B.Vahabzadə, S.Əliyarov və başqaları təklifləri ilə hesablaşmaması, eyforiyaya uyması da öz sözünü demiş oldu.

Hərəkatın bu cür sonluqla başa çatmasına baxmayaraq, onun müsbət nəticələri də az olmadı. Belə ki, ittifaq rəhbərliyində və respublikanın daxilində vəziyyətin ağırlaşmasında, siyasi sabitliyin pozulmasında maraqlı olan bəzi qüvvələr hərəkat üzərində qələbəyə əmin olsalar da, bu belə deyildi.

Yol verilmiş nöqsanların bəlkə də başlıca səbəblərdən biri hərəkata başçılıq edəcək vahid ictimai-siyasi təşkilatın olmaması idi. Bu təcrübə ittifaq üzvləri arasında Baltikyanı respublikalarda vardı və oradakı böyük əksəriyyəti ziyalılardan ibarət olan Xalq Cəbhəsi təşkilatı sovet rejiminə qarşı, onun bütün təxribatlarının qarşısını uğurla almaqla, mübarizəni başa çatdırıb sonda öz ölkələinin ittifaqdan, çıxmasına nail ola bilmişdilər.

Ziyalıların əksəriyyəti hərəkata başçılıq edəcək vahid siyasi partiya və ya digər bir qurumun, təşkilatının zəruliyini qəbul etsələr də, hətta bu istiqamətdə bəzi təşəbbüslər göstərsələr də, meydan hərəkatı günlərində bu məqsədə nail olunmadı. Halbuki, bu olduqca vacib idi. Çünki həmin günlərdə xalq ilə

hakimiyyət strukturları arasında qüvvələr nisbətində bir növ müvazinət yaranması, ilk vaxtlar hakimiyyətin daha da kütləviləşməsindən ehtiyyat edilməsi bu yolda daha konkret və operativ addımlar ataraq belə bir mərkəzin yaranmasını mümkün edirdi.

Meydan hərəkatının məhdudiyyətlərindən biri də tək respublikadakı şəraitin deyil, həm də mövcud siyasi sistemin potensial imkanlarını sonadək düzgün qiymətləndirilməməsi idi. İlk növbədə başa düşülməli idi ki, Dağlıq Qarabağdakı vəziyyəti, onunla bağlı gərginlik, qeyri-stabillik yaradan halları xalq öz taleyinə sahib çıxmamış, yaxud SSRİ Konstitusiyasında bəyan edilən suverenlik hüququnun formal xarakter daşıdığını mövcud siyasi reallıqlar daxilində həlli qeyri-mümkün idi.

Meydan hərəkatının uğursuzluqla başa çatmasının digər bir səbəbi ölkədə, siyasi islahatların yenicə başladığı vaxt Azərbaycandakı siyasi cəmiyyət və təşkilatların fəaliyyət təcrübəsinin azlığı, dəqiq desək, olmaması idi. Cəmi bir ilə yaxın müddətdə mürəkkəb siyasi vəziyyətdə yeganə düzgün çıxış yolunu seçmək imkanınamalik olmaq bu vəziyyətdə qeyri-mümkün idi.

Bütün bunlara baxmayaraq, hərəkatın uğurları da, səhvləri də ən qısa müddətdə təhlil edilərək 1989-cu ilin əvvəlindən başlayan milli-azadlıq hərəkatının səmərəsinin artırılmasına imkan verərək, qarşıda duran başlıca siyasi hədəflərə çatmağı bir az yaxınlaşdırmağa kömək etdi.

Beləliklə, təxminən iki həftəlik meydan hərəkatı XX əsrin sonlarında ərazi bütövlüyümüz uğrunda, milli-mənəvi dəyərlərin qorunması uğrunda mübarizədə ən şərəfli səhifə demək idi. Bu hərəkat həm də əsas insan hüquqları və azadlıqları, demokratik dəyərlər uğrunda mübarizədə yaddaqalan hadisəyə çevrildi. Bu mübarizə xalqımızın milli mənliyinin ifadəsinin, ləyaqətinin nümayişinə çevrildi və dünyaya xalqımızın öz tabe vəziyyəti ilə hesablaşmaq niyyətində olmadığını sübut etdi.

Təhlillərimizdə meydan hərəkatı, onun müxtəlif çalarları ilə bağlı bir çox məsələlərdən bəhs etsək də, vaxt keçdikcə, illər ötdükcə hərəkatla bağlı müəyyən məsələlərə yenidən qayıdılması, onların fərqli baxış bucağından təhlilinin vacibliyini etiraf etməliyik. Belə məsələlərdən biri üzərindəayrıca dayanmaq istərdik. Həmin hadisələr vaxtı respublika rəhbərliyinin, hüquq mühafizə orqanlarının hadisələrə, xalq hərəkatı iştirakçılarına münasibətinə şablon mövqelərdən yanaşmaq, müxtəlif yersiz damğalar vurmaq da düzgün olmazdı. İş bundadır ki, adı çəkilən tərəflər sözsüz ki, hakim sovet rejimi və ideologiyasının xidmətində durmaları ilə yanaşı, milli-azadlıq hərəkatı, onun üzvlərinə münasibətdə milli mənafelərə qarşı açıq çıxmaq kimi mövqelərdən uzaq olmuşlar. Bu ifadəni rejimin və siyasi sistemin əksər üzvlərinə aid etmək daha ədalətli olardı.

Bütövlükdə bu iki qüvvə milli-azadlıq hərəkatını nəzarətdə saxlamağa, milli-azadlıq çıxışlarının birbaşa rejimin dayaqlarının sarsıdılmasına gətirib

çıxarmasının qarşısını almaq vəzifələrini əsas götürsələr belə, qalan prinsipial məsələlərdə xalqla, hərəkatla həmrəy idilər. N.Nərimanovdan başlayaraq, H.Əliyevə qədər Azərbaycan rəhbərlərinin Moskvanın milli maraqlarımıza qarşı yönələn, ərazi bütövlüyümüzə qəsd hazırlayan çirkin planların pozulmasına necə böyük çətinliklərlə nail olmaları xalqın yaddaşlarına birdəfəlik yazılmışdı.

**Azərbaycan Xalq Cəbhəsinin yaranması.**1988-ci ilin ortalarında bir qrup ziyalılar xalq hərəkatına rəhbərlik edəcək bir təşkilatın – "Azərbaycan Xalq Cəbhəsinin (AXC) yaradılması üçün fəaliyyətə başladı.Sovet İmperiyasına qarşı mübarizə aparıb Azərbaycanın siyasi müstəqilliyini bərpa etmək ziyalılarımızın nail olmağa çalışdığı ən əsas məqsəd idi. Bu və digər məsələlərin həlli Azərbaycan xalqının kütləvi milli azadlıq hərəkatına rəhbərlik etmək və onu məqsədyönlü təşkil etmək üçün siyasi partiyanın yaradılmasını tələb edirdi. Bu tarixi zərurətə cavab olaraq 1988-ci ilin sonunda Azərbaycan Xalq Cəbhəsi (AXC) yaradılması üçün fəallıq yenidən artdı [2, s.17].

AXC-nin yaradılması Azərbaycanda siyasi millətçiliyin daha da güclənməsinə işarə idi. AXC qeyri-iradi xalq hərəkatını aparmağa və onu ölkənin son dərəcə mühüm problemlərinin həllinə yönəltməyə qadir olan bir qüvvə idi. Lakin həmin vaxt bəzi çətinliklər, o cümlədən təşkilatın proqramındakı məsələlərə fərqli baxışlar, rejimin yaratdığı süni maneələr və digər səbəblərdən təşkilatın səmərəli fəaliyyətinə mane olurdu.

AXC-nin yaradılması üçün təşkilat qrupu hələ 1988-ci ilin yayında fəaliyyətə başlamışdı. Lakin Dağlıq Qarabağda və respublikadakı gərgin siyasi vəziyyətdə bu baş tutmadı. Bu sahədə işlər 1989-cu ilin əvvəlindən başlayaraq yenidən fəallaşdı."1989-ci il iyulun 16-da Bakı şəhərində Azərbaycan Xalq Cəbhəsinin təsis konfransı keçirildi və Meydan hərəkatının fəallarından olan Ə.Elçibəy onun sədri seçildi" [3].

"Bəzi obyektiv (Azərbaycan xalqının milli azadlıq hərəkatını təcavüzkar bir hərəkat kimi təqdim etməyə çalışan xarici dövlətlərin məxfi xidmət orqanlarının təxribatçılıq fəaliyyəti; Rusiyanın Ermənistana göstərdiyi hərbi yardım) və subyektiv səbəblərə (Azərbaycanda milli hərəkatın nəzəri bazasının olmaması; AXC rəhbərlərinin əksəriyyətinin peşəkar keyfiyyətlərinin aşağı səviyyəsi; AXC daxilində parçalanma) görə AXC göstərilən tarixi vəzifələri həyata keçirə bilmədi" [6, s.34].

Sovet rəhbərliyi, daxili və xarici düşmən qüvvələr Azərbaycanda milli hərəkatı sıxışdırmaq üçün bu vəziyyətdən istifadə edərək AXC-nin təcavüzkar bir hərəkat kimi qələmə verirdilər.

AXC-nin yaranması xalqımızın milli-azadlıq hərəkatı tarixində tam fərqli bir mərhələnin başlanğıcını qoydu.Bu, elə bir vaxt idi ki, Dağlıq Qarabağda, Şuşa şəhəri istisna olmaqla, Azərbaycan hakimiyyəti heç bir təsir gücünə malik deyildi. Erməni separatçıları vilayətdə yaşayan bütün azərbaycanlı yaşayış məntəqələrini təmizləmək üçün son tədbirlər planının icrasına başlamışdılar.

Həmin ilin sentyabrında AXC rəsmi qeydə alındı, cəmiyyətin mətbuat orqanı - "Azərbaycan" qəzetinin nəşri başladı. Məhz o günlərdə vilayətdəki vəziyyətdən hədsiz dərəcədə narazılıq çıxışlarının yeni dalğası, demək olar ki, respublikanın bütün şəhər və rayonlarını əhatə etmişdi. AXC əhalinin tələblərinin vahid proqram şəklinə salınmasında həlledici rol oynadı. Rəsmi idarəçilik funksiyaları olan respublika rəhbərliyinin passivliyindən ümidləri kəsilmiş kütlə indi siyasi fəaliyyət təcrübəsi az olan, inzibati-idarəçilik funksiyalarına malik olmayan AXC-yə üz tutdu.

1989-cu ilin iyul-avqust aylarında mitinqlərin və kütləvi etiraz çıxışlarının yeni dalğasının bir istiqamətə yönləndirilməsində, Dağlıq Qarabağda XİK-nin buraxılması, vilayətdə komendant saatının ləğvi və digər tələblərdən ibarət tələblər proqramının hazırlanması respublika rəhbərliyinin mövqelərinə təzyiqlərin gücləndirilməsində AXC-nin mühüm rolu oldu.

Sovet rejimi dövründə Azərbaycanda ən kütləvi ictimai təşkilat sayılan AXC-nin fəaliyyətindən, xüsusi ilə də, Dağlıq Qarabağ konfliktinə münasibətdə tutduğu prinsipial mövqedən bərk narazı qalan Moskva təşkilatın nüfuzuna zərbə vurmaq, onun fəaliyyətinə birdəfəlik son qoymaq üçün müxtəlif çirkin planlar tərtib edir, təxribatlar hazırlayırdı.

**İqtidarın xalq hərəkatının imkanlarından istifadə edə bilməməsi.**1990-cı ilin payızında Moskvanın bu planlarına daxil olan hərəkətlərdən biri Bakıda ikinci Sumqayıt faciəsini təkrarlayacaq erməni qırğınları törətmək idi. Yalnız ziyalıların, xüsusi ilə də AXC fəallarının bundan xəbər tutub, respublika rəhbərliyinə təxribatın qarşısının alınması üçün kömək etməsindən, əhali arasında müvafiq izahedici söhbətlər aparılmasından sonra həmin vaxt böyük bir faciənin qarşısını almaq mümkün oldu. Lakin təəssüf ki, bu cəhd Moskvanın bu cür çirkin, cinayətkar siyasi planlarında da sonuncu addım olmadı.

Azərbaycan idarəçiliyi postuna heç də təsadüfi olmayaraq "tapılan" və təyin edilən Ə.Vəzirov kimi milli maraqları, vilayətdəki suveren hüquqlarımızın pozulmasını bu cür yüksək vəzifəyə dəyişməyə razılıq verən şəxsin XİK-nin törətdiyi özbaşınalıqlar haqqında faktiki olaraq öz mövqeyini bildirməməsi, münasibət göstərməməsi də öz sözünü dedi. "Bu mövqeyi xalqın mənafeyinə münasibətdə açıqcasına satqınlıqkimi qiymətləndirmək də olardı" [8, s.65].

Dağlıq Qarabağ hadisələrinin, xüsusi olaraq Sumqayıt faciəsinin səbəbləri, mahiyyəti barədə akademik, Sovet İttifaqı Qəhrəmanı Z.Bünyadovun ittifaq qəzetlərinə göndərilmiş onlarla məktublarının çap edilməməsi bu mövqedən irəli gəlirdi. Fikrimizcə, Z.Bünyadovun "Niyə Sumqayıt?" adlı məqaləsində"vəziyyətin bu dərəcəyə gəlib çatmasında ittifaq rəhbərinin erməni millətçiliyini açıqca müdafiə etməsi, SSRİ DTK-nin faciənin hazırlanmasında birbaşa iştirakı və digər faktlara açıq, kəskin münasibət bildirməsi ciddi yanaşma demək idi" [7, s.25].

1989-cu ilin gedişi Azərbaycan SSR-də ictimai-siyasi vəziyyətin durmadan kəskinləşməsi, respublika rəhbərliyi və onun əhatəsinin vəziyyətin gedişinə azacıq təsvir göstərməkdə aciz durumu ilə müşayiət olunurdu. "1989-cu ilin yazında Moskvada SSRİ xalq deputatlarının ilk qurultayında baş verənlər, qeyd etdiyimiz vəziyyətin əksi idi" [8, s.49].

Burada demək olar ki, bütün ittifaqın, ilk növbədə M.Qorbaçovun qarşısında Ermənistan SSR-dən seçilmiş deputatlar, xüsusi ilə erməni haqsızlıqlarını qanuniləşdirmək üçün ciddi cəhdlə çalışan, SSRİ-nin dağılmasından sonra Rusiya Federasiyasının ilk prezidenti B.Yeltsinin milli məsələlər üzrə köməkçisi olmuş "Q.Staravoytova Azərbaycan rəhbərliyinin ünvanına iftira və böhtanlar səsləndirməkdə bir növ yarışa girmişdilər" [8, s.49].İş o yerə çatmışdı ki, bu üzdəniraq deputatlar vilayətdə və Ermənistan SSR-də baş verənlərdə birbaşa Azərbaycan xalqının günahlandıraraq onun ünvanına təhqirlər söyləməkdən belə çəkinməmişdilər.

Bu mənzərənin qurultayda iştirak edən deputatlarımızın, 1-2-ni çıxmaq şərtilə, erməni iftiralarını təkzib etməkdə belə tam acizlik göstərmələri ciddi siyasi məsuliyyətsizlik idi. Deputatlarımızın əksəriyyətinin rus dilində danışmağı bacarmaması, incəsənət sahəsində tanınmış, hətta təsərrüfat fəaliyyəti ilə məşğul olan, siyasətdən başı çıxmayan insanlar olması isə düşmən qarşısına silahsız çıxmaqdan da ağır idi.

Vəziyyətin belə hal alması, nəinki respublika əhalisini, həm də onun hüdudlarından kənarda yaşayan həmvətənlərimizi belə ciddi narahat edirdi. Həmin günlərdə insanların respublika rəhbərliyinə, ziyalılarımıza ünvanlanan məktublarında vəziyyətdən ciddi narahatçılıq və narazılıq ifadə olunurdu. Bu məktubların birində deyilirdi ki, "necə olmuşdur ki, SSRİ xalq deputatlarının qurultayına Azərbaycan SSR-dən bu cür zəif deputat korpusu seçilmişdir?" [8, s.49-50].

1989-cu ilin bütün gedişi boyu insanları ciddi şəkildə narahat edən, əsəbiləşdirən hallar sözsüz ki, xalq hərəkatının gedişində ən çox müzakirə edilən, fikir ayrllıqları yaradan problemlərin hakimiyyət strukturları tərəfindən həlli imkanları hələ də qaldığı halda hakimiyyət tamam başqa yolla getməyi qərara almışdı. Moskvanın Dağlıq Qarabağla bağlı qeyri-rəsmi planlarının məzmununu dəyişməyə məcbur edə biləcək ictimai və ya vətəndaş həmrəyliyinə nail olmaq üçün heç bir praktik addımlar atılmadı. Əksinə, ənənəvi metod və üsullardan istifadə edərək, xalq hərəkatının adi iştirakçıları, hərəkatda təmsil olunan cəmiyyət və təşkilatlar arasında nifaq salmaqla, onları cəmiyyətin birinci dərəcəli problemini diqqətdən yayındırmağa bir sıra cəhdlər göstərilmişdi.

**Nəticə.** Bu gün dünyada, yaxın və uzaq sərhədlərimizdə baş verən hadisələr dövlət müstəqilliyimiz üçün yeni təhdidlərin tam aradan qaldırılmadığını, qaldığını görməyə, duymağa sövq edir. 2020-ci ildə 44 günlük Vətən

müharibəsi ərazi bütövlüyümüzün bərpa edilməsinin necə böyük çətinliklərlə qazanıldığını bir daha göstərdi. Dövlət müstəqlliyinin bərpasına aparan son 5-6 illik gərgin siyasi mübarizə dövrü, ondan keçən 30 illik dövr bizi hər an sayıq olmağı, baş verəcək təhlükəli anları irəlicədən görüb, qarşısının alınmasını çox vacib vəzifə kimi müəyyən edir.

Eyni zamanda məhz araşdırdığımız proses və hadisələrdən müəyyən nəticələr çıxarılması da vacibdir. Apardığımız təhlillər göstərdi ki, dövlətçiliyimiz, müstəqilliyimiz o halda möhkəm ola bilər ki, bütün xalq milli maraqlarımızın aliliyi, dövlət müstəqilliyimizin toxunulmazlığı ideyası ətrafında vahid cəbhədə birləşsin.

Araşdırmalarımız bizə belə bir həqiqəti də anlatdı ki, Azərbaycan haqqında həqiqətlərin, ümumilikdə, Azərbaycanın dünyada tanınması, dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün bundan sonra da çox ciddiişlər görməliyik.

## Ədəbiyyat

1.Ağayev Nəsir. Meydan hərəkatı barədə. [Elekrton resurs] / URL: https://azrefs.org/elman-ceferli-tebriz-agayev.html?page=5 [müraciət tarixi: 31.01.2017]

2.Balayev Aydın., MirzəRasim. 20 Yanvarhadisələri. Sənədlər, mövqelər, şərhlər (1990-2000). Bakı: Çaşıoğlu, 2000. - 242 s.

3.Dövlət müstəqilliyinin bərpası və qorunub saxlanılması [Elekrton resurs] / URL:
http://republic.preslib.az/az_a3.html[müraciət tarixi: 16.08.2017]

4.Mehdiyev R.Ə. Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri. (Azərbaycan, rus və ingilis dillərində) / R.Ə.Mehdiyev. - Bakı: 2000. - 204 s.

5.Mirzəbəyli, İttifaq. Yeni tariximizin əlamətdar səhifələrindən biri - Dirçəliş Günü // Xalq. – 2018. - 18 noyabr. s.4.

6.Nəcəfov Etibar. Azərbaycan milli azadlıq hərəkatının xüsusiyyətləri // - Bakı: Azərbaycan bu gün və sabah,- 2007. - №5, - s.29-38.

7.Буниятов Зия. Почему Сумгаит? // İrs-наследие, - Баку: 2003. № 5, с. 24-27.

8. Помпеев Ю.А. Кровавый омут Карабаха / Ю.А.Помпеев. - Азербайджан, Баку: 1992. 208с.

# ŞUŞA ZƏFƏRİ

***Kərimov Zakir Hafis oğlu***
***Azərbaycan Dövlət Pedaqoji Universitet***
Zakir.Kerimov.1955@mail.ru

**Açar sözlər:***erməni terroru,işğalçı,zəfər,təslim,imzalamaq*

*Ötən əsrin sonlarinda beynəlxalq aləmdə yaranan dəyişikliklərdən istifadə edən erməni millətçiləri Qərbdəki havadarları və Rusiyanın hərbi-siyasi elitasının köməyı ilə "Böyük Ermənistan"ideyasını reallaşdırmaq üçün Şuşa şəhəri də daxıl olmaqla, Yuxarı Qarabağı və ətrafındakı yeddi rayonu işğal etdilər. Qaradağlı, Xocalı və digər yaşayış məntəqələrində soydaşlarımıza qarşı etnik təmizləmə apardılar,onları terrora və genosidə məruz qoydular. Şuşanın işğalını"Dağlarda toy" əməliyyatı adlandırdılar. 28 il ərzində nə böyük dövlətlər,nə də beynəlxalq təşkilatlar haqq-ədaləti bərpa etmədilər.27 sentyabr 2020-ci ildə başlayan 44 günlük Vətən müharibəsinin gedişində ordumuz Azərbaycan Respublikasının Prezidenti,Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə erməni işğalı altındakı yaşayış məntəqələrimizi,həmçinin 8 noyabr 2020-ci ildə Şuşa şəhərini azad etdi. Şuşanın işğaldan azad edilməsində hərbçilərimizin göstərdiyi müstəsna qəhrəmanlıq nəinki xalqımızın,həm də dünyanın hərb tarixinə qızıl hərflərlə yazıldı. Məhz Şuşa qalibiyyəti düşməni 2020-ci il 10noyabr tarixli üçtərəfli kapitulyasiya bəyanatını imzalamağa məcbur etdi.Məqalədə Şuşanın düşməndən azad olunması əməliyyatı işıqlandırılmışdır.*

## ПОБЕДА ШУШИ

***ЗакирКеримов***

**Ключевые слова:***армянский террор, оккупант, победа, капитуляция, подписать*

*Воспользовавшись изменениями на международной арене в конце прошлого века, армянские националисты с помощью западных покровителей и военно-политической элиты России оккупировали Верхний Карабах и семь прилегающих к нему регионов, включая Шушу, для реализации идеи «Великая Армения». Оккупацию Шуши называли «свадьбой в горах». Они проводили этнические чистки против азербайджанцев в Гарадаглы, Ходжалы и других оккупированных населенных пунктах, подвергая их террору и геноциду. За 28 лет ни*

*крупные державы, ни международные организации не восстановили справедливость. В ходе 44-дневной Отечественной войны, которая началась 27 сентября 2020 года, наша армия под руководством Президента, Верховного Главнокомандующего Ильхама Алиева 8 ноября 2020 года освободила наши населенные пункты, а также Шушу. Исключительный героизм наших военнослужащих в освобождении Шуши от оккупации золотыми буквами вписан не только в военную историю нашего народа, но и в мире. Именно победа Шуши вынудила противника подписать заявление о капитуляции от 10 ноября 2020 года. В статье рассказывается об операции по освобождению Шуши.*

## VICTORY OF SHUSHA

***Zakir Karimov***

**Keywords:***Armenian terror, occupier, victory, capitulation, sign*

*Taking advantage of the changes in theinternational arena at the end of the last century, Armenian nationalists, with the help of Western patrons and Russia's military-political elite, occupied Nagorno Karabakh and seven surrounding regions, including Shusha, to realize the idea of a "Greater Armenia". The occupation of Shusha was called "wedding in the mountains". They carried out ethnic cleansing against Azerbaijan is in Garadaghli, Khojaly and other occupied settlements, subjecting them to terror and genocide. For 28 years, neither major powers nor international organizations have restored justice. During the 44-day Patriotic War, which began on September 27, 2020, our army under the leadership of President, Supreme Commander-in-Chief Ilham Aliyev liberated our settlements, as well as Shusha on November 8, 2020. The exceptional heroism shown by our service men in the liberation of Shusha from occupation is written in golden letters not only in the military history of our people, but also in the world. It was the victory of Shusha that forced the enemy to sign the statement of capitulation dated November 10, 2020. The article covers the operation to liberate Susha.*

* * *

Azğınlaşmış düşmən işğal etdiyi torpaqlarımzlakifayətlənməyərək yeni torpaqlar işğal etmək üçün 27 sentyabr 2020-ci ildə Azərbaycan torpaqlarına soxuldu.Azərbaycan Respublikasının Prezidenti,Ali Baş Komandan İlham Əliyev Vətəni müdafiə etmək,torpaqlarımızı işğaldan azad etmək üçün həmin gün xalqa müraciət edərək bildirdi ki,"biz haqq yolundayıq.Bizim işimiz haqq işidir,biz zəfər calaçağıq.Qarabağ bizimdir.Qarabağ Azərbaycandır!".Bir sıra təcili hərbi-siyasi tədbirlər həyata keçirildi. "Hərbi vəziyyət elan elan edilməsi

haqqında", "Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında","Hərbi vəziyyət dövründə komendant saatının tətbiq edildiyi ərazilərin komendantının təyin edilməsi haqqında" sərəncamlar verildi[2].

Tarixi Azərbaycan şəhəri,Qafqazın incisi və mədəniyyət beşiyi Şuşanın işğalını ermənilər Xocalı qətliamından dərhal sonra qarşıya qoyurlar.Hücum əməliyyatınaməsul olan qondarma Dağlıq QarabagRespublikası"nın müdafiə qüvvələrinin komandanı, "komandos" ləqəbli ArkadiyTer-Tadevosyan və onun müavini SamvelBabayan Şuşanın ələ keçirilməsinə dair əməliyyat planı işləyib hazırlayırlar.Plan Ermənistanın müdafiə naziri VazgenSərkisyana təqdim edilir.Oisə planın yerinə yetirilməsinin son dərəcə qeyri-real,mümkünsüz olduğunu bildirir,Şuşanın tutulması halında mütləq evlənəcəyini söyləyir. Beləliklə, əli dinc azərbaycanlıların qanına batmış ermənilər şəhərin işğalı ilə bağlı mərc gəlirlər.Şuşa tutulsa,33 yaşlı müdafiə naziri evlənəcək,toy isə Şuşa dağlarında çalınacaq.Şuşanın işğalı ilə nəticələnmiş əməliyyatın adı-"Dağlarda toy" belə yaranır.

...1992-ci il mayın 8-də Şuşa tutulsada [1,329]V.Sərkisyan verdiyi sözü tutmur.O,baş nazir olarkən-27 oktyabr 1999-cü ildə, 40 yaşında Ermənistan parlamentində terror aktı nəticəsində qətləyetirilərkən subay idi. Beləcə şəhər-qala olan Şuşanın işğalından 28 il ötdü...Ermənilər nə vaxtsa bunun bədəliniödəyəcəkləriniağlına belə gətirmirdilər.Amma ermənilərin dağlardakı toyunun yasa çevrilməsi zamanı gəldi.

44 günlük Vətən müharibəsinin gedişində şanlı ordumuzun sarsıdıcı zərbələri altında düşmən ordusu qorxu və səksəkə içində öz silahını və döyüş bayrağını atıb qaçmağa başladı[3].Prezident İlham Əliyev"Əl-Ərəbiyyə" televiziya kanalına müsahibəsində qətiyyətlə bildirdi ki,"biz işğal olunmuş bütün ərazilərdə Azərbaycan bayrağını qaldıracağıq"[4].

Azərbaycan hərbi qüvvələri düşmənə ağır zərbələr vuraraq kəndləri, qəsəbələri,Cəbrayıl (04.10.2020),Füzuli (17.10.2020), Zəngilan (20.10.2020), Qubadlı (25.10.2020) şəhərlərini işğaldan azad etdi.Ordumuzun növbəti hədəfi Şuşa şəhəri idi.Şəhər Kiçik Qafqaz dağları silsiləsində dəniz səviyyəsindən 1420 metr yüksəklikdə yerləşən təbii qaladır.Üstəlik Ermənistan komandanlığı şəhərin müdafiəsinə xeyli canlı qüvvə və hərbi texnika cəlb etmişdi.Təcrübəli hərbi ekspertlər hərbi qüvvələrimizin şəhəri bir neçə aya,bəlkə də bir ilə ələ keçirəcəklərini proqnozlaşdırırdılar.Azərbaycan ordusu bu ehtimalları alt-üst etdi,şəhəri bir neçə günə azad etdi.

Ermənilər Şuşanın Azərbaycan xalqı üçün böyük tarixi,mənəvi-siyasi, mədəni və hərbi dəyərə malik olduğunu bilirdilər.Bu "çağrılmamış qonaqlar" evimizdə oturub bizi təhqir edir,aşağılayıcı hərəkətlər göstərirdilər. Televiziya və internet saytlarında Şuşaya başqa yerdən köçürülən ermənilərin mənzillərini nümayışetdirirdilər.2020-ci il aprelin 15-də oyuncaq "Dağlıq Qarabağ Respublikası" prezidenti seçkilərinin ikinci turunda "qalib" gəlmiş AraikArutyunyan

üçün mayın 21-də təntənəli andiçmə mərasimi düzəltdilər.Tədbirdə Ermənistanın baş naziri NikolPaşinyan da daxil olmaqla, bu ölkənın ali rütbəli şəxsləri da iştirak etdilər.Şuşa şəhərində,Azərbaycan musiqisinin sədası altında yeyib -içdilər,sərxoş oldular,çalıb-oynadılar, yallıgetdilər.Bunları da geniş şəkildə yaydılar. O qədər həyasızlaşdılr ki,oyuncaq “Dağlıq Qarabağ Respublikası”nın parlamentini də Şuşaya köçürməyi qərara alaraq,şəhərdə bunun üçün binada seçdilər. Artıq Azərbaycan xalqının səbr limiti bitmişdi. Ermənistan 1988-ci ildən bəri törətdiyi terrora,genosidə,sümürgəçiliyə görə cavab verməli idi.

Cəbrayıl şəhərindən irəliləyən Azərbaycanın hərbi qüvvələri oktyabrın ortalarında Hadrut qəsəbəsini ələ keçirərək şimala doğru irəlılədi, meşələri və dağ keçidlərini aşıb,Şuşa rayonu ərazisinə daxil oldu.Şuşa müharibənin başlanğıcından bəzən bombardman edilməsinə baxmayaraqyalnız 2020-ci il oktyabrın 29-dan şəhər yaxınlığında lokal döyüşlər başlandı.Ordumuz Çanaqçı kəndini ışğaldan azad etdi,ardından da Şuşa-Laçın yolunun bir hissəsinə nəzarəti ələ keçirdi ki,erməni qüvvələri sonradan- 4 noyabrda yolu mülki vətəndaşların üzünə bağladı.

Azərbaycan ordu hissələrinin Şuşanın işğaldan azad edilməsi əməliyyatına general Hikmət Mirzəyev,polkovnik Zaur Məmmədov, polkovnik Tehran Mənsimov kimi cəsur zabitlərimiz başçılıq edirdi. Şuşada vuruşan işğalçı Ermənistan ordusuna MDB-nin keçmiş 366 polkunun rəislərindən olan, Xocalı cəlladı,Şuşanın işğalının fəallarından general-polkovnik Seyran Ohanyan və ArgiştiKərəmyan başçılıq edirdi.S.Ohanyan Şuşanın “müdafiəsinə”başçılıq etmədiyini,şəxsı təşəbbüsü ilə döyüşdə iştirak etdiyini bildirmişdi.O, 2020-ci il noyabrın 5-də Azərbaycan ordusunun Şuşanı üç tərəfdən mühasirəyə aldığı üçün noyabrın 7-də şəhəri tərk etdiyini demişdi.Əslində isə əsir düşməmək üçün qaçmış, canlı qüvvə və hərbi-texniki üstünlüyə malik olan Azərbaycan ordusunun şəhərə yiyələndiyiniqeyd etmişdi.

Erməni seperatçılarının bunu inkar etməsinə baxmayaraq, “LeMonde” qəzeti (Fransa),6 noyabrda döyüşün Azərbaycanın lehinə keçdiyini xəbər verdi.Qəzet bildirdi ki, Şuşadan Stepanakert(Xankəndi) hospitalına gətirilən erməni hərbçilərin ölü və yaralılarınıncoxu tapança və süngü-bıçaq yarası almışdır.

Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri 7 noyabrda şəhərin qayalıqlarına dırmaşaraq yüngül silah-sursatla (avtomat,süngü-bıçaq,qumbara və s.) Şuşaya daxil oldu. Onlar tezliklə erməni hərbi qüvvələrini şəhərdən qovdu və döyüşçü Səbuhi Abdullayev Şuşaya Azərbaycan bayrağını sancdı.Əslən Lerik rayonundan olan XTQ-nin zabiti Rəhimov Zaur Şirinbəy oğlu Şuşadan Respublika Prezidentinə şəhərin işğaldan azad edilməsi haqqında məruzə etdi:Yaşasın Cənab Ali Baş Komandan! Eşq olsun Azərbaycan xalqına!Qarabağ Azərbaycandır!

8 noyabrda Azərbaycan Respublikasının Prezidenti Azərbaycan ordu hissələrinin Şuşanı işğaldan azad etdiyini bəyan etdi. Belə ki,2020-ci il noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti,Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva əvvəlcə Fəxri Xiyabanda oldular.Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin abidəsi önünə əklil qoydu.Azərbaycanın Dövlət Himni səsləndirildi.Prezident və xanımı görkəmli oftalmoloq-alim,akademik Zərifə Əliyevanın,görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin xatirələrini yad edib,məzarların üstünə gül dəstələri qoydular.Sonra Prezident və birinci xanım Şəhidlər xiyabanını ziyarətetdilər. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad etdilər. Prezident İlham Əliyev"Əbədi məşəl"abidəsi önünə əklil qoydu.Azərbaycanın Dövlət Himni səsləndirildi.Sonra Prezident və Ali Baş Komandan xalqa müraciət etdi:

"...Mən bu gün,eyni zamanda,Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim,onun ruhu qarşısında baş əydim.Ürəyimdə dedim,xöşbəxt adamam ki,ata vəsiyyətini yerinə yetirdim.Şuşanı azad etdik!Bu,böyük qələbədir! Gözün aydın olsun Azərbaycan!Gözünüz aydın Dünya azərbaycanlıları! Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbətgünlərimdən biridir.

Əziz Şuşa, sən azadsan!

Əziz Şuşa,biz qayıtmışıq!

Əziz Şuşa,biz səni dirçəldəçəyik!

Şuşa bizimdir!Qarabağ bizimdir!Qarabağ Azərbaycandır!

Lakin Ermənistan rəhbərliyi öz xalqını aldadaraq Şuşanın Azərbaycan qüvvələrinin ixtiyarına keçməsi faktını inkar edirdi.Ertəsi gün Azərbaycan Respublikası Müdafiə Nazirliyi Şuşadan videogörüntü yayımladı və Şuşanın tamamilə Azərbaycanın nəzarətində olduğunu təsdiqlədi.Elə həmin gün qondarma Dağlıq Qarabağ Respulikasının Prezident aparatı separatçı qüvvələrin Şuşaya nəzarəti itirdiyini etiraf etdi.

"Azərbaycan ordusu möhtəşəm əməliyyat keçirərək Şuşanı faktiki əlbəyaxa döyüşdə götürdü", -bunu "Dojd" kanalına müsahibəsində Gürcüstanın kecmiş Prezidenti MıxailSaakaşvili söylədi.Xarici, hətta erməni mətbuatı etiraf etdi ki,azərbaycanlı döyüşçülər yaralananda belə dayanmır,yaralarını bağlayir,ağrıkəsici iynə vurub, yaralı yoldaşlarını da götürərək qalaya dırmanır,hücum edirdilər.

İsrail hərbi ekspertləri bildirirlər ki,Şuşanı azad etməklə Azərbaycan ordusu dünya hərb elmində yenilik etmişdir.Yüksəklik onun ətəklərindən başlanan hücumla tutulmuşdur.

Şuşada gedən döyüşlər haqqında erməni tərəfi saysız-hesabsız yalanlar uydurur,sonra özləri

də inkar edirdilər.Məsələn,erməni Kütləvi İnformasiya Vasitələri(KİV) şəhərin Azərbaycan ordusu tərəfindən fasiləsiz bombalandığını,raketlərlə vurulduğu xəbərini yayırdılar.Lakin şəhərdə dağıntıların çox cüzi olması bunun ağ yalan olduğunu göstərdi. Görünüryalan danışmaq ermənilərin xislətinə xasdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev şəhərdəki yalnız düşmən hərbi obyektlərini vurmağı əmretdiyini etiraf etmişdir.Bu da şəhəri tamamilə dağılmaqdan hifzetmişdir.Ordumuzdan ən böyük "hədiyyəni" baş separatçı AraikArutyunyan aldı.Onun and içdiyi bina hava zərbəsi ilə yerlə yeksan edildi.

Ermənistan hərbi-siyasi rəhbərliyi Şuşanın əldən getdiyini görüb Azərbaycan hərbçilərini məhv etmək üçün bu şəhərə Rusiyanın onlara havayı "hədiyyə etdiyi", dəhşətli dağıdıcı gücə malik "İskəndər" raketi atdılar.Bunu Ermənistan hərbi rəisliyi də təsdiq etdi.Hansı ki,bu silahı Rusiya Respublikamıza pulla satmaqdan imtina etmişdi. Ermənistan Müdafiə Nazirliyinin Hərbi Nəzarət idarəsinin başçısı MovsesAkopyan demişdiki, IIQarabağ savaşında"İskəndər"raketindən istifadə edilmişdir,ancaq hansı istiqamətdə deyə bılmərəm."Adekvat" ictimai-siyasi təşkilatının başcısı Artur Danielyan bildirib ki,2020-ci ilin noyabrın 7-də saat 9-da Ermənistan hərbçiləri "İskəndər" raketini Şuşadakı Azərbaycan hərbi qüvvələrini məhv etmək üçün atmişlar.Lakin raket şəhər ətrafındakı erməni hərbçilələrinin üzərinə düşərək onları məhv etmişdir.Qeyd etmək lazımdır ki,bu tip raketi Rusiya yalnız Ermənistana vermişdir.

Prezident İ.Əliyev2010-cu il noyabrın 1-də Bakıda Dövlət Bayrağı Meydanının açılışında demişdir kı,gün gələcək Azərbaycan bayrağı işğal edilmiş torpaqlarda,o cümlədən Şuşada qaldırılacaq.2021-ci il yanvarın 14-də Prezident,Müzəffər Ali Baş Komandan Şuşada üçrəngli bayrağımızı qaldırdı.

Rusiyalı ekspert İ.Korotçenkonun fikrincə,Prezident İ.Əliyevin Şuşa səfəri çox önəmlidir və simvolik xarakter daşıyır:o,Şuşaya yalnız Prezident kimi deyil,həm də Ali Baş Komandan kimi səfər edib.Çünki Şuşanın alınması 44 günlük savaşın həlledici mərhələsidir.Məhz bundan sonra Ermənistan rəhbərliyi müqavimət göstərməyi əhəmiyyətsiz saydı və üçtərəfli kapitulyasiya bəyanatını imzalamaq məcburiyyətində qaldı.Rusiyalı hərbi ekspertə görə Şuşanın işğaldan azad edilməsi əməliyyatı Azərbaycanın hərbi strategiyasının triumfu,önəmli uğurudur. Azərbaycanın Xüsusi Təyinatlıları bu şəhəri gecə çətin dağ-meşə ərazisini keçərək,küçə döyüşlərində özlərindən sayca üstün olan erməni qüvvələrini darmadağın etməklə alıb.Bu amansız döyüşdə ermənilər mövqeləri buraxıb,qaçmağa məcbur edilib.Müasir standartlara görə böyük önəmdaşıyan bu hərbi əməliyyat onun detallarını araşdırmağa borclu olan tarixçıləri gözləyir[11].

İşğaldan azad olunan Ağdam şəhərində olarkən Prezident İlham Əliyev Şuşa əməliyyatına toxunaraq demişdir: "Biz ordumuzun döyüş potensialını gücləndirdik.Çünki tam aydın idi ki,təkcə sılahlarla qələbə qazanmaq mümkün

deyil.Bayrağı qaldıran,bayrağı düşmənin mövqeyinə sancan,azad edılmiş torpaqlara sancan əsgərdir,zabitdir.Bizim əsgər və zabitlər aslan kimi vuruşdular...Biz qəhrəman əcgər və zabitlərimiz hesabına qələbə qazanmışıq.

Təkcə Şuşanın işğaldan azad edilməsi əməliyyatıəminəm ki,tarixdə əbədi qalacaq.Demək olar ki,yüngül silahlarla dərədən,meşələrdən,dağlardan keçərək əlbəyaxa döyüşdə düşməni məhv etdik, Qarabağın tacı olan Şuşanı azad etdik".

Belə faktlardan biri: sosial şəbəkələrdə qaziAlik Məmmədov Şuşanın necə alınması ilə bağlı paylaşımında bildirir: "Şuşaya kanatla qalxdıq,yarım metr qarda 14 saat kəşfiyyatdan sonra,400 nəfər o dağı dırmaşmalı idi.Bıçaq,tapança, "limonka" ilə döyüşə gedirdik...Azərbaycan əcgərini nə gözlədiyini hər biri bilirdi. 500 erməni dığasının biz daxil olan tərəfdə olduğu məlumatını əldə eləmişdik. Ən az sayda onlar bu tərəfdə yerləşmişdilər,başqa mövqelərində ağır artilleriya və canlı qüvvə sayı buradakından azı üç dəfə çox idi,çünki onlar bizim oradan,yollardan hücum edəcəyimizi güman etmirdilər.Heç bir insanın ağlına gəlməyəcəyi sıldırımlara dırmaşıb,döyüşə artilleriyasızgirəçəyinidüşünmürdülər.Nəinki onların,heç kəsin ağıina gəlməzdi ki,biz bıçaqla Şuşanı almağı düşünürük. Generalımızın – Hikmət Mirzəyevin düzgün döyüş tapşırığı,düzgün koordinatları olmasaydı məhv ola bilərdik.

Amma hərşey zərgər dəqiqliyi ilə ölçülüb-biçilmişdi.Biz qayalara dırmaşıb döyüşə girdik. Dəqiq deyə bilmərəm,təxminən 40-a yaxın erməniyə bıcaq salıb-çıxartmışam həmin hücum anı.Onların arasında düşən panika belə general tərəfindən hesablanmışdı,panika yaranan kimi tapşırıq əsasında hərəmiz dəstə-dəstə əks istiqamətlərdə dağılışdıq.Ermənilər artıq həyəcan və qorxudan özlərinə atəş açırdı.Onlar hətta öz əsgərləinə belə inanmırdılar,yaxınlaşan erməni ermənini vururdu,çünki onların formasında biz ola bilərdik.

Şuşa döyüşü bizim əzəmətimizi,gücümüzü,əsgərimizin qorxmazlığını onlara göstərdi.Onlar Şuşanı bir il dayanmadan müdafiə edə bıləçək sayda silah-sursat və canlı qüvvə ilə təmin eləmişdi.Şuşa şəhidlərimizin qanı bahasına,kişiliyı,qorxmazlığı bahasına bir neçə saatda alındı"(10).

Deməli,Şuşaya ilk daxil olan xüsusi təyinatlılara döyüşdə digər hərbi hissələr, o cümlədən raket və artilleriya hissələri də kömək etmişdi.Çətin ərazidən və düşmənin gözləmədiyi istiqamətdənmühəndis qoşunları tərəfindən çəkilən dar,təhlükəli vəkeçilməsi böyük peşəkarlıq tələb edən dağ-meşə yolundan müvəffəqiyyətlə keçən özüyeriyən və reaktiv qurğular fasiləsiz,dəqiq və sərrast atəşlə hücum edən bölmələrimizə dəstək vermişdir.Azərbaycan Ordusunun Raket və Artilleriya qoşunlarının komandanı,general-mayor Ağamir Sultanov söyləmişdir ki,əməliyyat taktiki raket və reaktiv artilleriya divizionları kimi uzaq mənzilli raket sistemlərinin dəqiqatışları ilə düşmənin əməliyyat planlarını pozdu və onlar məğlubiyyətə düçar oldu[7].

Ermənilər Şuşanın itirilməsi ilə barışa bilmirdilər.Ermənistan 49-cu tank,8-ci motoatıcı briqadanı,6 və 7-ci alaylardan ehtiyatları çəlb etməklə

Xankəndi istiqamətindən əks-həmlə etməyə cəhd etdilər.Lakin raket artilleriya qoşun bölmələri Xankəndindən Şuşa istiqamətində yerləşən “Zapravka”deyilən ərazidə düşmənin əsas hissəsini darmadağın etdi.Bununla da düşmənin əks-həmlə əzmi qırıldı,boşa çıxdı[8].

Azərbaycan mənbələrinə görə ermənilər Şuşa döyüşlərində 400-800 nəfər canlı qüvvə itirmişdir.Rusiya mənbələrinə görə hər iki tərəfdən iki min nəfər hərbçi öldürülmüşdür.Erməni mənbələrinə görə şəhərdən 4500 nəfər erməni əhalisi qaçmışdır.

Şuşanın alınması o qədər önəmli idi ki,Respublika Prezidenti İlham Əliyevin fərmanı ilə 26 noyabr 2020-ci ildə“Şuşanın azad olunmasına görə medal” təsis olundu.Prezidentin sərəncamı ilə 2020-ci il dekabrın 9-dan 30-dək 4646 nəfər döyşçümüz,o cümlədən 29 dekabr 2020-ci il tarixli sərəncamı ilə generallar Hikmət Mirzəyev,Mayis Bərxudarov,Zaur Məmmədov,Kənan Seyidov,Ağamir Sultanov bu şərəfli medalla təltif olundular[16].

Respublika Prezidenti İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli “Azərbaycan Respublikasında Zəfər Günün təsis edilməsi haqqında” sərancamına əsasən Şuşanın azad olunduğu gün-8 noyabrölkəmizdə Zəfər Günü kimi qeyd olunacaqdır.Şuşanın işğaldan azad olunması ölkəmizdə ümumxalq sevincinə səbəb oldu.

2020-ci ilin dekabrın 28-də Şuşada Cıdır düzündə şəhərin sahibi olan azərbaycanlılar 28 illik ayrılıqdan sonra ilk konsert verdilər.Azərbaycan əsgərləri yallı getdilər.Hansı ki,bir qədər əvvəl burada Ermənıstanın baş naziri NikolPaşinyan sərxoş halda əlində şərab şüşəsi ermənilərlə birlikdəyallı getmiş və bunu nümayişkaranə şəkildə televiziya və sosial şəbəkələrə buraxmışdı.

İndi düşmən qüvvələr Azərbaycan ordusunun Şuşanın azad olunması uğrunda möhtəşəm qələbəsini kiçiltmək,əhəmiyyətini azaltmaq istəyirlər. Respublika Prezidenti İlham Əliyev bu barədədemişdir:”Baxın,görün erməni nümayəndələri və onların xaricdəki havadarları Şuşanın azad olunması ilə bağlı nələr deyirlər?Guya Şuşa bizə elə-belə verilib,döyüşlər getməyib, ermənilər Şuşanı tərk ediblər.Ağ yalandır! Bunu Prezident İlham Əliyev Aydın Kərimovu Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən deyib.Dövlətbaşçısı qeyd etdi ki,Şuşa əməliyyatı Azərbaycan xalqının qəlbində əbədi yaşayacaq.Şuşa uğrunda gedən döyüşlərdə şəhid olmuş qəhrəman övladlarımızın əziz xatirəsi qəlbimizdə əbədi yaşayacaq. Şuşanı azad edərkən Azərbaycan əsgər və zabitləri qəhrəmanlıq, peşəkarlıq, fiziki güc,yüksək milli ruh göstərib.O,Daşaltı və digər istiqamətlərdən sıldırım qayalardan qalxaraq,işğalçıları məhv edərək,Şuşanı azad edib,demək olar ki,əliyalın,əlində süngü,bıçaq,yüngül silah topa,tanka qarşı vuruşub.Şuşa əməliyyatında yüzlərlə işğalçı məhv edilib,onların sayını bizbilirik[13].

Şuşa uğrunda döyüşlərdə fədakarlıq göstərmiş bəzi Vətən oğulları haqqında qısaca məlumat :

Şuşa uğrunda döyüşdə müstəsna qəhrəmanlıq göstərmiş döyüşçülərdən biri Mehdi Yalçın oğluŞıxəliyevdir(1996-2020).O, Hacıqabul rayonunda anadan olub,Xüsusi Təyinatlı Qüvvələrin hərbçisi idi.

2016-cı Aprel döyüşlərinin iştirakçısı olan,İkinci Qarabağ savaşında ön cəbhədə döyüşən Mehdi düşmənin tankını,zirehli maşınını,70-dən canlı qüvvəsini məhv edib.O,Şuşaya qədər döyüşə-döyüşə gəlib.Şuşada əlbəyaxa döyüş zamanı bir neçə erməni hərbçısınİməhv edərəknoyabrın 9-da qəhrəmancasına həlak olub [6].

Baş gizir Mehrab Niftəliyev Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin 052 "Yaşma" hərbihissəsində xidmət edirdi.Döyüşlərdəki cəsurluğuna görə dostları ona"Termınator" ləqəbi vermişdi.O,döyüşlərdə 100-ə yaxın düşmən əsgərini məhv edib.Ən böyük arzusu Şuşaya bayraq sancmaq idi.Bu məqsədlə əvvəlcədən üçrəngli milli bayrağımızı da almışdı. O,noyabrın 8-də Şuşa uğrunda döyüşlərdə həlak oldu. Vətənə üç övladı yadigar qaldı[9].

Babək rayonunun Cəhri kəndində doğulmuş Xansu Qurbanovun uşaqlıqdan arzusu adının Milli Qəhrəman Mübariz İbrahimovla yanaşı çəkilməsi olmuşdur.Atasız böyüyən, iki bacının bir qardaşı olan Xansu boya-başa çatdıqdan sonra hərbi xidmətə getmiş,tərxisolunduqdan sonra,Naxçıvan Xüsusi Təyinatlı Qüvvələrində çavuş rütbəsində xidmətə daxil olmuşdur.Vətən nüharibəsinin ilk günlərindən Qarabağda döyüşlərdə iştirak etmiş,Şuşaya ilk daxil olan döyüşçülərdən biri olmuşdu. Döyüş dostları ona cəsurluğuna görə "Ölümsüz"ləqəbi vermişdi.O, qələbəyə iki saat qalmış həlak oldu.Qəhrəman döyüşçü ölümüdən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalı ilə təltif olundu[6].

Döyüş maşınının komandiri Rəşad Məmmədov 6 noyabr 2020-ci ildə Şuşa uğrunda döyüşdə maşının bütün heyəti ilə birlikdə həlak oldu. O,ölümündən sonra "Vətən uğrunda medalı" ilətəltif olundu.

Şuşa uğrunda savaşda azərbaycanlı döyüşçülər kütləvi şəkildə qəhrəmanlıq göstərirdilər. Şuşanın itirilməsini işğalçı ermənilər özləri üçün böyük zərbə sayırlar.Politoloq Vova Vardanov söyləyir ki, hərbi baxımdan və Dağlıq Qarabağ əhalisinin gələcək həyatda qalma perspektivləri üçün Şuşanı deyil,Stepanakerti(Xankəndi)təslim etmək daha doğru olardı.Laçın,Kəlbəcər, Mardakert(Ağdərə) və Şuşa bölgəsinin bir hissəsini,bu dağ ərazilərini özündə saxlayıb, düzənliklərdənuzaqlaşmaq və dağlara getmək lazım idi.Bu halda Qarabağın arxasında Ermənistan dayanaçaqdı.Belə olan halda Qarabağda insanpərvərlikdən deyil,şəxsi maraqlar üzündə burda olan müttəfiqimiz Rusiyadan Ermənistan daha az asılı olardı[11].

Nəhayət,sübuta ehtiyacı olmayan bir faktı Ermənistanın baş naziri Nikol Paşinyan özü də etirafetdi.2021-ci il yanvarın 21-də Ermənistan parlamentində hökumət saatında çıxış edərkən deputatlara müraciətlə demişdir:"Yəni demək istəyirsiniz ki,90 faiz azərbaycanlı əhaliyə malikŞuşa şəhəri erməni şəhəridir"?

[5].

Xalqımızın birliyi,mübarizliyi,ordumuzun gücü sizi hələ çox şeylərin: ərazi,mənəvi-maddi dəyərlərin Azərbaycana,onun xalqına məxsus olduğunu etiraf etməyə məcbur edəcək.

2021-ci il fevralın 26-da Xocalı soyqırımının 29-cu ildönümü günü, ölkə və əcnəbi mediya nümayəndələri ilə keçirilən görüşdəRespublika Prezidenti İlham Əliyev bildirdi ki, Şuşa başqa bir dastandır.Gələcəkdə məxfilik götürüləndən sonra bu möhtəşəm zəfər əməliyyatı haqqında hər şeyi biləcəksiniz[17].

## Ədəbiyyat

1. Azərbaycan tarixi.Yeddicılddə, VII cild. Bakı,Elm,2003
2. “Azərbaycan” qəzeti,№198(8514),29 sentyabr 2020-ci il-Prezident İlham Əliyevin xalqa müraciəti.
3. “Azərbaycan” qəzeti 198(8514), 29 sentyabr 2020-cı il- Hərbi vəziyyət elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Fərmanı,27 sentyabr 2020 il.
4. “Azərbaycan” qəzeti 198(8514), 29 sentyabr 2020-cı il -Azərbaycan Respublikasında qismənsəfərbərlik elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı.28 sentyabr 2020-ci il.
5. “Azərbaycan” qəzeti 198(8514), 29 sentyabr 2020-cı il-Hərbi vəziyyət dövründə komendantsaatının tətbiq edildiyi ərazilərin komendantının təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı,28 sentyabr 2020-ci il .
6. “Azərbaycan”qəzeti,№204(8520), 6 oktyabr 2020-ci il-“Biz işğal olunmuş bütün ərazilərdə Azərbaycan bayrağını qaldıracağıq”-Prezident İ.Əliyev “Əl-Ərəbiyyə” televiziya kanalına müsahibə,4 oktyabr 2020 –ci il.
7. “Azərbaycan”qəzeti,205 (85217), 7 oktyabr2020-ci il –Rəşad Baxşəliyev.Düşmən ordusu qorxu və səksəkə içində qaçır.
8. https//az.wikipedia.orq>viki .Ermənistan_parlamentinə_silahlı_hücum
9. https//fr-fr.facebook/kriminal press/videos/bu-da-son-şuşada-prezident-araik-arutyunyanin-andiçmə-mərasimi-keçirilib-millət/619437265326139;https//bbc.com/azeri/reqion-52760511 paşınyanaraikin andiçmə mərasimində
10. https+Nikol+pşinyanın+Şuşada Rəqsi&ags=chore…69i57164538joj7&sourceid=chore

11. https://beu.edu.az/az/article/şuşa şeheri/susa-seheri-işğaldan –azad--540 edildi. Şuşa şəhəri işğaldan azad edildi!
12. https//prezident.az/artikles/45756 Şuşanın işğaldan azad edilməs ilə bağlı prezidentin çıxışı
13. https:/report.az/qarabag/prezident-ilham-eliyeb-susada-azerbaycan-bayragi-galdirib;
14. https: /president.az/artikles45756
15. Şuşa qazisiAlikMəmmədov.https:/www.fasebook.com/permalinkphp?id=411 957319159
16. https:/apa.az/az dagliq_qarabag/İqorKorotcenko-Dagliq-Qarabag-Azrbaycan-razisidir.Bu-mslbirdfilik-v-hmislik-baqlanib-collorredMUSAHİB COLOR-617195
17. https://yensabah.az/susaninisqaldan-azad edilməsi-xeberini-prezidente-meruze-eden-zabiti https:www adalet. az/mobil/204625https://vikipediaaz.orq/iki .Şuşanın azad olunmasına görə medalının təsisi
18. https://presidentaz/artikles/48455 Azərbaycan Respublikasında Zəfər Gününün elan edilməsi haqqında Azərbaycan Respublikası Preziden-tinin sərancamı
19. https: / modern.az /az/ news271516 onlar –susanın- azad olunmasınagöre -medali- ile-teltif- edildi
20. https://president.az/articles/50738 26 fevral 2021-ci il .Azərbaycan Respublikası Prezidenti İ.Əliyevin yerli və xarici media nümayəndələri ilə mətbuat konfransı
21. https://www/youtabe/com/watch? =bcAT S c iDODs 2020-cı il 26dekabr Şuşada ilk konsert
22. https://president.az/articlec/47685
23. https://az.wikipedia.org/wiki müvəqqəti xüsusi idarəetmə_ (Qarabağ)

# 1920-Cİ İLLƏRDƏ AZƏRBAYCAN SSR-DƏ BAŞ VERMİŞ ÜSYANLARIN TƏŞKİLATİ ƏSASLARI

***Ənvər Fəttah oğlu Məmmədov***
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
mammadovanvar1969@mail.ru

**Açar sözlər:** *Azərbaycan SSR, antisovet təşkilatlar, siyasi mühacirət, üsyan, Xüsusi şöbə, Musavat partiyası*

*Məqalədə bolşevik cəza aparatının mütəmadi zərbələri altında mücadilə aparmış gizli siyasi təşkilatların 1920-ci illərdə Azərbaycan SSR-də getmiş müqavimət hərəkatında iştirakı problemi araşdırılmışdır. Onlardan "Musavat", "İttihadi-İslam", "Xalqçı", musavatçı gənclər təşkilatı "Gənc Azər", "Azərbaycan milli-müdafiəyi islam partiyası", "Əzrayıl firqəsi", Azərbaycanın şimal-qərb bölgəsində fəaliyyət göstərmiş "Xalq Azadələri Firqəsi", "Əlicanbəyovlar təşkilatı", "möhkəm əl" mənasını verən "Ürvətül-vüska" kimi təşkilatların Azərbaycanda antisovet üsyanların hazırlanmasındakı rolu məsələsi geniş şəkildə tədqiq olunub.*

*İlkin mənbələrə görə Türkiyə, Fransa və Polşada məskunlaşmış siyasi mühacirət nümayəndələrimizin Azərbaycanda antisovet qiyamların hazırlanmasında xüsusi rolu olduğu qənaətinə gəlinir. Məqalədə bu ölkələrdə Azərbaycan siyasi mühacirətinin fəal iştirakı ilə yaradılan müxtəlif təşkilatların fəaliyyəti də araşdırılır.*

## ОРГАНИЗАЦИОННЫЕ ОСНОВЫ АНТИСОВЕТСКИХ ВЫСТУПЛЕНИЙ ПРОИСХОДИВШЫХ В АЗЕРБАЙДЖАНСКОЙ ССР В 1920-е гг.

***А.Ф.Мамедов***

**Ключевые слова:** *Азербайджанская ССР, антисоветские организации, политическая эмиграция, восстание, Особый отдел, партия Мусават*

*В статье исследуется проблема участия подпольных политических организаций в движении сопротивления в Азербайджанской ССР 1920-х гг. Эти организации действовали в условиях непрекращающихся репрессий большевистского карательного аппарата. В статье рассматривается роль таких организаций, как «Мусават»,*

*«Иттихади-ислам», «Халкчи», молодежная организация «Мусават» «Гяндж Азер», «Исламская партия национальной обороны Азербайджана», «Фракция Азраил», действующая в северо-западном регионе Азербайджана «Партия народного освобождения», организация Алиджанбекова, «Урватул-Вуска», что означает «сильная рука», в подготовке антисоветских восстаний в Азербайджане.*

*По данным первоисточников, был сделан вывод, что представители нашей политической эмиграции, обосновавшиеся в Турции, Франции, а также Польше, сыграли особую роль в подготовке антисоветских восстаний в Азербайджане. В статье также рассматривается деятельность различных организаций, созданных в этих странах при активном участии азербайджанской политической эмиграции.*

## ORGANIZATIONAL BASIS OF THE ANTI-SOVIET PERFORMANCES IN THE AZERBAIJAN SSR IN THE 1920s

***A.F.Mammadov***

**Key words:** *Azerbaijan SSR, anti-Soviet organizations, political emigration, uprising, Special department, Musavat party*

*The article examines the problem of the participation of secret political organizations in the resistance movement in Azerbaijan SSR of 1920s, which fought under the constant blows of the Bolshevik punitive apparatus. The role of such organizations as Party's "Musavat", "Ittihadi-Islam", "Khalgchi", the youth organization "Musavat" "Ganj Azer", "Islamic National Defense Party of Azerbaijan", "Party of Azrael", operating in the northwest region of Azerbaijan "People's Liberation Party", "Alijanbekov's organization", "Urvatul-Vuska", which means "strong hand", in the preparation of anti-Soviet uprisings in Azerbaijan is also has been considered.*

*According to primary sources, it was concluded that representatives of our political emigration, who settled in Turkey, France, and Poland, had a special role in the preparation of anti-Soviet uprisings in Azerbaijan. The article also examines the activities of various organizations established in these countries with the active participation of the Azerbaijani political emigration.*

XX əsrin iyirminci illərində Azərbaycan SSR-də istər istiqlal məfkurəsi uğrunda mübarizə, istər təşəkkül tapmaqda olan totalitarizmə müqavimət, istərsə də yeni quruluşun bölgələrdə eybəcərliklərinin doğurduğu çıxışlar gah güclənsə, gah səngisə də, ara verməmişdi. Belə bir vəziyyətdəxaricdə

məskunlaşmaq məcburiyyətində qalmış Azərbaycan siyasi mühacirətinin müxtəlif siyasi təşkilatları meydana gəlmişdi.Respublika ərzisindəki gizli siyasi təşkilatlar isə sovet cəza aparatının mütəmadi zərbələri altında mücadilə aparmaq məcburiyyətində qalmışdılar.

Bu təşkilatlardan ən əhəmiyyətlisi, şübhəsiz, "Musavat" partiyası hesab olunur. Aprel çevrilişindən sonra bir qrup "Musavat" fəalı bolşeviklərin vədlərinin səmimiliyinə aldanaraq, leqal surətdə fəaliyyətlərini davam etdirmək üçün sovet platformunu qəbul etdiklərini bəyan etmişdilər (sol musavatçılar). Lakin onların bütün partiyaya bu platformanı qəbul etdirmək cəhdi uğursuzluğa düçar oldu [5, s.148].

1920-1923-cü illərdə gizli "Musavatın" Azərbaycanın demək olar bütün qəzalarında özəkləri qurulmuşdu. "Musavat" Azərbaycan siyasi mühacirəti, habelə gürcü menşevikləri ilə əlaqə yaratmışdı [2, s.49]. Lakin 1923-cü ilin yayında kütləvi həbslər partiyanın qeyri-leqal təşkilatına güclü zərbə oldu. Həbs olunmuş partiya Mərkəzi Komitəsinin bir qrup üzvü 1923-cü ilin avqustun 11-də partiyanın buraxılması və sovet platformasını dəstəkləməsi haqqında bəyanatı imzaladı. Bəyanatı imzalayan şəxslər tezliklə azadlığa buraxıldı. Azadlığa çıxar cıxmaz, onların əksəriyyəti yenidən qeyri-leqal mübarizəyə başladılar. 1923-cü ilin payızında "Müsavatın" gizli mətbəəsinin təsadüfən Fövqəladə Komitə tərəfindən aşkar olunması onların təkrar həbsi və həbs düşərgələrinə sürgünü ilə nəticələndi [6, s.24-26].

Bu həbslər "Musavatın" gizli fəaliyyətinə son qoymasa da, mənfi təsir göstərdi. Məhz 1923-cü ildən sonra Azərbaycanda antisovet təşkilatların fəallığı xeyli zəiflədi. Həmin illərdə "İttihadi-İslam", "Xalqçı", musavatçı gənclər təşkilatı "Gənc Azər", "Azərbaycan milli-müdafiəyi islam partiyası", "Əzrayıl firqəsi" və s. gizli qruplar da fəaliyyət göstərməkdə idi.

Aprel çevrilişindən sonra bəzi partiyalar özlərini buraxaraq, sovet platformasına keçdiklərini bəyan etmişdi. Onların arasında daha tanınmışı hələ sovetləşmədən öncə bolşevikyönümlü olması ilə seçilən "İttihad" partiyası idi [2, s.8; 4, s.57 - 58]. Lakin hadisələrin sonrakı inkişafı "İttihadın" rejimin gerçək üzünü görməsinə, bolşeviklərin Şərqin Qərb imperializminin əsarətindən qurtarılması, Azərbaycanın müstəqilliyi, Türkiyənin imdadına yürümə və s. haqqında vədlərinin deklarativ səciyyə daşıdığının fərqinə varmasına imkan yaratdı. İllüziyalardan qurtulmuş "İttihad" artıq 1920-ci ilin iyulunda üç müstəqil qrup halında ("Vətən və ya ölüm", "Mərkəzi İttihad", "Quranın əmin-amanlığı") rejimə savaş açdı. Ümumiyyətlə, bu partiya 1920-1921-ci illərdə bolşevik üsul-idarəsi ilə mübarizənin ön cərgələrində idi.

Azərbaycanın bir sıra bölgəsində 1920-ci ilin payızında gizli strukturlarını yaratmış "İttihad" sovet hakimiyyətinə qarşı qəsd və silahlı çıxışların hazırlanmasında iştirak etmişdi. İttihadçılar həmçinin Dağıstan, İran və Türkiyə ilə əlaqə qurmuş, müxtəlif dövlət idarələrinə və xalq

komissarlıqlarına öz tərəfdarlarını yerləşdirməyə müvəffəq olmuş, ümumi silahlı üsyana hazırlıq məqsədilə silah-sursat əldə etmişdi. Fəqət “İttihadın” üsyan planları 1920-ci ilin sonlarında XI Ordunun Xüsusi Şöbəsi tərəfindən açıldı. 1921-ci ilin yanvarında həmin bu şöbə üzərinə məhkəmə funksiyalarını götürərək, 155 nəfər ittihadçı haqqında hökm çıxardı; məhbuslardan Qarabəyov başda olmaqla 4 nəfər Moskvaya göndərilmiş, qalan fəalların bir qismi müxtəlif həbs düşərgələrinə (Xolmoqor, Ryazan, Nijni Novqorod) sürgün edilmiş, digər qismi isə dilindən iltizam alınaraq, sərbəst buraxılmışdı [2, s.18-21]. İttihadçılar aldıqları zərbəyə baxmayaraq, mübarizələrini sonrakı illərdə də davam etdirmişdilər. Ümumiyyətlə, bu partiya və dini təmayüllü digər təşkilatlar 1920-1923-cü illərdə daha fəal olub, müxtəlif antisovet çıxışlarda iştirak edirdilər [4, s.61-62]. 1923-cü ildə repressiyalara məruz qalan və itki verən “İttihad” tədricən “Musavatla” fəaliyyətini birləşdirdi.

Azərbaycanın bölgələrində də bu təşkilatlarla gizli əlaqələrdə olan təşkilatlar fəaliyyət göstərirdi. Onlardan ilk növbədə Nuxanın nüfuzlu bəylərindən olan Əlicanbəyovlar tərəfindən əsası qoyulmuş eyni adlı təşkilatı qeyd etmək lazımdır. Dövlət Siyasi İdarəsi tərəfindən hazırlanmış arayışda qeyd olunur ki, Əlicanbəyovlar təşkilatı Nuxa-Zaqatala qəzasında baş vermiş üsyanın hazırlanmasında yaxından iştirak etməklə bölgənin bütün bandit qruplaşmaları, eləcə də Musavatın Bakı təşkilatı ilə yaxın əlaqələrdə olmuş, gürcü menşevikləri ilə əlaqə qurmağa çalışmışdı [1, v.30].

Azərbaycanın şimal-qərb bölgəsində fəaliyyət göstərmiş “Xalq Azadələri Firqəsi” və onun Göynük kəndində yerləşən özəyinin də 1920-ci illərdə baş vermiş antisovet çıxışların hazırlanmasında xüsusi rolu olmuşdu. Bu gizli təşkilatın üsyan mərkəzi Baş Göynükdə yerləşmiş özəyinin fəaliyyəti beş nəfərlik rəhbər qrup tərəfindən həyata keçirilirdi ki, Molla Mustafa Şeyxzadə və Əsədulla Sadıxov onun ən fəallarından idilər. Gizli təşkilatın üzvü olan Əsədulla Sadıxov həm də Göynük kooperativində mühasib işləyirdi. Mustafa Əicanbəyov təcridxanada verdiyi ifadəsində Əsədulla Sadıxovun Kazım Qarabəkir paşa və M.Ə.Rəsulzadənin başçılıq etdiyi bu təşkilatla 1924-cü ildə Tükiyədə olarkən əlaqəyə girdiyini bildirmişdi” [14, v. 880; 3, s. 120].

1930-cu il Nuxa-Zaqatala üsyanının hazırlanmasında fəal rol oynamış təşkilat “möhkəm əl” mənasını verən “Ürvətül-vüska” dini-siyasi təşkilatı 1929-cu ildə Dağıstanda yaranmış, Azərbaycanın şimal rayonlarına da öz təsirini yaymış, hətta kommunistləri belə öz sıralarına cəlb edə bilmişdi [1, v.30-31]. Bu cəmiyyətin Zaqatala şöbəsinin tərkibində iki partiya üzvü, bir partiya üzvlüyünə namizəd, altı nəfər keçmiş partiya üzvü, on komsomolçu var idi [1, v.35].

Azərbaycan SSR-də bolşevik hakimiyyətinə qarşı baş vermiş müqavimət hərəkatında siyasi mühacirətimizin də xüsusi rolu olmuşdur. Azərbaycan siyasi mühacirətinin nümayəndələri Topçubaşov, Xasməmmədov,

Rəfiyev, Rizvanov və Şeyxülislamovun yaxından iştirakı ilə 1921-ci ilin iyunun 10-da Parisdə Qafqaz Dövlətlərinin İttifaqı yaranır. Azərbaycan, Gürcüstan və Dağlı respublikalarının birliyi olan bu ittifaqın başlıca məqsədi Sovet İttifaqına qarşı fəal mübarizə aparmaqla Qafqazda müstəqil respublikaların qurulmasına nail olmaq elan olunmuşdu [9, v.3].

Azərbaycan, Gürcüstan və Şimali Qafqazın xaricdəki siyasi xadimlərinin fəaliyyətinin əlaqələndirilməsi məqsədilə 1921-ci ilin sentyabrın 4-də keçirilmiş müşavirədə: 1) Azərbaycan, Gürcüstan və Şimali Qafqazın siyasi xadimlərindən ibarət daimi orqan yaratmaq; 2) Daimi orqana hər ölkədən iki nümayəndə daxil etmək; 3) Bu xüsusi orqana erməni siyasi qrupunun nümayəndələrinin də cəlb edilməsinə cəhd göstərmək; 5) Yerlərdə ümumi vəziyyət və əhalinin əhval-ruhiyyəsi barədə bir-birilərini məlumatlandırmaq qərara alınmışdı.

Müşavirədə belə bir orqanın yaradılması barədə Parisi və hər üç respublikanın müvafiq orqanlarını, eləcə də Türkiyə və Avropada ictimai fikri məlumatlandırmaq məqsədi ilə M.Rüstəmbəyov, Ə.Tsalikov və D.Şaraşidzedən ibarət qrupun da yaradılması qərara alınmışdı [8, v.16–16 arxa].

Siyasi mühacirətimizin Türkiyədə qərar tutmuş nümayəndələri arasında təşkilatlanma və qarşılıqlı əlaqə işinin aparılması məqsədi ilə xüsusi komissiyalar fəaliyyət göstərirdi. Təkcə İstanbulda olan Azərbaycan siyasi mühacirətinin sədr, 5 nəfər üzvdən ibarət komissiyanın aylıq məsrəfi 3235 lirə olmaqla bu məbləğin 1500 lirəsi Vətəndə təbliğati iş aparmaq, 600 lirə isə kəşfiyyat məqsədləri üçün ayrılmışdı [10, v.1].

1924-cü ilin avqust-sentyabr aylarında Qərbi Gürcüstanın bir sıra bölgələrini, Şərqi Gürcüstanın isə ayrı-ayrı kəndlərini bürümüş güclü antisovet üsyanın yatırılmasından sonra Qafqaz mühacirətinin birləşməsi prosesi başlayır. Beləki, həmin vaxta kimi ayrı-ayrılıqda fəaliyyət göstərən Qafqaz mühacirətinin nümayəndələri başa düşürlər ki, sovet işğalına qarşı mübarizədə qüvvələri birləşdirmədən əhəmiyyətli nəticəyə nail olmaq mümkün deyil. Bu barədə Qafqaz mühacirətinin nümayəndələrindən biri yazırdı ki, cəmi 41 min kvadrat kilometr ərazisi, protestantlıq, katoliklik və kalvinizm kimi üç dinə etiqad edən fransızlar, almanlar və italyanlardan ibarət əhalisi olan İsveçrədə bu xalqlar öz aralarında razılığa gəlib dünyaya nümunə olacaq demokratik dövlət yarada biliblərsə, biz Qafqaz xalqları niyə bunu edə bilməməliyik [12, s.121]. Mühacirətin fəaliyyət göstərdiyi dövlətlərdə də başa düşürdülər ki, Qafqaz xalqlarının ümumi çıxışını təşkil etmədən bolşeviklərə qarşı effektli mübarizə aparmaq çətindir. Məhz həmin vaxtdan etibarən Qafqaz xalqlarının konfederasiyası ideyası gündəmə gəlir.

1924-cü ilin payızında Polşa Xarici İşlər Nazirliyinin hərtərəfli dəstəyi ilə Qafqaz siyasi mühacirətinin nümayəndələrinin əksər hissəsinin cəmləşdiyi Parisdə Birləşmiş Qafqaz Konfederativ Komitəsi təşkil olunur. Komitənin idarə

heyətinə Qafqaz respublikalarının hərəsindən 3 nəfər – Xosrov bəy Sultanov, Əbdüləli Əmircan, Ə.Şeyxülislamov (Azərbaycan), A.Asatiani, D.Vaçnadze, M.Sereteli (Gürcüstan), A.Kantemir, V.Q.Dcabaqi, A.Halitov (Dağlı respublikası) daxil olurlar. Komitənin rəhbər orqanı Sultanov, Vaçnadze və Dcabaqinin daxil olduğu rəyasət heyəti idi. Təbliğati və kəşfiyyat işlərinin aparılması məqsədilə İstanbulda bu komitənin özəyi təşkil olunurdu.

Komitənin qəbul etdiyi sənəddə "Qafqaz xalqlarının qələbə anı onların Rusiyaya qarşı və bütün dünya qarşısında vahid konfederativ dövlət kimi birgə çıxış edəcəkləri anda baş verəcəkdir. Yalnız bu halda onlar Avropa ölkələrinin dəstəyi ilə təmin olunacaqlar" deyilirdi.

1925-ci ilin martında Qafqaz respublikaları ilə gizli əlaqənin yaradılması məqsədilə Sultanov İrana, Kantemir Qarsa, Vaçnadze Artvin-Ərdahan rayonuna göndərilir. Dcabaqi isə Komitənin orqanının nəşr olunması məqsədilə İstanbulda qalır [13, s.151-156].

Bununla yanaşı təbliğatı işin və kəşfiyyat əməliyyatlarının aparılması məqsədilə Qafqaza yaxın ərazidə operativ mərkəzin yaradılması qərara alınır. Bu məqsədlə 1925-ci ilin oktyabrında Türkiyədəki polyak nümayəndəsi Roman Knollun təşəbbüsü ilə İstanbulda Birləşmiş Qafqaz Konfederasiyası Komitəsinin yaradılması qərara alınır [11, s.7].

Mühacirətdə olan bütün Qafqaz mühacirətinin fəaliyyətinin əlaqələndirilməsi məqsədi ilə 1926-cı ilin iyulun 15-də İstanbulda birləşmiş Qafqaz mərkəzi təşkilatı olan Qafqazın Müstəqilliyi Komitəsi təşkil olunur. Bu təşkilata M.Ə Rəsulzadə, M.Vəkilov (Azərbaycan), N.Ramişvili, N.Moqalaşvili (Gürcüstan), Səid bəy Şamil (İmam Şamilin nəvəsi), A.Kantemir (Dağlı respublikası) daxil oldular. Komitəyə Rəsulzadə, Ramişvili və Səid bəy Şamil həmsədr seçilirlər. Komitə Türkiyə, İstanbuldakı Polşa səfirliyi və Parisdəki Qafqaz nümayəndələri, eləcə də Qafqazdakı üsyançı qüvvələrlə gizli əlaqə saxlamalı idi [11, s. 8].

Qafqazın Müstəqilliyi Komitəsininin nizamnaməsində göstərilirdi ki, Komitənin başlıca məqsədi Qafqaz xalqlarını konfederativ əsasda birləşdirmək və Qafqaz respublikalarının müstəqilliyinin bərpa edilməsi məqsədilə mübarizəyə hazırlamaq və təşkilatlanması üçün praktiki aksiyaların aparılması təşkil edir [13, s. 162-164].

Azərbaycanda 1930-cu il üsyanlarının hazırlanmasında rolu olmuş təşkilatlardan bəhs edərkən 1926-cı ildə ParisdəM.Ə.Rəsulzadənin də yaxından iştirakı ilə yaradılmış beynəlxalq təşkilat olan "Prometey" hərəkatının da adını qeyd etmək lazımdır. Beləki, 20-ci illərin ortalarından Sovet İttifaqının Qafqaz mühacirətinin toplaşdığı Türkiyəyə artan təzyiqləri nəticəsində Parisə köçmək məcburiyyətində qalmış Qafqazın Müstəqilliyi Komitəsi burada 1926-cı ilin noyabrında ilk nömrəsi çıxmaqla komitənin orqanı olan "Prometey" jurnalını buraxmağa başlayır və keçmiş Rusiya imperiyasının ayrı-ayrı xalqlarının,

Azərbaycan, Gürcüstan, Kareliya, Komi, Krım, Kuban, Povoljye, Şimali Qafqaz, Türküstan, Ukrayna, Uralın mühacirətdə olan nümayəndələrinin birləşdiyi bu hərəkat həm də Prometey hərəkatı kimi də adlanmağa başlayır. Bu təşkilatın başlıca vəzifəsi:

1) Öz xalqlarında siyasi şüuru oyatmaq və onları öz talelərini həll etməyə hazırlamaq;

2) Avropa və dünya ictimaiyyətinə Sovetlər Birliyində yaşayan qeyri-rus xalqların problemlərini çatdırmaq;

3) Bolşevik diktaturasını ifşa etmək;

4) İlk vaxtlarda müxtəlif xalqlarla birgə mübarizə aparmaq səylərini birləşdirmək idi [7, s. 200].

1927-ci ilin yayından etibarən Qafqazın Müstəqilliyi Komitəsi "Qafqazın Müstəqilliyi Komitəsinin bülleteni"ni nəşr etməyə başlamışdılar ki, artıq bu bülleten yalnız Qafqaz məsələləri ilə məşğul olurdu. Bülletenin tirajının bir hissəsi Qafqazda yayılması üçün nəzərdə tutulmuşdu [11, s.18-19].

1927-ci ilin fevralın 26-da Parisdə M.Ə.Rəsulzadə, X.B.Xasməmmədov və A.Əmircanovun rəhbərliyi ilə Azərbaycan Milli Mərkəzi təşkil olunur. 1930-cu ilin fevralın 6-dan 12-ə kimi Varşavada Azərbaycan, Gürcüstan və Dağlı respublikalarının milli mərkəzlərinin iclası keçirilir. Burada Qafqazın Müstəqilliyi Təşkilatının mərkəzi qərargahının Varşavada yerləşməsi, kəşfiyyat işlərinin aparılması məqsədilə İstanbulda bu komitənin xüsusi seksiyasının yaradılması qərara alınır [13, s.211].

Tədqiqata yekun vuraraq belə bir qənaətə gəlmək olar ki, Sovet hakimiyyətinə qarşı mübarizə aparmaq məqsədi ilə Azərbaycan SSR-in ərazisində yaranmış gizli antisovet təşkilatlar, Azərbaycanın paytaxtı ilə yanaşı bir çox rayonlarına da öz təsirini yaymış, hətta kommunistləri belə öz sıralarına cəlb edə bilmişdilər. Müəyyən olunmuşdur ki, bu hərəkatın ideoloji əsasının hazırlanmasında həmin illərdə qeyri-leqal vəziyyətdə fəaliyyət göstərən "İttihadi-İslam", "Xalqçı", musavatçı gənclər təşkilatı "Gənc Azər", "Azərbaycan milli-müdafiəyi islam partiyası", "Əzrayıl firqəsi" və s. kimi gizli qrupların xüsusi rolu olmuşdur. Tədqiqat nəticəsində eyni zamanda Fransa, Polşa və İngiltərə kimi iri Avropa dövlətlərinin ərazisində Azərbaycan siyasi mühacirətinin fəalları tərəfindən yaradılmış təşkilatların da respublikamında getmiş milli-müqavimət hərəkatının hazırlanmasındakı xüsusi roluna dair maraqlı faktlar üzə çıxarılmışdır.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi (ARPİİSSA), f. 1, siy. 88, iş 69
2. Bünyadov Z. Qırmızı terror. Bakı: Azərnəşr, 1993, 331 s.
3. Əsədov Q. Şəki və onun təbabət tarixi. Bakı: Qanun Nəşriyyatı, 2016, 328 s.
4. İbrahimli X. Azərbaycan siyasi mühacirəti. Bakı: Elm, 1996, 308 s.
5. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, 246 s.
6. Rəfiyev B. Aysberqin sualtı hissəsi. Bakı: Azərnəşr, 1995, 56 s.
7. YaqubluN. "Prometey" jurnalında azərbaycanlı mühacirlərin fəaliyyəti. Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası. 2009, №4, s. 198-203
8. Государственный Архив Российской Федерации(ГАРФ), ф. 6144, оп. 1, д. 1
9. ГАРФ, ф. 6144, оп. 1, д. 2
10. ГАРФ, ф. 6144, оп. 1, д. 5
11. Кавказская Конфедерация в официальных декларациях, тайной переписке и секретных документах движения «Прометей». Сборник документов. Сост., пред., пер., прим. Г.Г.Мамулия. М.: изд-тво «Социально-политическая Мысль», 2012, 240 с.
12. Кавтарадзе В. На путях к конфедерации Кавказа. Варшава, 1933. 133 с.
13. Мамулиа Г.Г. Борьба за свободу и независимость Кавказа (1921-1945). Тбилиси, изд-тво Меридиани, 2012, 603 с.
14. Российский Государственный Военный Архив(РГВА), ф. 25873, оп. 1, д. 1206

# TÜRKİYƏNİN İSTİQLAL HƏRBİNDƏ NƏRİMAN NƏRİMANOVUN ROLU

**Məmmədov Xəqani Məmməd oğlu**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
prof.khaqani.mammadov@gmail.com

**Açar sözlər:** *Azərbaycan Sovet Hökuməti, Türkiyə Cümhuriyyəti, Nəriman Nərimanov, Mustafa Kamal, siyasi münasibətlər, iqtisadi əlaqələr, qardaş köməyi, qızıl pul, neft, neft məhsulları.*

*Sovet işğalının ilk illərində Azərbaycan-Türkiyə münasibətləri yeni, daha yüksək səviyyədə inkişaf edirdi. Hər iki ölkədə diplomatik nümayəndəliklər yaradıldı. Nəriman Nərimanov Türkiyə ilə Sovet Rusiyası arasında əlaqələrin yaradılmasında və inkişafında böyük rol oynadı. Moskva və Qars müqavilələrinin imzalanması hər iki ölkənin diplomatik uğuru oldu.*

*Türkiyənin istiqlal mübarizəsində Nəriman Nərimanov qardaş ölkəyə hərtərəfli dəstək oldu, ona təmənnasız qızıl pul, neftvə neft məhsulları ilə yardım göstərdi. Bu köməyin Türkiyənin milli azadlıq hərəkatında əldə etdiyi böyük qələbədə çox mühüm rolu oldu.*

## НАРИМАН НАРИМАНОВ И ЕГО РОЛЬ В БОРЬБЕ ЗА НЕЗАВИСИМОСТЬ ТУРЕЦКОЙ РЕСПУБЛИКИ

**Мамедов Хагани Мамед оглы**

**Ключевые слова:***Азербайджанский ССР,Турецкая Республика, Нариман Нариманов, Мустафа Кемаль, политические и экономические отношения, помощь братьям, золотые монеты, нефть, нефтепродукты.*

*В первые годы советизации Азербайджана в обеих странах были созданы дипломатические миссии. Азербайджанская ССР успешно опосредовала установление и развитие отношений между Турцией и Советской Россией. Подписание Московского и Карского соглашений было дипломатическим успехом обеих стран.*

*В борьбе за независимость Турецкого народа Азербайджанские турки поддерживали братскую страну, бескорыстно предоставляя им*

*золото, нефть и нефтепродукты. Эта помощь сыграла решающую роль в великой победе национально-освободительного движения Турции.*

**NARIMAN NARIMANOV AND HIZ ROLE IN THE STRUGGLE FOR THE INDEPENDENCE OF TE TURKISH REPUBLIC**

**Mammadov Khagani Mammad**

**Keywords:** *Azerbaijan Soviet Government, Turkish Republic, Nariman Narimanov, Mustafa Kemal, political relations, economic relations, brother assistance, gold money, oil, oil products.*

*In the early years of the Soviet occupation, the Azerbaijani-Turkish relations were developed at a new, higher level. Diplomatic missions were established in both countries. Azerbaijan successfully mediated the establishment and development of relations between Turkey and Soviet Russia. The signing of the Moscow and Kars agreements was the diplomatic success of both countries.*

*Azerbaijanian turks have been providing comprehensive support to the brotherly country in the Turkish Independence War. They helped them with gold money, oil and other oils products. This aid played a crucial role in the great victory of Turkey's national liberation movement.*

1920-ci il aprel ayının 27-də Azərbaycanın paytaxtı Bakı şəhərində kommunistlərin üsyanı baş verdi. Üsyançı dəstələri şəhərdə və onun ətrafında ən mühüm obyektləriələ keçirdilər. Bakı qarnizonu və Xəzər Hərbi Donanması Azərbaycan İnqilab Komitəsinin tərəfinə keçdi.Azərbaycanda olan Türkiyə hərbi xidmətçiləri və kommunistlərinin köməyi ilə həyata keçirilmiş üsyan nəticəsində bir çox mühüm obyektlər, o cümlədən dəmiryol vağzalı tutuldu, şəhərin hərbi qubernatoru M.Q.Tlexas həbs edildi. Türkiyə zabitləri və əsgərləri hökumətin Bakını tərk etmək cəhdinin qarşısını aldı [1;565].

Aprelin27-də H.Sultanov başda olmaqla kommunistlərin nümayəndə heyəti hakimiyyəti kommunistlərə təslim etmək barədə ultimatumu parlamentə təqdim etdi. “Müsavat” partiyasının parlament fraksiyası Azərbaycanın müstəqilliyinin saxlanacağı təqdirdə kommunistlərin ultimatumunu qəbul etmək haqqında çoxluğun fikrini qəbul etməyə məcbur oldu. Beləliklə, 1920-ci il aprelin 27-də parlament hakimiyyətin Azərbaycan İnqilab Komitəsinə verilməsi haqqında qərar qəbul etdi.

Sovetləşmənin ilk dövrlərindən başlayaraq Azərbaycan SSR XKS-nin sədri Nəriman Nərimanovun və Türkiyə Milli Hərəkatının rəhbəri Mustafa Kamalın birgə səyləri nəticəsində Azərbaycan ilə Türkiyə arasında siyasi, humanitar və iqtisadi sahələrdə əlaqələrin inkişafında yeni dövr başlandı.Türkiyənin Şərq cəbhəsinin komandanı Kazım Karabəkir paşa 21 iyul 1920-ci ildə TBMM sədri Mustafa Kamal paşaya göndərdiyi şifrəli teleqramda Bakıda səfirlik açılmasını istədi. TBMMMemduh Şövkət bəyi Azərbaycana diplomatik nümayəndə kimi göndərdi və onun etimadnaməsi 15 avqust 1920-ci il tarixində imzalandı. Bu, TBMM-nin xaricdəki ilk təmsilçiliyi olması baxımından da son dərəcə əhəmiyyətli idi[8; 275]. Azərbaycan Sovet Hökuməti 1921-ci ilin iyun ayında İbrahim Əbilovu Ankara hökuməti yanındasəlahiyyətli nümayəndə təyin etdi. Qafqaz Bürosu Azərbaycanın Ankaradakı nümayəndəliyinin Türkiyəyə gəlməsi üçün üç min türk lirəsi ayırdı [7; 76-77]İ.Əbilov 22 oktyabr 1921-ci ildə etimadnaməsini TBMM-nin sədri Mustafa Kamala təqdim edərkən çıxışında dedi:"...Azərbaycan türkləri bir vücud kimi türk xalqının şadlığını öz şadlığı və matəmini öz matəmi bilərək son qətrə qanları qalıncaya qədər Türkiyənin və bütünŞərq məzlumlarınınxilas olması üçün əziz övladlarını qurban verməkdən vaz keçməzlər."[3; 28].

Mustafa Kamal da İ.Əbilovun çıxışına eyni səmimiyyətlə cavab verərək bu tarixi sözləri söylədi:"Azərbaycan türklərinin dərdləri öz dərdlərimiz və sevincləri öz sevinclərimiz olduğu üçün onların muradlarına nail olmaları, hür və müstəqil olaraq yaşamaları bizi pək ziyadə sevindirir" [6; 86].

1921-ci il noyabrın 15-də Azərbaycan nümayəndəliyinin binası üzərindəAzərbaycan SSR-nin dövlət bayrağı ilk dəfə Mustafa Kamal paşa tərəfindən qaldırıldı. Mustafa Kamal paşa burada etdiyi tarixi çıxışında demişdir: "Azərbaycan bayrağının Türkiyə bayrağının yanında, Türkiyə səmasında dalğalanmasını görmək, bütün millətimiz üçün böyük bir bayramdır. Bizə belə böyük bir bayram yaşatdığınıza görə səmimi təşəkkürümü təkrar edəlim" [3;98].

N.Nərimanov Aprel işğalından sonra Azərbaycanda həbs edilən 50 nəfər türk zabiti və əsgərinin[8; 151-153] tezliklə azad edilməsi və ingilislər tərəfindən Maltaya sürgün edilmiş kamalçılarınBakıda həbs edilmiş 72 nəfər ingilis diplomatı və hərbçisi ilə dəyişdirilməsi üçün böyük səy göstərirdi [2; 61]. Azərbaycan SSR XXİK M.D.Hüseynov 1920-ci il avqustun 29-da RSFSR-inTiflisdəki səlahiyyətli nümayəndəsi S.M.Kirova göndərdiyi teleqramda Bakıda həbs edilmiş ingilisləri Maltada sürgündə saxlanılan kamalçılarla dəyişməyə Azərbaycan hökumətinin razı olduğunu bildirirdi [7;78]. N.Nərimanov noyabr ayının 5-də Tiflisə M.D.Hüseynova göndərdiyi teleqramda yazırdı: "Bu gündən ingilis hərbi əsirləri Azərbaycanın Tiflisdəki diplomatik nümayəndəliyinin sərəncamına göndərilir. Orada bu şəxslər Gürcüstandakı ingilis və fransız nümayəndəliyinə təhvil verilməlidir".Uzun sürən mübahisələr və

müzakirələrdən sonra N.Nərimanovun qətiyyətli tələbləri nəticəsində Bakıda həbs edilmiş 50 nəfər türkiyəli zabit və əsgər azad edildi[7; 62].

Azərbaycanla Türkiyə arasındakı siyasi əlaqələrin inkişafının bir mühüm cəhəti də N.Nərimanovun sovet rəhbərləri ilə görüşmək istəyən TBMM heyətinə yardım etməsi idi. 1921-ci ilin fevral ayında TBMM Eli Fuat Cebesoy, Yusif Kamal və Rza Nurdan ibarət nümayəndə heyətini Sovet Rusiyası rəhbərləri ilə görüşmək və müqavilə bağlamaq üçün Moskvaya göndərdi. Mustafa Kamal paşa nümayəndə heyətinə əvvəlcə Bakıya gedib Nəriman Nərimanov ilə görüşməyi tövsiyə etdi. Görüş zamanı N.Nərimanov Türkiyə nümayəndə heyətinə bəzi tövsiyələr verdi. O,bildirdi ki, Şərq siyasətində ardıcıl səhvlərə yol verən və erməni daşnaklarının Azərbaycana və Türkiyəyə daimi ərazi iddialarını müdafiə edən G.Çiçerin nümayəndə heyəti üçün problemlər yaratmağa çalışacaqdır. O, V.İ.Leninlə görüşməyi vacib hesab edirdi.Əgər bu mümkün olmasa, İ.V.Stalinin onlara yardım edə biləcəyini söyləyirdi. N.Nərimanov nümayəndə heyəti ilə görüşdükdən sonra V.İ.Leninə bu xüsusda məktub yazmağı və nümayəndə heyəti ilə birlikdə Azərbaycan SSR-in Sovet Rusiyasında fövqəladə və səlahiyyətli nümayəndəsi Behbud Şahtaxtinskini də Moskvaya göndərməyi qərara aldı. Məktubda yazılırdı ki, G.Çiçerin ermənilərin söylədiklərinə daha çox inanır, "Biz nəyin bahasına olursa-olsun, türklərlə sağlam bir müqavilə bağlamalıyıq" [11; 104].

G.Çiçerinin kəskin müqavimətinə baxmayaraq, 1921-ci il mart ayının 16-da Sovet Rusiyası ilə Türkiyə arasında "Dostluq və qardaşlıq haqqında" müqavilə imzalandı. Bu müqavilənin 3-cü maddəsinə əsasən Naxçıvan vilayəti "Azərbaycanın qəyyumluğu (protektoratı) altında muxtar ərazi olurdu, bu şərtlə ki, Azərbaycan bu qəyyumluğu başqa dövlətə güzəştə getməyəcəkdir"[8; 305].Müqaviləyə görə,Türkiyə Batumun Gürcüstana güzəştəgedilməsi istisna olmaqla, 23.6 min $km^2$ ərazisi,572 min əhalisi olan torpaqları özünə qaytardı. Qafqazda 1829-cu ilin sərhədlərini bərpa etdi [8; 369].

Azərbaycanın maraqları, Türkiyənin təhlükəsizliyi baxımından Naxçıvan məsələsinin ədalətli həlli Moskva konfransında türk diplomatiyasının və N.Nərimanovun böyük qələbəsi idi. Bu qələbədə Azərbaycan diplomatiyasının da böyük rolu var idi.Azərbaycan SSR-in xalq xarici işlər komissarı M.D.Hüseynov Türkiyənin Bakıdakı diplomatik nümayəndəsi Memduh Şövket bəyə, Şərq Cəbhəsinin komandanı Kazım Qarabəkir paşaya göndərdiyi teleqramda Moskva müqaviləsini yüksək qiymətləndirir və Sovet Azərbaycanı hökumətinin inqilabi Türkiyəyə ilk yardımı kimi, Bakı-Tiflis-Qars marşrutu ilə 30 vaqon neft, 2 vaqon benzin və 8 vaqon kerosin göndərildiyini bildirirdi [8; 370].

Azərbaycanla Türkiyə arasında siyasi əlaqələrin daha da inkişaf etdirilməsi Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında 1921-ci il oktyabr ayının 13-də Rusiyanın iştirakı ilə imzalanmış Qars müqaviləsində özünü bir

daha parlaq surətdə göstərdi. Müqavilənin beşinci maddəsinə görə, "Türkiyə hökuməti, Azərbaycanvə Ermənistan respublikaları müqavilənin III əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsi haqqında razılığa gəlirdilər" [10; 441].

Qars müqaviləsi Naxçıvanın Azərbaycanın ayrılmaz hissəsi olmasını bir daha təsdiq etdi, Türkiyənin daxili və beynəlxalq vəziyyətini xeyli möhkəmləndirdi. Mustafa Kamal paşanın dediyi kimi, "Bu müqavilə ilə Şərqdə hüquqi şəkil alan indiki vəziyyətimiz Sevr müqaviləsinin tətbiqinin qeyri-mümkün olduğunu göstərən reallıqlardan biridir... Erməni məsələsi deyilən məsələ Qars müqaviləsi ilə ən doğru həllini tapmışdır" [10; 309].

Azərbaycan Sovet Respublikası TBMM hökuməti ilə bir-birini müstəqil dövlətlər kimi qəbul etmiş, qarşılıqlı əlaqələrini iki müstəqil dövlət arasındakı münasibətlər səviyyəsində qurmuşdur. Türkiyə Cümhuriyyəti N.Nərimanovun rəhbərlik etdiyi Azərbaycan Sovet Hökumətinin Sovet Rusiyasının işğalına məruz qalmaması üçün siyasi iradə göstərməyə çalışmış, lakin o dövrün beynəlxalq şərtləri, Sovet Rusiyasının işğalçılıq siyasəti, Azərbaycanın və Türkiyənin daxili siyasi vəziyyətlərinin sabit olmaması və s. səbəblərdən Azərbaycanın dövlət müstəqilliyi yalnız kağız üzərində mövcud olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti iqtisadi çətinliklərə və ciddi maliyyə sıxıntılarının olmasına baxmayaraq, türk xalqının milli mübarizəsinə hər vasitə ilə maddi yardım göstərməyə çalışırdı. Azərbaycan hökuməti Kazım Qarabəkirpaşa vasitəsi iləTəmsilçilik Heyətinə çatdırmaq üçün göndərdiyi şifrəli teleqramda Anadoludakı Milli Mübarizəyə hər cür yardıma hazır olduğunu bildirmişdir. 1919-cu ildə AXC-nin baş naziri Nəsib bəy Yusifbəyli 1,5 milyon fransız frankı miqdarında pul yardımını göstərən çek və neft qəbzlərini imzalayaraq, Türkiyə Milli Mübarizə rəhbərlərinə təhvil vermişdir[3; 15].

Mustafa Kamal paşa 1921-ci il may ayının 18-də TBMM-nin Bakı təmsilçisi Memduh Şövkət bəyə yazdığı məktubunda "İnqilabdan əvvəl hökumət(yəni Azərbaycan Xalq Cümhuriyyəti hökuməti-X.M.) Mir Yusif Vəzirov vasitəsi ilə müxtəlif çeklərlə bir milyon frank həvalə etmiş,bundan başqa da bir miqdar pul göndərmişdi"-deyərək, həmin məbləğin bir qisminin əllərinə çatdığını, ancaq bir milyon frank (qızıl) dəyərində yardımın, AXC süqut etdiyindən, göndərilmədiyini bildirir, ondan həmin pulun Azərbaycan hökuməti (Azərbaycan Sovet Hökuməti-X.M.) xəzinəsi tərəfindən ödənilməsi üçün çalışmasını istəyirdi[3; 15].

Azərbaycan Sovet Hökumətinin sədri Nəriman Nərimanov Mustafa Kamal paşanın həmin xahişini yerinə yetirmiş, qeyd olunan məbləğin Türkiyəyə göndərilməsinə sərəncam vermişdir. Mustafa Kamal 1921-ci il 16 noyabr tarixində yazdığı başqa bir məktubda "Azərbaycan hökumətinin (Azərbaycan SSR-nin-X.M.) dəstəyi ilə bağlı hərəkəti- insaniyəsinə təşəkkür

edirəm. Bu təşəkkürümün, suret-i münasibede çatdırılmasını rica edirəm”-deyərək, AXC hökuməti dövründə vəd edilmiş bir milyon qızıl dəyərində yardımın ödənilməsinə görə təşəkkürünü bildirmişdir [3; 16].

Azərbaycan sovetləşdirildikdən sonra Nəriman Nərimanovun sədrlik etdiyi Sovet Hökuməti ilə TBMMarasında iqtisadi münasibətlər keyfiyyətcə yeni, daha yüksək səviyyədə inkişaf etməyə başladı. Sovet Rusiyasından göndərilən yardımlar Azərbaycan vasitəsi iləTürkiyəyə çatdırılmağa başladı. Türküstan türkləri tərəfindən əldə edilən və Rusiya vasitəsilə Anadoluya göndərilən 10 milyon qızıl pul Azərbaycan vasitəsilə Anadoluya çatdırılmışdı [6; 117]. TBMMadından Moskvaya Sovet Rusiyası rəhbərləri ilə görüşməyə gedən Xəlil paşa tərəfindən gətirilən üç sandıq-100 min lirə dəyərində külçə qızıl da Azərbaycan vasitəsilə TBMM hökumətinə təhvil verilmişdi [3; 35].

Antanta dövlətlərinin təcavüzünə məruz qalan,ağır iqtisadi, maliyyə, silah və hərbi sursat təminatı cəhətdən böyük çətinliklər yaşayan TBMM hökuməti ilk yardım istəniləcək ölkə olaraq Azərbaycana müraciət etdi. Mustafa Kamalın 1920-ci il may ayının3-də 15-ci Kolordu Komandanı Kazım Qarabəkir paşaya göndərdiyi şifrəli teleqramda deyilirdi: “Əldə beş para olmadığı zati-alilərinizə məlumdur. İndilik daxildə bir mənbə də tapılmayır. Başqa tərəfdən təmin edilincəyə qədər Azərbaycan hökumətindən azami miqdarda istiqraz aktı imkanınının araşdırılmasını və təmin buyurulmasını rica edirəm” [6; 88].

Azərbaycan Sovet hökuməti TBMM-nin bu müraciətinə cavab olaraq Türkiyənin qurtuluş mübarizəsi ərzində ən çox ehtiyac duyulan məhsullardan benzin, mazut, kerosin vəmaye qazı ilə yardımlar etmişdir. 1921-ci ilin may ayında Nəriman Nərimanovun xüsusi əmrinə əsasən Azərbaycan hökuməti Türkiyəyə 62 vaqon neft məhsulları göndərdi. Həmin ayda M.D.Hüseynov TBMM hökumətinə göndərdiyi məktubda “Bundan sonraAzərbaycan Hökuməti qardaş Türk xalqına yürütdüyü istiqlal savaşı müddətində hər ay 62 vaqon benzin və3 vaqonkerosin göndərməyi öz üzərinə götürür”-deyə yazırdı [3; 37].

Aylıq təəhhüdlərin göndərilməsindən əlavə olaraq 1922-ci ildə Azərbaycan Hökuməti Batum yolu ilə Türkiyə Cümhuriyyətinə 9000 tondan çox kerosin və 350 ton benzin göndərmişdir [5; 312].

Mustafa Kamal paşa 1921-ci ilin mart ayının 17-dəNəriman Nərimanova bir məktub göndərərək maliyyə yardımı istəmişdir. Nəriman Nərimanov bəzi xalq komissarlarının kəskin etirazlarına baxmayaraq, bu istəyə müsbət cavab vermiş və Ankaraya 500 kq qızıl göndərmişdir [6; 117].

N.Nərimanov həmçinin Azərbaycanda onun sərəncamında olan rus silahlarının da Türkiyəyə göndərilməsinə nail olmuşdur. Azərbaycan Hökuməti ermənilərin törətdiyi soyqırımı nəticəsindəTürkiyənin şərq əyalətlərində yetim və kimsəsiz qalmış uşaqlar üçün də maddi yardımlar göstərmişdir. Kazım Qarabəkir paşanın Türkiyənin Milli Müdafiə Nazirliyinə ünvanladığı 1920-ci il

1 dekabr tarixli məktubunda yazılırdı ki, Azərbaycan Sovet Hökuməti Gümrüdə bu məqsədlə Türkiyəyə 500 ədəd 100-lük Osmanlı qızılı hədiyyə etmişdir[3; 38].

Türkiyənin istiqlal mübarizəsində Azərbaycan hökumətinin, xüsusilə də onun sədri Nəriman Nərimanovun bir çox çətinliklərə və ciddi maneələrə baxmayaraq böyük səyləri nəticəsində Türkiyənin istiqlal mübarizəsində göstərdiyi qardaş köməyi öz bəhrəsini tezliklə verdi. Türkiyə Cümhuriyyəti istiqlal mübarizəsi dövründə heç bir neft məhsulları sıxıntısı çəkmədi.

Mustafa Kamal paşa göstərilən yardım üçün xüsusi məktub vasitəsi ilə Nəriman Nərimanova təşəkkür etmiş, imkan olanda həmin borcu qaytaracağını bildirmişdir. Lakin N.Nərimanov 23 mart 1921-ci il tarixində Mustafa Kamala yazdığı cavab məktubunda Azərbaycan xalqının qardaş türk xalqına göstərdiyi yardımların, qardaş köməyinin təmənnasız olduğunu bildirərək, "Paşam, türk millətində bir ənənə vardır; qardaş qardaşa borc verməz, qardaş hər durumda qardaşının əlindən tutar...Bu gün sizin üçün etməyə çalışdığımız bir qardaşın, öz qardaşına etdiyindən başqa bir şey deyildir" deyə təvazökarlıqla cavab vermişdir.

Nəriman Nərimanov Azərbaycan Sovet Hökumətinin sədri olduğu iki il ərzində Sovet Rusiyasına bağlı olmasına baxmayaraq, müstəqil bir dövlətin başçısı kimi hərəkət edərək, Türkiyə ilə olan əlaqələrin daha yüksək səviyyəyə qalxmasına çalışmış, çox çətin vəziyyətdə olan Anadoludakı türk qardaşlarına dövlətinin bütün imkanlarını səfərbər edərək əlindən gələn yardımı heç kimdən çəkinmədən etmişdir. Sovet Rusiyası ilə Türkiyə Cümhuriyyəti arasında münasibətlərin yaradılması və yüksək səviyyəyə çatdırılması üçün V.İ.Lenin başda olmaqla Sovet rəhbərləri üzərində olan nüfuzundan bacarıqla istifadə etmişdir.

Qeyd etmək lazımdır ki, son illərə qədər Türkiyə tarixşünaslığında Azərbaycan türklərinin Türkiyənin İstiqlal mübarizəsinə göstərdiyi qardaşlıq yardımı yalnız Sovet Rusiyasının yardımı kimi anladılmışdır. Lakin tarixi faktlar, arxiv sənədləri sübut edir ki, Türkiyəyə ən çox qardaşlıq yardımı göstərən Azərbaycan türkləri, Azərbaycan Sovet Hökumətinin sədri Nəriman Nərimanov olmuşdur.

Beləliklə, Sovet işğalının ilkin mərhələsində Nəriman Nərimanovun qəti iradəsi və səyləri nəticəsində Azərbaycan SSR ilə Türkiyə Cümhuriyyəti arasında əlaqələr yüksək səviyyədə inkişaf etdirilmiş, siyasi, iqtisadi, hərbi və digər sahələrdə strateji partnyorluq səviyyəsinə qaldırılmış, Azərbaycan türklərinin Anadolu türklərinə hərtərəfli maliyyə-iqtisadi, neft və neft məhsulları ilə yardımlar göstərməsi Türkiyə Cümhuriyyətinin Antanta dövlətlərinə qarşı istiqlal mübarizəsində qələbəsində mühüm rol oynamışdır.

# Ədəbiyyat


1. Azərbaycan tarixi. 7cilddə. V c., Bakı, Elm, 2008.səh.565.
2. Avşar. A. Türkiyənin İstiqlal müharibəsində Azərbaycan türkləri. Bakı, AzAtaM, 2007.
3. Avşar. A.  Azərbaycan yazıları. Qismət, Bakı, 2006.
4. Adıgüzel H.. Neriman Nerimanov. Hayatı ve mücadelesi, “İleri”, İstanbul, 2004.
5. Adıgüzel. H. Atatürk, Nerimanov və kurtuluş savaşımız. İstanbul, 2006.
6. Dokumentı vneşney politiki SSSR. T.III. M., Politizdat, 1959.
7. Qasımov. M. Azərbaycan-Türkiyə diplomatik-siyasi əlaqələri. Bakı, Mütərcim, 1998.
8. Həsənli C. Sovet dövründə Azərbaycanın xarici siyasəti.(1920-1939). Bakı, “Adiloğlu” , 2012.
9. Məmmədov X. Azərbaycan milli hərəkatı, (1875-1918-ci illər). Bakı, Sabah, 1996.
10. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı Universiteti Nəşriyyatı, 1996.
11. Neriman Nerimanov. Mektuplar, “İleri”, İstanbul, 2005.

# ŞƏKİ-ZAQATALA BÖLGƏSİNDƏ YAŞAYAN AZSAYLI XALQLARIN ADQOYMA MƏRASİMİNİN BƏZİ XÜSUSİYYƏTLƏRİ

***Musayeva Sahibə Xəlil qızı***
*AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun dissertantı*
*aliyarbeyova.s@mail.ru*

**Açar sözlər**: *Şəki-Zaqatala bölgəsi, "Kitabi-Dədə Qorqud", adqoyma mərasimi, qəhrəmanlıq, mərasim nəğmələri*

Şəki-Zaqatala bölgəsindən toplanmış folklor mətnləri, etnoqrafik materiallar, həmçinin dil faktları bu bölgənin "Kitabi-Dədə Qorqud" dünyası ilə yaxından bağlı olduğunu göstərir. Bu bölgədə yaşayan azsaylı xalqların adətlərində uşağın anadan olması və adqoyma mərasimi arasında ciddi bir fərq yoxdur. Məqalədə isə azsaylı xalqlardan olan saxur və avar, eyni zamanda Şəki bölgəsi öz əksini tapır.

## НЕКОТОРЫЕ ОСОБЕННОСТИ ЦЕРЕМОНИИ ИМЕНОВАНИЯ ДЕТЕЙ ЭТНИЧЕСКИХ МЕНЬШИНСТВ, ПРОЖИВАЮЩИХ В ШАКИ-ЗАГАТАЛЬСКОМ РЕГИОНЕ

***Мусаева Сахиба Халил гызы***

**Ключевыеслова:** *Шеки-Загатальский регион, «Книга-Деде Горгуда», ритуалы именования,героизм,обрядовые песни*

Фольклорные тексты, этнографические материалы, а также лингвистические факты, собранные в Шеки-Загатальском регионе, показывают, что этот регион тесно связан с«Китаби-Дада Горгуд». Нет существенной разницы между рождением ребенка и именованияребенка в обычаях меньшинств, проживающих в этом регионе. В статье отражены меньшинства сахур и авар, а также Шекинский регион.

## SOME FEATURES OF CHILD NAMING CEREMONY OF ETHNIC MINORITIES LIVING IN SHAKI-ZAGATALA REGION

***Musaeva Sahiba Khalil***

**Key words:** *Sheki-Zagatala region,"The Book - Dada Gordud" epic,child naming ceremony, heroism, ritual songs*

Folklore texts, ethnographic materials, as well as linguistic facts collected in the Sheki-Zagatala region show that this region is closely connected with the

Kitabi-Dada Gorgud world. There is no significant difference between childbirth and child naming in the customs of the minorities living in this region. The article reflects the Sahur and Avar minorities, as well as the Sheki region.

***

Gənc ailələrdə uşağın dünyaya gəlməsi ən vacib hadisə sayılırdı. Hər bir gənc azərbaycanlı ailəsində uşaqların dünyaya gəlməsi böyük sevinclə qəbul edilir və körpə böyük sevgi və qayğı ilə əhatə olunurdu. İndiki dövrdə bu öz aktuallığını o qədər də saxlamasa da keçmişdə bir uşağın doğulması ərəfəsində ailədə xüsusi hazırlıqlar görülür, körpəyə paltar tikilir, yataq və beşik hazırlanırdı. Daha sonar isə adqoyma mərasimi ilə bağlı şənlik təşkil edilirdi. Aparılan tədqiqatlarda göstərildiyi kimi, günümüzdə doğum gününün ad günü kimi adlandırılmasının bu məsələ ilə birbaşa əlaqəsi vardır. Bir sıra xalqlarda bugün doğum günü adlandırılır. Yəni digər xalqlarda insanın doğum günü onun dünyaya gəldiyi gün hesab olunursa, bizdə isə insanın doğuluşu onun ad almasından başlayır. Daha dəqiq desək, hələ hünər göstərməmiş, ad almamış adam şəxsiyyət sayılmırdı, buna görə də onun dünyaya gəlişini bayram etməyə də ehtiyac duyulmurdu.

Azərbaycan xalqının etnoqrafik irsin də ailə məsələlərinin özünəməxsus yeri vardır. Ailə məsələlərində adqoyma adətinin öyrənilməsi də etnoqrafik baxımdan xüsusi maraq doğuran məsələlərdən biridir [1,s.148]. Adqoyma mərasiminin keçirilməsi qədim köklərə malik olub oğuz türklərinə məxsus vacib adət və mərasimlərdən biridir.Çünki ad insanın varlığını, mövcudluğunu təsdiq edən əsas vacib aktdır. Türklərin mifik təfəkküründə advermə yaradılışın rəmzidir, ad əzəldir, daha əvvəl yaranmışdır. Adətən bu mərasim, uşağın doğulduqdan sonra yeddinci və ya onuncu günündə keçirilir. Lakin əgər qohumlar körpəyə necə ad verəcəyinə dair razılığa gələ bilməzlərsə bu mərasim hətta uşağın doğulmasından bir ay sonra belə keçirilə bilər. Azərbaycanda böyüklər (nənə və baba) dura-dura anadan olan uşağa ata və anasının ad qoyması hörmətsizlik sayılardı. Ona görə də əvvəlcə onlara müraciət edilir, rəy birliyi ilə razılıq əldə edilir. Körpənin ata və anası razı olmasalar da, çox vaxt qəbul etməli olurlar. Əks təqdirdə bu böyüklərə – evin ağbirçəyinə və ağsaqqalına qarşı ədəbsizlik sayılır [1,s.155]. Adlar millilik nişanəsidir və başqa dillərə heç vaxt tərcümə olunmur.

Advermə türklərdə sadə bir ritual deyil, hər şeyin yaranması, ilkini, başlanğıcı mənası daşıyan ritualdır və “Dədə Qorqud” kitabında bu missiya Dədə Qorqudun, Qorqud Atanın üzərinə düşür. Dastanda oğuzlar öz uşaqlarına, yeniyetmələrə və gənclərə adları xüsusi idman yarışlarının nəticələrinə görə qoyurdular: “Advermə motivi dastan ənənəsində qəhrəmanın epik bioqrafiyasını tamamlayan magik xeyir-duadır. Bundan sonra motivlər süjet xəttində hadisələrin qəhrəmanlıq fonunda getməsini təmin edir” [2,s.11]. Digər

bir yerdə isə deyilir: "Ol zamanda bir oğlan başkəsməsə, qan dökməsə, ad qomazlardı"[2,s.53]. Göründüyü kimi, ad elə-belə verilməz və bu bütün oğuz igidlərinin qarşısında, onların toplaşdığı yığıncaqda – qonaqlıqda verilərdi. Maraqlıdır ki, bu mərasimin izləri hələ də türk təfəkküründə öz varlığını qoruyub saxlayır.

Şəki-Zaqatala bölgəsindən toplanmış folklor mətnləri, etnoqrafik materiallar, həmçinin dil faktları bu bölgənin "Kitabi-Dədə Qorqud" dünyası ilə yaxından bağlı olduğunu göstərir. Şəki rayonunun Göynük kəndində övladından narazı olan valideyn onu belə danlayır: "Ad batırıf yurd itirən" [3,s.342]. Yəni adın batması, ləkələnməsi bütövlükdə yurdun, daha da irəli getsək, statusun itirilməsi kimi dəyərləndirilir. Qax rayonunun Sarıbaş kəndində işlədilən deyim isə belədir: "Adımı düz de, mənə beş çanax düyü töküb, ad qoyublar" [4,s.261]. Bu ifadədə ada münasibət özünü qabarıq şəkildə biruzə verir. Beləki böyüklər tərəfindən verilmiş adın qəsdən düz deyilməməsi təhqir hesab olunur və qarşı tərəfdə haqlı olaraq qıcıq yaradır. "Beş çanax düyü tökmək" ifadəsi isə adın elə-belə deyil də, adlandırılacaq uşağın şərəfinə məclis təşkil edib, orada ona ad verilməsinin sübutudur. Bölgədə işlədilən "İgid odur, Aladağda at oynada" [4,s.61,368] və yaxud "Şöhrət at belindədir" [4, s.225] deyimləri də müəyyən mənada "Kitabi-Dədə Qorqud" dastanı ilə səsləşməkdədir. Atın türk xalqlarının məişətində oynadığı rolu xatırlamaq bu baxımdan yerinə düşür. Ucsuz-bucaqsız əraziləri at belində fəth edən türk üçün at vazkeçilməzdir. Atla düzgün rəftar, atı hətta namusu saymaq türk xalqları üçün xarakterik haldır. Dastan qəhrəmanlarından bir neçəsinin epiteti də məhz atla bağlıdır: At ağızlu Aruz qoca, Boz ayğırlu Beyrək və s.

Zaqatala bölgəsində yaşayan azsaylı xalqlardan əslən saxur olan Əhmədova Xanpərinin məlumatına əsasən uşağın doğulmasından 40 günə qədər evin küncündə 1 stəkan suyun içinə yumurta qoyulur. Uşağın 40 günü çıxanda isə qədimdən indiyə kimi nəsildən nəsilə ötürülən dolçaya su tökməklə uşağı çimizdirirlər. Uşağın ad qoyulması ilə bağlıisə bizim kənddə- Gözbaraxda xüsusi bir mərasim isə keçirilmir [5]. Gözbarax kənd sakini Rəfiyeva İradənin dediklərinə əsasən, həm yenicə doğulan uşağın həm də ananın qoluna kəhrəba bağlayarlar. Həmçinin uşağı bəd nəzərdən qorumaq üçün beşiyinə dağdağan ağacından hazırlanan muncuq asarlar. Saxurlar adları qoyarkən əsasən nəsil şəcərəsinə üstünlük verirlər, yəni uşağa ad qoyarkən saxurlar nəsil adlarını çox müraciət edirlər. Eyni zamanda bölgədə daha çox yayılan adların bir qismi hörmət və ehtiram əlaməti olaraq dini adlardan da götürülür [6].

Balakəndə yaşayan azsaylı xalqlardan əslən avar olan Atayeva Könülün dediklərinə görə uşağın 40-ı çıxana kimi ana və körpə bayıra çıxmamalıdır. Uşağın10 günü çıxanadək heç bir məclis təşkil olunmaz, 10-u günündən sonra isə ehsan verilir. Qadınlar vəkişilər üçün ayrı məclislər təşkil edilir. Qadınlar belə məclislərdə başlarını örtür və dizdən aşağı paltar geyinirlər. Adqoyma

mərasimində ilk öncə qurandan ayələr oxunur daha sonra uşağı (qız və ya oğlan fərqi yoxdur) imamın qucağına verirlər o da körpənin qulağına onun adını 3 dəfə təkrarlayır. Bu mərasimdə qadınlar iştirak etmir. Həmçinin körpə uşağın dodağına bal çəkilir bu da onun həyatının gözəl, şirin keçməsi üçündür. Bəzən bal halva, qənd və ya konfetlə əvəz edilir.Uşağa adı seçilməsi isə hər iki tərəfin ağsaqqal, ağbirçəklərinə həvalə edilir.Demək olar ki,bölgədə kəndindən asılı olmayaraq bütün avar kəndlərində Şamil və Hacı Murad, Murad adlarına daha çox rast gəlmək mümkündür [7].

Adqoyma mərasimi ilə bağlı oxunan nəğmələr məişət mərasimi nəğmələrinin bir qoludur. Ümumiyyətlə, folklorda adqoyma bir motiv kimi iştirak edir.Əgər məişət nəğmələrinin bir qolu olan doğum nəğmələrində qadının sağlamlığı, körpənin həyata qədəm qoymasının uğurlu, qədəmlərinin düşərli olması tərənnüm edilirsə, adqoyma mərasimində oxunan nəğmələrin məzmunda uşağı yad ruhlardan qorumaq, qoyulan adın ilahi qüvvələr tərəfindən bəyənilməsi arzusu hiss olunur.  Bu, "Kitabi-DədəQorqud"da da özəksini tapır.

## Ədəbiyyat

1. Bünyadova Ş. Orta əsr Azərbaycan ailəsi.Bakı,2012.
2. Kitabi-Dədə Qorqud. Bakı,2004
3. Şəki folklor örnəkləri, III kitab. Bakı,2016
4. Tahirzadə R. Sarıbaş və sarıbaşlılar.Bakı,2013

## Söyləyicilər

**Şəxsi ekspedisiyadan**

5. informator Bakıda yaşayan əslən saxur olan 1993-cü il təvəllüdlü Əhmədova Xanpəri
6. informator Zaqatala rayonu, Gözbarax kənd sakini 1978-ci il təvəllüdlü Rəfiyeva İradə
7. informator əslən avar olan Bakıda yaşayan 1990-cı il təvəllüdlü Atayeva Könül

# РОЛЬ П.К.ЖУЗЕ В РАЗВИТИИ АЗЕРБАЙДЖАНСКОЙ НАУКИ

***Гюльнара Абиди***
*Бакинский Государственный Университет*
*gulnare_semedova@mail.ru*

**Ключевые слова:***наука, ученый,Бакинский университет, востоковедение, ислам.*

*В 20-30-е годы XX века наряду с рядом факторов в развитии науки и научных кадров в Азербайджане большую роль сыграли учение. Одним из таких ученых был П.К. Жузе. Родился в Палестине и учился в России Жузе, начавший здесь свою научную карьеру, переехал в Баку по приглашению Бакинского университета в 1920 году и выбрал этот город в качестве третьей родины. Этот ученый-востоковед, проработавший в Баку более 20 лет, сыграл важную роль в изучении средневековой истории Азербайджана, а также перевел на русский язык несколько арабских источников по истории Азербайджана.*

## P.K.JUZENİN AZƏRBAYCAN ELMİNİN İNKİŞAFINDAKI ROLU

**Gülnarə Abidi**

**Açar sözlər:** *elm, alim, Bakı Universiteti, şərqşünaslıq, İslam*

*XX əsrin 20-30-cu illərində Azərbaycanda elmin və elmi kadrların inkişafında bir sıra alimlər mühüm rol oynamışdı. Onlardan biri də P.K. Juze idi. Fələstində anadan olan və Rusiyada təhsil alaraq elmi fəaliyyətə başlayan Juze, 1920-ci ildə Bakı Universitetinin dəvəti ilə Bakıya köçür və bu şəhəri üçüncü vətəni seçir. 20 ildən çox Bakıda işləyən bu alim-şərqşünas Azərbaycanın orta əsrlər tarixinin öyrənilməsində mühüm rol oynamış, eyni zamanda Azərbaycan tarixinə dair bir neçə ərəb mənbəsini rus dilinə tərcümə etmişdir.*

## P.K. JUZE'S ROLE IN THE DEVELOPMENT OF AZERBAIJANI SCIENCE

**Gulnara Abidi**

**Key words :***science, scientist, Baku University, orientalism, islam*

*In the 20-30th years of the 20th century, along with a number of factors in the development of science and scientific cadres in Azerbaijan, a great role was played by scientists. One such scientist was P.K. Juze. Was born in Palestine and studied in Russia Juze, who began his scientific career, moved to Baku at the invitation of the Baku University in 1920 and chose this city a third country. This oriental scientist, who has been working in Baku for more than 20 years, has played in important role in the study of medieval history of Azerbaijan as well as in the preparation of national cadres. P.K. Juze also translated several Arabic Language sources on Azerbaijani history into Russian.*

*****

В настоящее время сняты идеологические ограничения, и учёные имеют возможность изучать различные проблемы, не получившие ранее должного внимания. Серьёзное внимание со стороны современних исследователей получают неизвестние страницы истории востоковедения и его яркие, незаслуженно забытые представители. Среди них выделяется Пантелеймон Креетович Жузе (1870-1942 гг.)-российский и азербайджанский арабист и исламовед конца XIX-первой половины XX вв., основоположник ряда научних востоковедческих направлений, которые были развиты последующими поколениями ориенталистов.

Автор ряда научних монографий, учебних пособий, переводов, рецензий, доктор арабского языка и литературы, профессор П.К. Жузе проводил исследования: исламоведению, арабскомуязыку, истории ближневосточного христианства, истории Азербайджана. Его педагогическая деятельность была сосредоточена в различних учебних заведениях Казани и Баку, где учений долгае время преподавал в основном арабский язык, являясь автором первого в мире полноценного русско-арабского словаря. Однако заслуги ученого перед востоковедической наукой пока ещё не получили должной оценки в историографии, так же как и жизненный путь востоковеда не подвергался контексному исследованию. П.К. Жузе как педагог внёс огромный вклад в развитие преподования арабского языка в Азербайджане. Его труды и огромный опыт в этой сфере требуют всестороннего изучения с точки зрения педагогики. Интерес к изучению судьбы и научного творчества П.К. Жузе также определяется и необходимостью про анализировать обстаятельства связанные с формированием его мировоззрения.Работа Жузе в Казанскоми Азербайджанском университетах, позволяет проследить процесс развития востоковедческих исследований в этих учебник заведениях, расширить представление о развитии наука в Азербайджане.

Пантелеймон Крестович Жузе (урожденный Бандали ибн Салиба аль Джаузи) родился 20 июля 1870 года в Иерусалиме [11.с.21]. Родителями мальчика были православние арабы Салиба, сын Константина, аль Джаузи, и Анастасия, дочь Ханна Ансара. К сожалению, неизвестен род занятий родителей П.К. Жузе, известно лишь, что в семь лет Пантелеймон потерял мать, а в семнадцать-отца[8.с.23]. 29 сентября 1870 года Пантелеймон был крещен в иерусалимском храме св. Апастола Иакова. Восприемниками при крещении младенца были дядя Пантелеймона Давид (брать отца) и Елена, дочь Исаака аль Халеби[17.с.31-32 ]
Первоначальное образование учёный получил в двух православных ионастырях в Палестине и Ливане, затем в Назаретской семинарии [11.с.23], по окончании которой лучшие из воспитанников направлялись на учёбу в Россию в качестве степендиатов Палестинского общества для получения дальнейшего образования. Среди них был и выделявшийся своими знаниями П.К. Жузе. В России будущий учёныйпродолжил свое образование сначала в Вифанской семинарии (с 1889 г) а в 1892-1895 гг, в Московской духовной академии (МДА). Обучаясь в России, Жузе Коренным образом пересмотривает прежние взгляды о своей будущей деятельности в качестве священнослужителя. В конечном счете, детским мечтам Жузе так и не суждено было воплотиться в жизнь, он не стал священником, посвятив свою жизнь науке, изучению истории и проблем христианства на Ближнем Востоке, истории и современного состаяния ислама.

Таким образом, уже в Московской академии у Жузе сформировался стойкий и основательний научный интерес к востоковедению, который и привел его в Казанскую Духовную Академию-один из центров востоковедения Российской империи. Прошение студента было удовлетворено, и в 1895 году Пантелеймон Крестович был принят в число студентов IV курса Казанской духовной академии, которую закончил в 1896 году со степенью кандидата богословия [8.с.24]. С сентября 1896 года Жузе принят в штат академии, на кафедру арабского языка и истории и обличения магометанства [17.с.37-38]. Его курсовая работа, посвящённая мутазилитам, освещала религиозно-философское течение в исламе IX-X вв. и была высоко оченека в научных кругах. В последствии она была переработана автором в магистерскую диссертацию. При работе над ней Жузе изучил ряд редких арабских рукописей, находящихся в Египте в Каирской библиотеке(его поездка туда состаялась в 1897г.). По возращении из Египта в 1898 году Жузе предоставляет в Совет Казанской духовной академии сочинение под заглавием “Мутазилиты: Догматико-историческое исследование в области ислама“[16.с.36-37], на соискание степени магистра богословия. В 1899 году после успешной защиты, Жузе

был удостоен степени магистра.А труд, посвященный мутазилитам, нашёл сочувственный отзыв у ректора Академии Антония, который говорил: “Книга автора не узко специальное исследование, но маленькая энциклопедия, знакомящая нас с происхождением всех важнейших нравственних и вероучительних положений ислама“.В декабре 1899 года Жузе присягает императору Николаю II и получает российское подданство.[16.с.35, 41].

Большая заслуга в становлении и формировании Жузе как ученого принадлежить его научному руководителю, востоковеду и миссионеру М.А. Машанову (1852-1924). Именно он обратился к Совету Каз.ДА с просьбой об оставлении Жузе в академии в качестве сверх штатного практиканта арабского языка на кафедре арабского языка и “обличения мухаммеданство“.Совет академииудовлетворил просьбу Машанова. В сентябре 1896 г. Жузе начинает свои первые занятия арабским языком со студентами академии, в которой он проработает до 1916 г.

8 января 1903 г., Жузе жениться на выпускнице Варшавской женской гимназии Людмиле Лабрентьевне Зуевой (1880-1931). В семье ученого впоследствии родится семеро детей, которые станут известными учеными Советского Союза и России [9.с.96].

Педагогическая деятельность П.К.Жузе в казанский период его жизни не ограничивалась преподованием арабского языка. Кроме этого Жузе в 1899-1913 гг. Вёл здесь занятия по арабскому языку в Академии, переходит на штатную службу в Казанскую духовную семинарию. В семинарии Жузе преподает французский язык вплоть до её закрытия. С 1907 г. Жузе состоял членом учредителем Общества распространения образования в Казани и членом Совета основанной этим обществом частной мужской гимназии [8.с.49].

Педагогическую деятельность ученый совмещал с научной работой. В 1903 г. Жузе публикует один из главных своих трудов “Полный русско-арабский словарь“в двух томах, над которым работал несколько лет. Уникальность данного словаря была в том, что до середины XX в. он оставался единственным источником изучения арабского языка. Свободное владение арабским, турецким языками было высоко оценено государственными ведомствами: так, с 1 октября 1912 по 1917 гг. Жузе являлся цензором Временного Комитета по делам печати, заменив на этом месте ушедшего Н.Д. Катанова [15.л.27].А с началом первой мировой войны он совмещал этиобязанности с обязанностями военного цензора. [15.л.38].

В 1916 году Жузе покидает Академию и переходит на службу в Казанский университет. Сначала он читал студентам юридического факультета курс мусульманского права [9.с.97], о после упразднения

юридического факультета преподавал на факультете общественных наук. Одновременно с преподовательской деятельностью в университете (преподовал здесь до 1920 года) ученый читал курсы мусульмановедения и арабского языка в Северо-восточном археологическом и этнографическом институте [2.с.9-11]

В1919 г.в Баку открылся университет.Нехватка преподавательского состава остро встала перед новым университетом. С целью приглашения профессоров на вакантние кафедры осенью 1919 г. в Ростов, Днепролетровск, Харьков выезжали ректор университета В.И.Разумовский и декан историко-филологического факультета Н.А. Дубровский [13.с.9-10]. Предложения участвовать в конкурсе на замещение вакантных кафедр сообщались и в другие вузы России. На предложения Бакинского университета откликнулись многие казанские ученые.

Захлестнувшая Казань Гражданская война и начавшийся голод нелегким бременем легли на плечи казанцев. В очень непростом паложении оказалось профессура университета. Выдача жалованья в университете производилась с опазданием. Тем временем именно в Баку открылся университет. Так, в октябре 1920 г., в Баку приезжают профессора А.Д. Гуляев и А.О. Маковельский[10.с.14]. Жузе также пришемает предложение Бакинского Университета[3.с.14]. Этот университет, переименованний в 1922 в Азербайджанский государственний университет, был образован в составе двух факультетов-медицинского и историко-филологического. Последний имел в своем составе историческое, филологическое и восточное отделения. На восточном отделении и начал работу П.К. Жузе, выступив 19 апреля 1921 г. на заседании факультета с историческим для университета докладом. В докладе Жузе обосновывал необходимость преобразования восточного отделения в самостоятельный восточный факультет. Уже через год 12 апреля 1922 г., состоялось первое заседание нового факультета. Таким образом, в 1922 г. восточное отделение историко-филологического факультета Азербайджанского университета было реорганизовано в восточний факультет с двумя отделениями : историческим и словесности, а последнее, в свою очередь было разделено на две секции-турецкую и иранскую[1.с.48-49]. Заслуги восточного факультета в достижении научных успехов в области арабистики, ирановедения, тюркологии очень велики. Инициатором же создания самостоятельного восточного факультета, на котором возилкла целая научилая востокведческая школа, являлся профессор П.К. Жузе, который стал первым деканом Восточного факультета и занимал эту должность до 1926 г.

На наш взгляд, Пантелеймон Крестович руководствовался нескалькими мотивами. Во первых, перед учёным открывались

определенние перспективы, связанные с тем, что Бакинский университет действительно сильно нуждался в специалистах такого уровия и направления. Во вторых, Азербайджан по своему географическому паложению был намного ближе к Палестине, а П.К. Жузе к тому времени бсерьез задумывался о возвращении на родину. В третьих, тяжелое материальное положение, голодное существование в Казани не оставляли для главы немалочисленного семейства другого выбора...”Я хорошо помню,-писала в своем дневнике Анастасия Пантелеймоновна Жузе, -наш переезд всей семьей из Казани на параходе. Ехали мы пароходам до Астрахани, мама, папа, и нас семеро детей. Младшей Оле было 5 лет, мне-15. Из этой поездки мне запомнилось немногое, и, как ни стыдно сознаться, - ожидание обеда и вкуса чудесных щей. Мама спускалась в пароходний трюм, где и готовила эти щи, которые казались нам особенно вкусными после казанской голодовки“ [14.с.73-74].

Как отмечено, сразу по приезду в Баку П.К. Жузе активно приступил к своей работе на историко-филологическом факультете университета. В том же 1920 г., он получает звание профессора кафедры арабского языка и литературы восточного отделения. В 1921 году Жузе была присвоено степень доктора арабского языка и словесности. Живя в Баку, Жузе пришлеал активнейшее участие в работе комитета нового латинского алфавита в Азербайджане [6.л.24-28].

В 1923 г. Жузе издает хрестоматию по арабскому языку, которая была высоко оценена И.Ю. Крагковским. Большое внимание Жузе уделял изучению наследия средневековых арабских историков, видя в нем важнейший источник по истории Закавказья. В 20-х гг. XX в. востоковед перевёл на русский язык и опубликовал части сочинений арабских историков-Баладзори и ал-Йакуби. Отрывки, впервые переведенние на русский язык учёным, касашсь средневековой истории Азербайджана. Ценность источника определялась не только отражением истории арабских военных походов, покорении арабами Азербайджана, по и содержанием богатой информации о населении, миграциях, налоговой системе покоренных народов и многом другом. Материал по истории Азербайджана, приводимый Йакуби в своем сочинении, по словом З.М. Буниятова, “не имеет параллелей в других источниках“, поэтому также вызывал большой интерес [2.с.7-8].

В 1940 г. Пантелеймонам Крестовичем был опубликован перевод части сочинения историка Ибн ал-Асира. Его труд “Ал-Камил фи-т-тарих“(“Полный свод по истории“) представлял собой фундаментальную работу по всемирной истории, в там числе затрагивающий и политическую историю Азербайджана. В своем труде Ибн ал-Асир, сконцентрировал огромное количество сведении по различным аспектам

истории Азербайджана, его областей, городов, населения и т.д. Таким образом, П.К. Жузе впервые ввел в оборот отечественного востоковедения важные средневековыеисточники по истории Азербайджана.

Заслуга организации восточного отдела библиотеки Бакинского университета также принадлежала П.К. Жузе. На средства, выделенние СНК, в 1924 г. В Станбуле было приобретено более двух тысяч книг. К 1928 г. фонды восточного отдела библиотеки включали в себя более 10.000 томов сочинений по Среднему и Ближнему Востоку на многих восточных и европейских языках. [12.с.271].

В 1921 г. выходит работа ученого "Папак и папакизик истории коммунистического движения в Азербайджане в IX в. по Р.Х.". Работа основана на арабских первоисточникахи освещает народное восстание под предводительством Папака (Бабека). Заслуга Жузе была в том, что он смог показать предпосылки, ход, результаты крупнейшего анти-халифатского движения, детально и обстоятельно ввел в историческую науку ценнейшие, неизвестние ранее сведения об этом событии.

В 1932 г. было создано Азербайджанское отделение Закавказского филиала Академии наук СССР. В составе этого отделения был сформирован Институт истории, языка и литературы[4.с.19], где с 1937 по 1942 г. работал П.К. Жузе, продалжая заниматься изучением арабских источников. Последней крупной научной работой, которая вышла при жизни ученого, стал коллективный труд сотрудников Института Истории Аз.ДАН-"История Азербайджана. Краткий курс. (с древнейших времен до XIX века" (Баку, 1941–210с.). В подготовке глав по средневековому периоду принял участие и П.К. Жузе.

Еще с 9 ноября 1923 г. в связи с созданием историко-этнографической секции "Общества обследования и изучения Азербайджана" проф. П.К. Жузе был избран в состав исторической комиссии, а в 1929 г., работая уже в Аз.ГНИИ, являлся паучним сотрудником I разряда отдела "Советского и Зарубежного Востока", где вёл активную, плодотворную научную и организаторскую деятельность [7.с.380].

В 1930-х гг. здоровье Пантелеймона Крестовича заметно ухудшилось, причиной тому явилось перенесенная им череда крупних нервних потрясений. В 1931 г. умирают жена Людмила и дочь Александра. 1935 г. оказывается в административной ссылке, через два года-под арестом за "участие в антисоветской группе" старший сын Владимир[3.с.8-9]. Сердечное заболевание не позволило ученому принять участие в работе 2-й сессии Ассоциации арабистов СССР, проходившей 19-23 октября 1937 г. в Ленинграде при Институте востоковедения Академии наук СССР. П.К. Жузе был подготовлен доклад "Расселение арабских племен по Закавказью и дольнейшая их судьба". Понятно, что

доклад бакинского профессора заслушан не был, но публикация тезисов доклада состоялась [5.с.25-26].

С началом Великой Отечественной войны больного ученого заключили под арест в связи с подозрением в шпионаже. Сколько времени П.К Жузе пробыл под арестом неизвестно, но этого срока оказалось достаточно для того, чтобы здоровье ученого было окончательно подорвано. Вина Пантелеймона Крестовича не была доказано и он оказался на свободе. 19 января 1942 г. Пантелеймона Крестовича Жузе не стало. По словам потомков Пантелеймона Крестовича, ученым было опубликовано более 200 научних работ, при этом около 300 трудов востоковеда так и остались в рукописком варианте и ждут своих исследователей в архивах Азербайджана и России.

**Литература**


1. Алимирзоев Х.О. Азербайджанский государственный университет за 50 лет : исторический очерк. Баку, 1969.
2. Буниятов З.М. Обзор источников по истории Азербайджана. Баку, 1964.
3. Владимир Пантелеймонович Жузе (1904-1933). Жизнь и научная деятельность : очерки, СПБ., 2004.
4. Востоковедение в Советском Азербайджане. Баку, 1964.
5. Вторая сессия Ассоциации арабистов. Резолюция, принятая на заседании 23 октября 1937. Л., 1937.
6. ГААР, ф 1610 оп.1.Д.59.Л.24-28.
7. Керимова Т.С. Из истории Начиональной Академии наук Азербайджана. Баку, 2005.
8. Кострюков М.А. Жузе Пантелеймон Крестович : научно-педагогическая и общественная деятельность./Канд. диссертация/. Казань, 2010.
9. Кострюков М.А., Хабибуллин М.З. Пантелеймон Крестович Жузе: Жизненный путь и научное последие видного представителя казанского востоковедения.
10. Корбут М.К. Казанский государственный университет имени В.И. Ульянова-Ленина за 125 лет. Казань, 1930, Т. I.
11. Крылов А. Императорское Провославное Общество и отечественное востоковедение. М.,2007.
12. Известия Восточного факультета Бакинского государственного университета. Баку, 1929, Т. IV.

13. Маковельский А.О. Азербайджанский государственный университет имени Ленина. Первое десятилетие 1919-1929. Баку, 1929.
14. Мухина В.В., Казарина Г.Х., Маркова А.К. Школа А.П. Жузе. /Природа, 2005, №7/.
15. НА РТ ф.420. Оп 1.Д.110.Л.29,38.
16. Протоколы заседаний Совета Казанской духовной академии за 1911 г. Казань, 1912.
17. Шауки Абу Халиль. Бендали Салиба ал Джаузе. Его эпоха, биография, наследие. /Докт. диссертация/Баку, 1990.

# CƏNUBİ QAFQAZIN ORTA TUNC DÖVRÜ MƏDƏNİYYƏTİ VƏ NAXÇIVAN ABİDƏLƏRİ

**Abbas Q. Seyidov**
AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu
abbas.seyidov@gmail.com

**Açar sözlər:** *Naxçıvan, Urmiya ətrafı, Anadolu, Cənubi Qafqaz, boyalı qablar mədəniyyəti*

*Məqalədə Naxçıvan Muxtar Respublikası ərazisində tədqiq olunan Orta Tunc dövrü abidələrinin Cənubi Qafqazın Orta Tunc dövrü mədəniyyəti arasında tutduğu yerə diqqət yetirilir. Araşdırmalar göstərir ki, bu dövrün bütün mərhələləri Naxçıvan abidələrində ardıcıllıqla əks olunub. Naxçıvanın Orta Tunc dövrü abidələrinin Cənubi Qafqazın həmdövr abidələri ilə müqayisəli təhlilindən məlum olur ki, Urmiya gölü ətrafında yerləşən Göytəpə, Haftavantəpə, Dinkatəpə, Naxçıvanda Qızılburun, Qız qalası, Şahtaxtı, I Kültəpə, II Kültəpə, Çalxanqala, Şərqi Anadoluda Van gölündən şərqdə yerləşən abidələr bu dövrdə boyalı qabların əsas istehsal mərkəzlərindən olmuşdur.*

## СРЕДНЕБРОНЗОВАЯ КУЛЬТУРА ЮЖНОГО КАВКАЗА И ПАМЯТНИКИ НАХЧЫВАНА

**Аббас Г. Сеидов**

**Ключевые слова:***Нахчыван, Урмия, Анатолия, Южный Кавказ, культура расписной посуды*

*В статье уделено внимание месту изученных памятников среднебронзового века на территории Нахчыванской Автономной Республики среди культур среднебронзовыхпамятников Южного Кавказа. Исследования показывают, что все этапы этого периода отражены в памятниках Нахчывана. Сравнительный анализ памятников данного периода Нахчывана с современными памятниками Южного Кавказа показывает, что Гёйтепе, Хафтавантепе, Динкатепе, расположенные вокруг озера Урмия, Гызылбурун, Гыз галасы, Шахтахты, Кюльтепе I, Кюльтепе II, Чалхангала в Нахчыване, и памятники к востоку от озера Ван в Восточной Анатолии были одним из главных производственных центров расписной посуды.*

# MIDDLE BRONZE AGE CULTURE OF THE SOUTH CAUCASUS AND NAKHCHIVAN MONUMENTS

**Abbas Q. Seyidov**

***Keywords:*** *Nakhchivan, Urmia, Anatolia, South Caucasus,painted pottery culture*

*The article focuses on the place of the Middle Bronze Age monuments studied in the territory of the Nakhchivan Autonomous Republic among the Middle Bronze Age culture of the South Caucasus. Research shows that all stages of this period are reflected in the monuments of Nakhchivan. A comparative analysis of the Middle Bronze Age monuments of Nakhchivan with the contemporary monuments of the South Caucasus shows that Goytepe, Haftavantepe, Dinkatepe, located around Lake Urmia; Gizilburun, Gız galası, Shahtakhti, Kultepe I, Kultepe II, Chalkhangala located in Nakhchivan, the monuments on the east of Lake Van in Eastern Anatolia were the main centers of production of painted pottery during this period.*

Naxçıvanın Orta Tunc dövrü (e.ə. III minilliyin ortaları ilə e.ə. II minilliyin ortaları) abidələrinin tədqiqi göstərir ki, bu abidələr daha aydın stratiqrafiyaya malikdir. Bu dövrün bütün mərhələləri Naxçıvan abidələrində ardıcıllıqla əks olunur. Bu isə, regionda əhalinin uzun müddət məskunlaşması, şübhəsiz ki, ərazinin əkinçilik və maldarlıq üçün əlverişli olması, həmçinin Yaxın Şərqin qədim mədəniyyət mərkəzlərinə yaxınlığı ilə bağlı olmuşdur.

Orta Tunc dövrünün formalaşması haqqında tədqiqatçılar arasında bir neçə fikir mövcuddur. Bəziləri belə hesab edir ki, Orta Tunc dövrü mədəniyyəti Cənubi Qafqaz ərazisinə Ön Asiya etnik qrupları tərəfindən gətirilmişdir. Ç.Barney, C.Mellart isə bu mədəniyyətin yayılmasını cənubdan deyil, şimaldan - hind-avropa əhalisinin gəlişi ilə bağlayırlar [1]. Bu fikrə şərik olan və yanlış düşünən müəyyən tədqiqatçılar belə hesab edir ki, İran, Şimali Qafqaz və Kiçik Asiyadan gələn tayfaların yerli əhalini assimlyasiya etməsi nəticəsində e.ə. III minilliyin sonlarında Cənubi Qafqaz ərazisində Orta Tunc dövrü mədəniyyəti meydana çıxmışdır [258, s. 20]. Lakin bu dövrün tədqiqi ilə məşğul olan əksər tədqiqatçılar gil məmulatını, tikinti texnikasını və s. əsas götürərək, İlk Tunc və Orta Tunc dövrü mədəniyyətlərinin arasında genetik bağlılığın olduğunu göstərirlər [3; 4; 5; 6]. Xüsusilə, Naxçıvan ərazisində O.Həbibullayev, V.Əliyev, V.Baxşəliyev, bu əsərin müəllifi və d. tərəfindən ardıcıl aparılmış arxeoloji qazıntı işlərinin nəticələri sübut edir ki, Naxçıvan ərazisində Orta Tunc dövrü mədəniyyəti İlk Tunc dövrü mədəniyyətinin təbii davamı kimi

meydana çıxmışdır [7; 8].

Qafqazşünas arxeoloq K.Kuşnaryeva Cənubi Qafqaz ərazisində orta Tunc dövrünə aid əvvəllər iki—"Qərbi Zaqafqaziya" və "Trialeti" mədəniyyətinin, sonra isə daha iki—"Karmirberd" (Təzəkənd) və "Karmirvəng"—(Qızılvəng) mədəniyyətinin olduğunu göstərir və Sevan-Üzərlik qrupuna aid olan abidələri də buraya əlavə edir. O, "Qızılvəng mədəniyyəti" deyərkən, boyalı qablarla zəngin olan Naxçıvan ərazisində yerləşən Qızılburun abidəsini göstərməklə yanaşı, millətçilik hislərinin təsiri altında bu abidəni həm də "Karmirvəng" adlandırır [9, s.94-95,164]. Necə deyərlər, erməni yalanı və xisləti hər zaman göz qabağındadır.

Lakin qeyd etməliyik ki, əvvəla, Qızılburun abidəsi heç bir zaman, heç kəs tərəfindən "Karmirvəng" kimi adlanmayıb. Bu,Tiflis ermənisi olan K.Kuşnaryevanın şəxsi illuziyasıdır ki, Azərbaycan ərazisində yerləşən bir abidənin adı ilə bağlı söz birləşməsini digər xalqın(həm də özünün) mənşəyi ilə bağlamağa cəhd göstərir və burada xarabalıqları olan monastrı əsas kimi göstərir. İkincisi, bu ərazidə vaxtilə mövcud olmuş monastr son orta əsrlər dövrünə aiddir və onun Tunc, Dəmir dövrləri ilə heç bir əlaqəsi yoxdur. Üçüncü, o yer əhali arasında "Qızılburun" adlanır. "qızıl" sözü türk dilində "qırmızı" deməkdir.

Yeri gəlmişkən qeyd edim ki, vaxtilə Rusiya Elmlər Akademiyası Leninqrad (indiki S-t Peterburq) filialının "Qafqaz arxeologiyası" şöbəsinin müdiri işləyən Karina Kuşnaryeva 1988-1990-cı illər arasında mənim dissertasiya işimin dəfələrlə həmin institutda müzakirə olunmasına və mənə "sənin şox gözəl dissertasiya işin var" deməsinə baxmayaraq, müdafiə etməyimə razılıq vermədi.

Başqa bir yerdə yenə də K.Kuşnareva, təhrifə yol verməklə,Cənubi Qafqaz arxeologiyasına yanlışlıq gətirmiş, Naxçıvanın boyalı qablarla zəngin olan abidələrini qismən son "Trialeti mədəniyyəti"nin sərhədləri daxilində göstərib. Lakin, sonra özü də etiraf edib bildirib ki, «dördüncü stil» keramika adlanan boyalı qablar mədəniyyətinin ilkin məkanı məhz Naxçıvan-Urmiya rayonudur və demək olar ki, bu stil keramikayaCənubi Qafqazın başqa yerlərində rast gəlinmir. Belə arxeoloji materiallar qarışıq şəkildə ancaq Cənubi Azərbaycan ərazisindən məlumdur ki, bu da həmin abidələrin eyni arxeoloji mədəniyyətə aid olduğunu deməyə əsas verir [9, s.163-167].

Araşdırmalar tam mənada sübut edir ki, «Naxçıvan mədəniyyəti» kimi tanınan bu mədəniyyət sonralar qonşu şimal və qərb bölgələrə məhz bu ərazidən yayılmışdır.

Naxçıvanın Orta Tunc dövrü abidələrinin tikinti texnikasında da Cənubi Qafqaz abidələri ilə müqayisədə müəyyən bənzər və fərqli cəhətlər nəzərə çarpır. II Kültəpə yaşayış yerində rast gəldiyimiz müdafiə divarı çay daşlarından hörülmüş təməl üzərində, dördkünc formalı çiy kərpicdən

tikilmişdir. Kərpiclər bir neçə sıra düzülmüş və gil məhlulla möhkəmləndirilmişdir. Narınqalanın divarı ümumi planda beşkünc formalı olub, küncləri yuvarlaqdır [5, s.28].

Azərbaycanda Qaraköpəktəpə, Üzərliktəpə və Göytəpə (Urmiya hövzəsi) kimi abidələrdə də müdafiə divarı eyni texnika ilə tikilmişdir. Üzərliktəpənin müdafiə divarı daha yaxşı qalmışdır. Divardakı kərpiclərin ölçüləri 38x38x8, 40x40x8, 42x42x8, 46x46x8, 48x48x8 sm-dir. Kvadrat formalı kərpiclər 7 sıra düzülərək, gil məhlulu ilə bərkidilmişdir.

Qeyd edək ki, Naxçıvanın İlk Tunc dövrü abidələrindən tapılmış çiy kərpiclər uzunsov, Orta Tunc dövrünə aid çiy kərpiclər isə dördküncdür. Lakin II Kültəpənin İlk Tunc dövrü təbəqəsinin ən üstdə yerləşən birinci və ikinci tikinti qatlarında aşkar olunan düzbucaqlı evlər və onların tikintisində istifadə edilən çiy kərpiclər dördkünc formalıdır. Bu da İlk Tuncdan Orta Tunca keçid mərhələsinin tikinti texnikasında və materialında genetik bağlılığın olduğunu göstərir.

Orta Tunc dövrü yaşayış yerlərində aşkar olunan tikililər düzbucaqlıdır. Lakin onlar tikinti texnikasına görə bir-birindən fərqlənirlər. Belə yaşayış evləri II Kültəpədə daha yaxşı tədqiq olunmuşdur. Onlar daş təməl üzərində tikilmiş kərpic evlərdən ibarətdir. Binaların döşəməsi gillə suvanmış, bəzi hallarda kərpiclə örtülmüşdür. Bəzi binaların içərisində təsərrüfat quyularına rast gəlinmişdir [5, s.35].

Qeyd etmək yerinə düşər ki, Üzərliktəpədə aşkar olunan düzbucaqlı evlər tikinti texnikasına görə fərqlənir. Ağacdan qurulan bu evlərin divarları qalın çubuqlardan düzəldilmiş və gillə suvanmışdır. Evin torpaq döşəməsi həsirlə örtülmüşdür. Araşdırmalar göstərir ki, bu tip evlərdən Üzərliktəpədə uzun müddət istifadə olunub [9, s.154]. Belə evlərə Azərbaycanın şimal bölgəsində - Sərkərtəpə abidəsində də rast gəlinib [10, s. 257-259].

Azərbaycanın digər bölgələrində aşkar olunan bu dövrün arxeoloji abidələri Orta Tunc dövrü mədəniyyətinin öyrənilməsi üçün olduqca əhəmiyyətlidir. Orta Tunc dövründə daş qarışıq torpaq kurqanlara və onların kromlexlə əhatə olunmasına Azərbaycan ərazisində yerləşən bir sıra abidədə rast gəlinir. Daş qutu tipli qəbir abidələri Naxçıvan ərazisində geniş yayılıb.Naxçıvanın Orta Tunc dövrünə aid yaşayış yerləri ilə qəbir abidələrinin materialları bir-birini tamamlayır. Bu ərazinin Orta Tunc dövrü qəbirləri əsasən torpaq və daş qutu tipli olub, üzəri torpaq qarışıq kurqanla örtülüb. Bir qrup qəbirdə ölünün olduğu kimi (inqumasiya) basdırılmasına (Çalxanqala kurqanları, Qızılburun, Ağsal nekropolu və b) və ikinci qrupa aid skeletsiz qəbirlərə (I Şahtaxtı, II Şahtaxtı, Kükü və b.) rast gəlinir. Həmçinin tək, cüt və kollektiv dəfn (Qızılburun, Naxçıvan nekropolu və b.) adətləri qeydə alınmışdır.

Naxçıvanın Orta Tunc dövrünə aid qəbir abidələrinin öyrənilməsi zamanı bu ərazidə ilk dəfə olaraq kurqan tipli abidələrə rast gəlinib. Qeyd edək

ki, Azərbaycanın digər bölgələrində [3, s. 35-38] olduğu kimi, Naxçıvan ərazisində də İlk Tunc dövrünə aid kurqanlar qeydə alınıb [11, s.71-75].

Naxçıvanın haqqında danışılan dövr abidələrindən aşkar olunan gil məmulatı əsasən qulpsuz olmasına, rənginə, tərkibinə və naxışlanma texnikasına görə iki böyük qrupa ayrılır. Çəhrayı və qırmızı bişimli birinci qrupa aid boyalı keramika Naxçıvan və Urmiya ətrafı arxeoloji abidələri üçün xarakterikdir. Azərbaycanın digər regionlarında isə, əsasən qara cilalı, cızma və basma naxışlı boz və qara rəngli qablar geniş yayılmışdır. Bu rayonlarda boyalı qablara az rast gəlinir.

Naxçıvan abidələrində tez-tez izlənilən düz, dalğalı xətlərlə, üçbucaq formalı naxışlarla bəzədilmiş monoxrom boyalı keramika Üzərliktəpənin III təbəqəsindən də məlumdur. Lakin bu keramika aşkar edilmiş materialın cəmi iki faizini təşkil edir. Cənubi Qafqazda monoxrom boyalı küpələr Gürcüstan və Ermənistan Respublikasınınərazisində də aşkar olunub. Gürcüstanda monoxrom boyalı küpələr Trialeti kurqanlarından əldə edilib. Bu qabların naxışlama motivi Naxçıvan abidələrindən aşkar olunan keramikanın bəzəmələrini tamamilə təkrar edir. Ermənistan Respublikası ərazisindən monoxrom boyalı küpələr məlumdur[9, s.92-163, şəkil 54,s.100-133, 155, şəkil 58]. Cənubi Qafqazın bu regionundan aşkar olunan boyalı qablar, bilavasitə Naxçıvan abidələrindən tapılan boyalı qablarla oxşardır.

Polixrom boyalı qablar isə Cənubi Qafqazda və Azərbaycanda əsasən Naxçıvan arxeoloji abidələrindən aşkar edilib. Azərbaycanın digər rayonlarından polixrom qablar tək-tək nümunələrlə bəllidir. Polixrom boyalı qablar Şərqi Anadoluda da geniş şəkildə yayılıb [12, s. 25-44]. Naxçıvan və Urmiya ərazisindən fərqli olaraq, boyalı qablar Azərbaycanın digər rayonlarında forma verməyən parçalarla və az miqdarda təmsil edilib.

Gürcüstanın Orta Tunc dövrünə aid zəngin kurqanlarında tək-tək nümunələrlə boyalı qablara rast gəlinir. Gürcüstanın cənub ərazilərindən tapılan, qırmızı üzərindən qara rənglə çəkilmiş dalğalı xətlərdən ibarət olan boyalı qabları tədqiqatçılar cənub bölgələrinin təsiri ilə bağlayırlar. Müasir Ermənistan Respublikası ərazisində Gürcüstana nisbətən boyalı qablar daha çoxdur. Bu monoxrom boyalı qablar qırmızı üzərindən qara rənglə çəkilmiş üçbucaqlarla və romblarla naxışlanıb. Qərbi Azərbaycan ərazisindən tapılan monoxrom boyalı qablar müxtəlif qəbirlərdən əldə edildiyindən, onların dəqiq xronologiyasını vermək mümkün deyil. K.Kuşnaryeva eyni zamandaqeyd edir ki, boyalı qabların mərhələləri Azərbaycandan başqa Cənubi Qafqazın digər respublikalarının ərazisində izlənmir və Naxçıvanın boyalı qablarının bənzərlərinə heç yerdə rast gəlinmir. Naxçıvan abidələri təkcə qəbirlərlə deyil, yaşayış yerləri ilə də təmsil olunurlar [9, s.100, 127, 136, 140,163-164, şəkil 50-53].

Naxçıvanın Orta Tunc dövrü abidələrinin Cənubi Qafqazın həmdövr

abidələri ilə müqayisəli təhlilindən məlum olur ki, Urmiya gölü ətrafında yerləşən Göytəpə, Haftavantəpə, Dinkatəpə, Naxçıvanda Qızılburun, Qız qalası, Şahtaxtı, I Kültəpə, II Kültəpə, Çalxanqala, Şərqi Anadoluda Van gölündən şərqdə yerləşən abidələr Orta Tunc dövründə boyalı qabların əsas istehsal mərkəzlərindən olmuşdur.

**Ədəbiyyat**

1. Burney C.A. Eastern Anatolia in the Chalcolithic and Early Bronze Age. Anatolian studies, 1958. vol. VIII, pp. 157-199.
2. Симонян А.Е. Культура эпохи средней бронзы северных районов Армянского нагорья. Автореф. диссерт. на соиск. канд. ист. наук. Ленинград: 1954, 19 с.
3. Cəfərov H.F. Azərbaycan e.ə. IV minilliyin axırı – I minilliyin əvvəllərində (Qarabağın Qarqarçay və Tərtərçay hövzəsinin materialları əsasında). Bakı: Elm, 2000, 187 s.
4. Əliyev V.H. Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı: Elm, 1977, 164 s.
5. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку, "Элм", 1991, 256 с.
6. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку, "Элм", 1982, 314 с.
7. Baxşıliyev V.B., Seyidov A.Q. Naxçıvanın qədim tarixi. Bakı: Azərbaycan nəşr., 1995, 62 s.
8. Seyidov A.Q. Naxçıvan Tunc dövründə. Bakı: Elm, 2000, 318 s.
9. Кушнарева К.Х. Южный Кавказ в IX-II тысячелетиях до н.э. Санкт-Петербург: 1993, 312 с.
10. Мусаев Д.Л. Археологические исследования поселения ранней бронзы на Бориспольтепе. Тезисы. докладов. Всесоюзной археологической конференции, Баку: 1985, с.257-259.
11. Aşurov S.H. Naxçıvanın tunc dövrü qəbir abidləri və dəfn adətləri //Azərbaycan Arxeologiyası, Bakı, 2004, s.71-75.
12. Çilingiroğlu A. Qaziantep muzesindeki Van-Urmiye boyalıları. Ege Universitesi Arxeoloji ve Sanat Tarihi Dergisi. V., 1990, s.25-44.

# İRƏVAN XANLIĞININ ÇAR RUSİYASI TƏRƏFİNDƏN İŞĞALI TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA

**Vidadi Umudoğlu Umudlu**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
E-mail: v.umudlu@yahoo.co.uk

**Açarsözlər:***Türk tarixçilər, İrəvan xanlığı, çar Rusiyası, işğal, Paskeviç, Hüseyn xan, erməni kilsəsi*

*Təqdim edilən məqalədə xanlığın müstəqilliyi uğrunda görülən tədbirlər, əhalinin müqaviməti və nəhayət rus qoşunları tərəfindən işğal tarixi türk tarixçilərinin əsərləri əsasında təqdir olunmuşdur. Məlumdur ki, Əfşarlar imperiyasının dağılmasından sonra Azərbaycan çoxsaylı xanlıqlara bölündü. Bu xanlıqlardan biri də Azərbaycanın qərbində yerləşən İrəvan xanlığı idi. İrəvan xanlığının çar Rusiyası tərəfindən işğalı Azərbaycan tarixinin qara səhifələrindən birini təşkil edir. XIX əsrin əvvəlində başlayan işğal prosesi Rusiya ilə Qacar dövləti arasında imzalanan Türkmənçay müqaviləsi ilə rəsmiləşdirilmişdir. Hadisələri obyektiv təhlil edən türk tarixçiləri əldə etdikləri nəticələri ətraflı şəkildə türk elmi ictimaiyyətinin diqqətinəçatdırmağa səy göstərmişlər.*

*Məqalədə türk tarixçilərindənH.Oktay, K.Beydilli, M.Bi, E.Urasvə digərlərinin İrəvan xanlığı ilə bağlı araşdırmalarından istifadə olunmuşdur. İşğala qədər xanlıqda baş verən hadisələr, çar Rusiyasının Qafqazdakı işğalçılıq siyasəti, xanlığın ərazisinə edilən hərbi yürüşlər qısa şəkildə öz əksini tapmışdır. Hadisələrin gedişində erməni din xadimlərinin və onların təhrik etdiyi erməni əhalisinin pozuculuq fəaliyyətinə də yer verilir. Yeri gəldikcə arxiv sənədlərindən dəistifadə olunub.*

## ОККУПАЦИЯ ИРАВАНСКОГО ХАНСТВА ЦАРСКОЙ РОССИЕЙ, В ИСТОРИОГРАФИИ ТУРЦИИ

**Видади Умудоглу Умудлу**

**Ключевые слова:***Турецкие историки, Иреванское ханство, царская Россия, оккупация, Паскевич, Гусейнхан, Армянская церковь*

*В статье, основанной на трудах турецких историков, описаны меры, принятые для обеспечения независимости ханства, сопротивление населения и, наконец, история оккупации русскими войсками. Известно,*

*что после распада империи Афшар Азербайджан был разделен на многочисленные ханства. Одним из таких ханств было Иреванское ханство, расположенное на западе Азербайджана. Оккупация Иреванского ханства царской Россией – одна из черных страниц в историиАзербайджана. Процес соккупации, начавшийся в начале XIXвека, был оформлен Туркменчайским соглашением, подписанным между Россией и государствами Каджара. Турецкие историки, объективно проанализировавшие события, постарались подробно довести свои выводы до сведения турецкого научного сообщества.*

*В статье исследуются труды турецких историков Х. Октая, К.Бейдилли, М.Би, Э.Ураса и других авторов об Иреванскомханстве. Кратко отражены события, происходившие в ханстве до оккупации, а также оккупационная политика царской Россиина Кавказе и военные походы на территорию ханства. В ходе событий освещаются деструктивные действия армянского духовенства, а также спровоцированные ими армянского населения. В статье использованы архивные документы.*

## THE OCCUPATION OF THE IRAVANIAN KHANATE BY TSARIST RUSSIA, IN THE HISTORIOGRAPHY OF TURKEY

**Vidadi Umud oglu Umudlu**

**Key words:***Turkish historians, Iravan khanate, tsarist Russia, occupation, Paskevich, Huseynkhan, Armenianchurch*

*The article, based on the works of Turkish historians, describes the measures taken to ensure the independence of the khanate, the resistance of the population and finally, the history of the occupation by the Russian troops. It is known that after the collapse of the Afshar empire, Azerbaijan was divided into numerous khanates. One of these khanates was the Iravan Khanate, located in the west of Azerbaijan. The occupation of the Iravan Khanate by tsarist Russia is one of the black pages in the history of Azerbaijan.The occupation process, which began in the early 19th century, was formalized by the Turkmenchay agreement signed between Russia and the Qajar states. Turkish historians, who objectively analyzed the events, tried to bring their conclusions to the attention of theTurkish scientific community in detail.*

*The article examines the works of Turkish historians H. Oktay, K.Beydilli, M.Bi, E.Urasand other authors about the Iravan Khanate. The events that took place in the khanate before the occupation, as well as the occupation policy of tsarist Russiain the Caucasus and military campaigns on*

*the territory of the khanate are briefly reflected. During the events, the destructive actions of the Armenian clergy, as well as the Armenian population provoked by them, are covered. The article uses archival documents.*

**Giriş.** Əfşarlar imperiyasının dağılmasından sonra müstəqillik qazanan İrəvan xanlığı çox əlverişli coğrafi və strateji mövqedə yerləşirdi. Azərbaycanın qərb torpaqlarını əhatə edən xanlıq Osmanlı dövləti, Qacarlar və Gürcüstanla həmsərhəd idi. XIX əsrin başlanğıcında uğurlu siyasət yeridən İrəvan xanları bölgənin vəziyyətini xeyli yaxşılaşdırmış və xanlığın müdafiə qüdrətini yüksəltmişdilər. Xanlığı Qacarlar sülaləsindən olan xanlar idarə edirdi. Rusiya işğalı ərəfəsində xanlığı idarə edən Hüseyn xan İrəvanın son xanı olmuşdur. Osmanlı dövləti ilə həmsərhəd olan xanlığının tarixi Türkiyə tarixşünaslığında özünəməxsus yer tutur. Bir sıra türk tarixçisi, o cümlədən H.Oktay, K.Beydilli, E.Uras, M.Bi və digərləri xanlığı tarixi ilə bağlı araşdırmalar aparmış, Rusiya işğalının və erməni din xadimlərinin fəaliyyətini ətraflı şəkildə təhlil etməyə çalışmışlar.

Məlumdur ki, XIX əsrin əvvəllərindən başlayaraq xanlıq Rusiya imperiyasının hədəfinə çevrilmiş, hələ 1801-ci ildə xanlığa məxsus olan Pəmbək və Şorayel sultanlıqları Şərqi Gürcüstanla birlikdə ələ keçirilmişdi. 1804-cü ildən başlayaraq rus qoşunlarının İrəvan xanlığına qarşı hücumları intensivxarakter almışdır. Həmin ildə Qacar şahzadəsi Abbas Mirzənin başçılığı ilə şah qoşunlarının yürüşü də xanlığın siyasi vəziyyətinə ciddi təsir göstərmişdir. Əsrin əvvəlində xanlığı idarə edən Məhəmməd xan xanlığın müdafiəsini təşkil etmiş, rus vəşah qoşunlarını geri oturda bilmişdir. Türk tarixçiləri xanın gördüyü tədbirlərə rəğbətlə yanaşmış, hadisələri obyektiv şəkildə təsvir etməyə nail olmuşlar. Xanlığın işğalında öz xidmətini əsirgəməyən erməni din xadimləri və onların təhrik etdiyi erməni əhalisinin pozuculuq fəaliyyəti də türk tarixçilərinin tədqiqat predmetinə çevrilmişdir.

**İrəvan xanlığının işğala qədərki tarixi türk tarixçilərinin əsərlərində.**İrəvan xanlığını işğal etməyə çalışan çar Rusiyası 1804 və 1808-ci illərdə xanlığa çoxsaylı qoşun növlərinin iştirakı ilə yürüşlər təşkil etmiş, lakin xanlığı ələ keçirə bilməyərək ağır itkilərlə geri dönmək məcburiyyətində qalmışlar. Bu biabırçı məğlubiyyətlər nəhəng imperiyanın nüfuzuna ağır təsir etmişdir. Hətta çar hakim dairələri bu məğlubiyyələrdən bəhs etməmiş, bu mövzuda susmağa üstünlük vermişlər.

Türk tarixçisi H.Oktayyazır ki, xanlıqlar arasında fəal siyasət yürütməklə seçilən İrəvan xanlığı daha çox diqqəti cəlb etməkdə idi. Bölgədəki cərəyan edən hadisələrə biganə qalmayan İrəvan xanlığı Osmanlı və Qaçar xanədanı ilə yaxın münasibət quraraq,yaxınlaşmaqda olan rus işğalının qarşısını almaq üçün lazımı tədbirlər görməkdə idi (8, 379-392).

"Osmanlı DevletiileAzerbaycan Türk Hanlıkları Arasındakı Münasibetlere Dair ArşivBelgeleri" kitabında qeyd edilir ki, 1804-ci ilin iyununda rus ordu birlikləри general Sisiyanovun komandanlığında İrəvan xanlığına yürüşə başladı. Həmin dövrdə Abbas Mirzənin rəhbərliyi ilə Qacar qoşunlarının da İrəvan xanlığına hücumu gözlənilməkdə idi. Bu vəziyyət xanlığın vəziyyətini xeyli ağırlaşdırırdı (10, 93-94). Gümrü və Üçmüəzzinin ələ keçirilməsindən sonra ruslar İrəvan qalasını mühasirəyə aldılar (10, 96-100). Lakin iki ay davam edən mühasirə bir nəticə verməmiş, Məhəmməd xan Sisyanovun təslim olmaq tələbini və göndərdiyi şərtləri rədd etmişdir. 1804-cü il avqustun axırında çağırılan hərbi şura sentyabrın 2-də mühasirənin götürülməsini və qoşunların geri çəkilməsini qərara aldı (14, 55-76).

1808-ci ilin sentyabrın Rusiyanın İrəvan xanlığına ikinci yürüşü başlandı. Bir məsələni də qeyd edək ki, yürüşdən əvvəl çar I Aleksandr erməni kilsəsinin katolikosu Danili ruslara yardım məqsədilə etdiyi casusluq fəaliyyətinə görə birinci dərəcəli müqəddəs Anna medalı ilə təltif etmişdi. Ruslar qərbdən Osmanlı torpaqlarına hücum etdikdə, həmişə erməni kilsəsinin köməyini görürdülər. Erməni kilsəsi rusları, özlərini müsəlman zülmündən azad etməyə çağırır və rus işğalını dəstəkləyirdi (3, 57-58).İran ordusu Təbrizdə olarkən İrəvan sərhədindən rusların Axalkələk qalasını ələ keçirməsi haqqında gələn xəbərlər və rusların Qarabağda törətdiyi qırğından doğan zərərlərin aradan qaldırılmasını eşidən şahzadə Qarabağa döğru hərəkət etdi (2, HAT/3664). Lakin görülən bütün tədbirlər və hərbi yürüş çar qoşunlarının məğlubiyyətinin qarşısını ala bilmədi. Rusiya İrəvan qalasını tuta bilməyərək, coxsaylı itki ilə Tiflisə geri qayıtdı.

1808-1809-cu illərdə baş verən çar Rusiyasının Gürcüstan və Azərbaycandakı işğalçı hərəkətləri Osmanlı dövlətinin narahatlığına səbəb olsa da, digər tərəfdən, Məhəmməd Əli Mirzənin komandasındakı İran qoşunlarının yürüşü və Gəncə ətrafında Abbas Mirzənin əsgərləri ilə ruslar arasındakı döyüşlər Qars qalasının ruslar tərəfindən zəbtinə mane oldu (2, HAT/42087). Dövləti Aliyyə moskvalıların Osmanlı məmləkətinə baş verəcək təcavüzünün qarşısını almaq üçün Şərq səraskəri təyin olunan Mehmet Emin Paşaya Qars qalasının muhafizəsinigücləndirmək üçün yeni təlimatlar göndərdi (2, C.DH/4565). Eyni zamanda Mehmet Emin Paşanın Rəvan sərdarı Hüseyn xanla görüşərək hərbi tədbirləri müzakirə etmələri məlumdur (2, HAT/6708). Vəziyyətin ciddiliyini nəzərə alan İrəvan xanı Hüseyn xan 1810-ci ilinin mayında Osmanlı dövlətinin şərq səraskərinə göndərdiyi bir məktubunda ruslara qarşı bir ittifaqın təşkil olmasının vacibliyini ifadə edirdi. Hətta xan Axısqa ətraflarına qədər gələn Rusiya ordusunun törətdiyi təhlükəni nəzərə alaraq, bu ittifaqın dərhal qurulmasını tələb edirdi (2, HAT/36676).

Göründüyü kimi, İrəvan xanlığı ciddi müqavimət göstərsə də, rus qoşunlarının hücumları səngimək bilmirdi. 1804 və 1808-ci illərdəki uğursuz

İrəvan yürüşündən sonra, rusların xanlığa yenidən hücum etməyəcəyini demək mümkün deyildi. Ona görə belə bir ittifaqın qurulması xanlıq üçün çox vacib idi.

Həqiqətən də üçüncü yürüşü də çox gözləmək lazım gəlmədi. 1813-cü ilin martında mayor Pestelin rəhbərliyi ilə İrəvan xanlığına təşkil edilən yürüş dağıdıcı xarakter daşımaqla insanlara mümkün qədər xəsarət yetirməyi nəzərdə tuturdu. Başkomandanın dəstə başçısı Lisaneviçe göstərişində deyilirdi: "Bu yürüşlə onlarda güclü dəhşət və dağıntılar törədin ki, bir daha yaddaşlarından silinməsin. Daha çox ailəni əsir olaraq ələ geçirin" (1, IV/170). Rus əsgərləri İrəvan sərhədləri daxilinə soxularaq bir neçə kəndi yandırmış, İrəvan sərdarı müqavimət göstərmək üçün ətraf ərazilərdən əsgər toplamağa başlamışdı (9, 240).Bu yürüş nəticəsində nə baş verdiyini anlamayan xeyli insan qəddarcasına məhv edildi, əsir götürüldü, evləri yandırıldı, qiymətli əşyaları və mal-qarası ələ keçirildi. Bu dağıdıcı yürüş insanlar arasında Rusiyaya olan nifrəti daha da gücləndirmiş oldu.

1813-cü ildə Rusiya ilə İran arasında imzalanan Gülüstan müqaviləsindən sonra Azərbaycanın bir neçə xanlığının rusların əlinə keçməsinə baxmayaraq, İrəvan və Naxçıvan xanlıqlarıöz müstəqilliklərini qoruya bilmişdir. Məlumdur ki, bu müqavilədən sonra bir müddət nisbi sabitlik olmuş və xanlıq dəyən ziyanın aradan qaldırılması və qalanın möhkəmləndirilməsiişləri ilə məşğul olmuşdur. Qalanın möhkəmləndirilməsi işinə xarici mütəxəssislər də cəlb olunmuşdu.

**İrəvan xanlığının işğalı Türkiyə tarixşünaslığında.**Arxiv sənədlərində İrəvan sərdarı və qardaşı Həsən xanın 1825-ci ilin dekabrında Qarakilsəyə hücum edərək oradakı rusları qılınçdan keçirdikləri haqqında məlumat yer alır. "Rəvan sərdarı və qardaşının rusları yendikləri" başlığı altında olan sənəddə bu döyüş haqqında belə deyilir: "Rəvan sərdarı və qardaşı Həsən xan Abadan qalasını azad edib, oradan qacıbQarakilsəyə sığınan rusları qılıncdan kecirdilər. Koçərilər bölgədən Rəvan tərəflərinə, Gümrü qəzasının bəzi kəndləri isə əcəm tərəfinə kocuruldü, bəzı kəndlər də Magazberd bəyi Şərif Ağaya təslim edildi. Xan və şahzadələr Tiflisə hücum məsələsini müzakirə etdilər" (10, 111-112).

Azərbaycandakı 1826-ci il üsyanları zamanı İrəvan xanı da ərazisindəki rus qoşunlarını sıxışdıraraq hücum edən İran qoşunlarına kömək etmişdir. Bu hadisələrdən sonra rusların İrəvanı ələ keçirmək təşəbbüsləri də nəticəsiz qalmışdır.Balıqcay, Sadağacay, Qarakilsə və başqa keşikci məntəqələri darmadağın edilmişdi. Həsən xanın qoşunları Gümrü yolunu nəzarətə goturmüşdü (10,.112). Beləliklə, qısa muddətə Pəmbək və Şoragi lişğalcılar dantamizlənmişdi.

1826-cı ildə Rusiya ilə Qacar dövləti arasında yeni müharibə başladı. Tarixçi E.Uras müharibənin başlanmasına əsas səbəb kimi Naxçıvan və İrəvan xanlıqlarını göstərərək yazır ki, sərhədin yanlış çəkilişi ikinci müharibəyə

gətirib çıxardı (15, 755).H.Oktay Rusiya işğalına qarşı uzun müddət ölüm-dirim mübarizəsi aparan İrəvan xanlığının görkəmli hakimlərindən biri olan Hüseyn xanın rus hücumlarındanolduqça zərər gördüyü kimi, baş verə biləcək vəziyyətin də çətinliyini anlamaqda idi (7, 149-185).Çar I Nikolay Tiflisə general Yermolovun əmrinə bir piyada tüməni və 6 kazak süvari alayı göndərərək ona İrəvan xanlığını işğal etməyi əmr etdi (4, 347).Əlbəttə ki, bu müharibənin başlanmasının Rusiya üçün əsas səbəbi Naxçıvan və İrəvan xanlıqlarını da ələ keçirmək idi.

Qeyd edildiyi kimi, müharibənin başlanmasını gözləyən erməni əhalisinin əksər hissəsi rus qoşunlarına kömək etməyə hazır idilər. Ermənilərin ruslara köməyindən bəhs edən M.Bi yazır ki, 1827-ci ilin martında İrəvan şəhəri üzərinə hərəkə edən general Benkendorfun komandasındakı 14.000 nəfərlik rus ordusunun Üçmüəzzini ələ keçirməsi ermənilər tərəfindən sevinclə qarşılandı. Keşiş Nerses rus birliklərini təqdir edərək təbrik etdi. Erməni camaatını rusların tərəfində olmağa və birlikdə savaşmağa çağırdı (4, 348; 3, 365-443). Daha sonra AştaraklıNerses 1826-1828-ci il Rusiya-İran müharibəsinin gedişində ermənilərdən milis birlikləri təşkil edərək ruslara kömək etdi (2, HAT/349). Bu hadisələrdən bəhs edən E.Uras yazır ki, 1826-cı ildə ermənilər İranın Rusiyaya hücumundan sonra çətin vəziyyətə düşən ruslara kömək etdi. Gözlərini Rusiyaya çevirən ermənilərin başında duran katalikosNersesAşdaragesi Rusiyanın köməyi ilə müstəqillik xəyalında idi (15, 756; 11, 69-105). K.Beydilli ingilis tarixçisinə istinadən yazır ki, Rusiyanın işğal etdiyi bölgədə yerləşən Üçmüəzzin kilsəsi erməni katolikosluğunun iri və əhəmiyyətli bir mərkəzi idi. Ruslar İstanbuldakı erməni patriarxiyasının kölgəsində olan bu katolikosun tükənən təsirini yenidən canlandırmağı bacardılar. Bu qrup xristianlar rus çarlarının sadiq xidmətçiləri oldu (3, 59).

1827-ci ilin oktyabrında rus ordusu Sərdarabad və Abbasabad qalaları önündə xeyli itki verdikdən sonra bu qalaları ələ keçirmiş və Rəvanı mühasirəyə almışdı. Bir ay davam edən mühasirə zamanı baş verən bir sıra ağır döyüşlər və çoxlu qan tökülməsindən sonra ruslar Rəvanı, Həsən xandan ala bildilər. İran şahzadəsi Abbas Mirzə, 1826-cı ildə Gəncə vəAslandüzda ruslarla baş verən ağır döyüşdə məğlub olmuş, Rəvanı kədərin taleyinə buraxmış və bu döyüşlərdə onlara heç bir kömək göstərə bilməmişdir (3, 323).

İrəvan xanlığını ələ keçirmək üçün Üçmüəzzindəqərərgah quraraq (2, HAT/36207; 36207D) İrəvanı mühasirə edən gen. Benkendorfun komandasındakı rus ordusu aclıq və xəstəlik səbəbindən 1827-ci ilin aprelində pis vəziyyətə düşdü. GeneralPaskeviç Naxçıvanı, Abbasabadı, Sərdarabadı və oktyabrın 1-də İrəvanı işğal etdi. İrəvan xanlığı həmin gün Rusiyaya ilhaq edildi. Ermənilər döyüşlərin gedişində ruslara yad olduqları İran torpaqlarında bələdçilik etdilər və onlarla birlikdə döyüşdülər (13, 369). Ruslara qarşı aparılan müharibələrdə iranlıların gündən-günə gerilədiyi, rus general

PaskeviçinSərdarabad qalasından sonra İrəvan qalasını da zəbt edərək orada gizlənmiş olan Həsən xanı əsir aldığı, İrəvan sərdarı Hüseyn xanın isə Maku xanı tərəfindən yaxalanaraq generala təslim edildiyi haqqında məlumatlar sənədlərdə yer alır (2, HAT/34805). Digər bir arxiv sənədində isə Rusiya sərkərdəsi Paskeviçin İrəvanı işğala başladığı, Xoy tərəfində toplanan qoşunların İran şahzadəsi tərəfindən tərxis edilməsi xəbəri üzərinə Marağa xanı Əhməd xanın oğlu Cəfərqulu xanın yardımı iləPaskeviçin İrəvan qalasını işgal edərək, Təbriz üzərinə hərəkət etdiyi və oradakı vəziyyəti təhqiq etmək üçün casuslar göndərməsi haqqında məlumat yer alır (2, HAT/36116). Həsən xan başda olmaqla qala qarnizonu əsir duşmüş, İrəvan sərdarı Huseyn xan da Maku xanı tərəfindən generala təslim edilmişdi (2, HAT/34805). Amma bunu təsdiq edən başqa sənədə rast gəlmədik.

1827-ci ildə generalPaskeviçin başçılığı altında Rusiya ordusu Qafqaz-dan İran üzərinə hücum edərkən ÜcmüəzzinkatalikosuAştaraketsi ermənilərdən ibarət "vətənpərvərlər" adlı mühafizə alayı toplamış və bu alay Rəvan və Şərqi Ermənistanın işğalında rus ordusuna kömək etmişdir (4, 31). Müəllifin işlətdiyi "Şərqi Ermənistan" kəliməsi yanlışdır və hansı əraziləri əhatə etdiyi bəlli deyil. Erməni alayı ilə bağlı türk tarixçisi K,Gürün yazır ki, "erməni vətənpərvərlər" ətrafında toplanan nüfuzlu ermənilər 1827-ci ildə Lazaryan və Arqutyanın təmsilçiliyində rus çarına bir layihə təqdim etdilər. Bu layihəyə görə ruslar ermənilərin yaşadıqları bütün torpaqları birləşdirəcək və beləcə də onlar milli bir yurd əldə edəcəklərdi (6, 70).

Türk tarixçilərinə görə, İrəvan xanlığının qısa müddətdə ələ keçirilməsi təkcə Rusiya silahlarının uğuru və effektivliyinin nəticəsi deyil, həm də ermənilərin könüllü əməkdaşlığı və töhfələrinin nəticəsi idi. Rəvan ermənilər tərəfindən könüllü olaraq rus qüvvələrinə təhvil verildi. Hətta katolikos Nerses "Rusiya qoşunlarının yürüşündə bələdçi kimi xidmət edirdi (11, 69-105).

İrəvanın alınması ilə rusların müxtəlif istiqamətlərdən cənuba yürüşü başladı. Tehran ucun yaranan birbaşa təhlükə şahı sülh bağlamağa məcbur etdi. Təbrizdəki İngiltərə müşavirlərinin təklifi ilə Araz çayı sərhəd olmaqla sülh bağlanması halında Sərdarabad, İrəvan, Naxçıvan və Abbasabad qalalarının ruslarda, Təbriz ilə Xoyun isə İranda qalacağı müəyyən edilmişdi (2, HAT/34805).

Beləliklə, uzun zaman təzyiqlərə davam gətirən İrəvan xanlığı çar Rusiyası tərəfindən işğal edildi və bu işğal Türkmənçay müqaviləsi ilə rəsmiləş-dirildi. Xanlıq Rusiya imperiyasının ucqar bir əyalətinə çevrildi. Ermənilərin fəaliyyətinin nəticəsi olaraq xanlığın ərazisində "erməni vilayəti" təşkil olundu və yüz minlərlə erməni bu əraziyə köçürüldü.

**Nəticə.**Göründüyü kimi,Nadir şahın ölümündən sonra müstəqil olan İrəvan xanlığı tədricən aktiv daxili və xarici siyasət yürütməyə başladı. XIX əsrin əvvəllərində daha da güclənən xanlıq Qacar dövləti və çar Rusiyasının

hücumlarına məruz qaldı. İrəvan xanlığının işğal ərəfəsindəki və işğalı dövrü tarixi türk tarixçiləri tərəfindən də araşdırılmış və siyasi hadisələr müəlliflərin əsərlərdə öz əksini tapmışdır.

Məlumdur ki, İrəvan xanlığı XIX əsrin əvvəllərində dörd dəfə rus qoşunlarının istilaçı yürüşlərinə məruz qalmışdır. 1804-cü il və 1808-ci il yürüşləri zamanı Rusiya qoşunları ağır itkilər verərək geri çəkilməyə məcbur olmuşlar. İrəvan xanlarının gördüyü müdafiə tədbirləri türk tarixçiləri tərəfindən yüksək qiymətləndirilmiş, çar qoşunlarının yürüşlərinin işğalçı mahiyyəti diqqətə çatdırılmışdır. Əhalidə dəhşət törətməyi qarşıya qoyan 1813-cü il yürüşü daha dağıdıcı xarakter daşımış, kəndlər yandırılmış, əhali məhv edilmiş və əsir alınmışdır. Bu haqda sənədlərdə də məlumatlar yer alır.

Xanlığın çar Rusiyası tərəfindən işğalının Osmanlı dövlətinin maraqlarına tamamilə zidd olduğunu nəzərə aldıqda baş verən hadisələrə türk tarixçilərinin göstərdiyi münasibət də başa düşüləndir. 1827-ci ildə işğalın gedişi ətraflı şəkildə təhlil edilərək türk elmi ictimaiyyətinə təqdim olunmuşdur. Xanlığın, o cümlədən İrəvan qalasının zəbt olunması Azərbaycanın ikiyə bölünməsini surətləndirmiş və Rusiya ilə Qacarlar dövləti arasında imzalanan Türkmənçay müqaviləsində öz əksini tapmışdır.

## Ədəbiyyat


1. Акты, Собранные Кавказской Археографической Комиссией (АКАК): [В 12-ти т.]. - Тифлис, 1866-1904.
2. Başbakanlıq Osmanlı Arşivleri (BOA)
3. K. Beydilli, '1828-1829 Osmanlı-Rus Savaşında Doğu Anadolu'dan Rusya'ya Göçürülen Ermeniler // Türk Tarih Belgeleri Dergisi XIII/17 Ankara: 1988, s.365-434
4. Bi M. KafkasTarihi, 2 Cilt, Ankara: Berikan Yayınevi, 2011, 886 s.
5. Kurat A.N. Türkiye VeRusya. Ankara: Kültür Bakanlığı, 1990, 735 s.
6. Gürün K.Ermeni Dosyası,Ankara: Bilgi Yayınevi, 2012, 473 s.
7. Oktay H. Osmanlı–Rus-İran Rekabetinde Revan Hanlığı ve Hanları // VIII. Milletlerarası Türkoloji Kongresi, IV, s. 978, İstanbul 2014, s.149-185
8. Oktay H. Kafkaslarda Rus Yayılması Karşısında Osmanlı-Kaçar Faktörünün Harekete Geçirilme Teşebbüsü (Ağustos-Eylül 1811) // VAKANÜVİS- Uluslararası Tarih Araştırmaları Dergisi/ Yıl 2017, sayı 2. Kafkasya ÖzelSayısı, s.379-392
9. Osmanlı Belgelerinde Azerbaycan. İstanbul: Türk Dünyası BələdiyələrBirligi (TDBB) Yayınları, 2015, 626 s.
10. Osmanlı Devleti ile Azerbaycan Türk Hanlıkları Arasındakı Münasibetlere Dair Arşiv Belgeleri (Karabağ-Şuşa, Nahçıvan, Bakü,

Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy) 1578-1914, I kitab Ankara: Osmanlı ArşiviYayınları, 1992.427s.
11. Sarınay, Y. Rusya'nın Türkiye Siyasetinde Ermeni Kartı (1878-1918) // Gazi Akademik Bakış, - Yaz 2008. Cilt 1, Sayı 2. - s.69-105
12. Salahi R.S. Osmanlı Ermenileri. Büyük Güçler Diplomasinin Kurbanları, Çev; Ayden Birerdinç, İstanbul: RemziKitabevi, 2009,472 s.
13. Taşkiran C. Keçmişten Günümüze Karabağ Meselesi. Ankara: Genel kurmay Basımevi, 1995, 267 s.
14. Umudoğlu V. KuzeyAzerbaycanın çar Rusyası tarafindan işğali ve sömür geçilige karşı mücadele (1801-1826) // Türk Dünyası Araşdırmaları sayı, 124, İstanbul, 2000, s.55-76;
15. Uras E. TarihteErmenilerVeErmeniMeselei. İstanbul: BelgeYayınları, 1976, 791 s.

# XƏZƏR NEFTININ DÜNYA BAZARLARINA IXRACI VƏ AZƏRBAYCAN RESPUBLIKASININ BEYNƏLXALQ SIYASI VƏ IQTISADI MÖVQELƏRININ MÖHKƏMLƏNMƏSI

***Xalıqova Gülşən Kamil qızı***
*Qərbi Kaspi Universiteti*
*xaliqova.gulshen@mail.ru*

**Açar sözlər:** *BTC boru kəməri, "Xəzər nefti. ARDNŞ, TANAP, Bakı-Tbilisi-Ceyhan, Tengiz yatağı*

*Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra dünya ölkələrinin əksəriyyəti ilə, xüsusilə də böyük dövlətlərlə siyasi və iqtisadi əlaqələr qurmağa başladı. Müstəqilliyin ilk illərində çətin anlarını yaşayan Azərbaycan Respublikası ölkəni hərtərəfli bürüyən böhran vəziyyətindən çıxarmaq üçün qiymətli təbii sərvəti olan neft amilindən istifadə edərək , dünyanın yüksək inkişaf etmiş aparıcı dövlətləri və iri neft şirkətləri ilə əlaqələr yaradıb , müstəqil sosial –iqtisadi və siyasi xətt yürütməyə başladı.*

*Ümummilli lider Heydər Əliyevin müdrik və uzaqgörən məqsədyönlü və ardıcıl həyata keçirdiyi çoxşaxəli iqtisadi siyasəti nəticəsində milli sərvət olan neft Azərbaycan xalqına xidmət edərək, ölkəmizin siyasi müstəqilliyinin və dövlətçiliyinin möhkəmləndirilməsinə, iqtisadi inkişafın sürətləndirilməsinə və insanların rifahının yaxşılaşdırılmasına yönəldilmişdir.*

*Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan neft sənayesinin Xəzər dənizi hesabına gələcək inkişafı nəzərə alınaraq Bakı Dərin Dəniz Özüllər Zavodu (BDDÖZ) tikilmişdir. Bu zavodun təməli 1978-ci ildə qoyulmuş, 1984-cü ildə istismara verilmişdir.*

*Respublikamıza ən müasir qabaqcıl texnika və texnologiyaların gətirilməsində , neft sənayesi infrastrukturunun yenidən qurulmasında, köhnə platformaların və qurğuların modernləşdirilərək bərpa edilməsində, yeni platformaların tikilməsində ölkəmizin neft sənayesi üçün yüksək peşəkar kadrların hazırlanmasında ABƏŞ-ın fəal iştirak etməsi ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edir.*

# ЭКСПОРТ КАСПИЙСКОЙ НЕФТИ НА МИРОВЫЕ РЫНКИ И УКРЕПЛЕНИЕ МЕЖДУНАРОДНЫХ ПОЛИТИЧЕСКИХ И ЭКОНОМИЧЕСКИХ ПОЗИЦИЙ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Халыгова Гюльшан Камил кызы**

**Ключевые слова:** *«Каспийская нефть.SOCAR, TANAP, Баку-Тбилиси-Джейхан,Морское дно*

*После обретения независимости Азербайджанская Республика начала устанавливать политические и экономические отношения с большинством стран мира, особенно с крупными державами. В первые годы независимости Азербайджанская Республика, пережившая трудные времена, начала проводить независимую социально-экономическую и политическую линию, используя нефтяной фактор, который является ценным природным ресурсом, для построения отношений с ведущими развитыми странами мира и крупные нефтяные компании.*

*В результате мудрой и дальновидной, целенаправленной и последовательной экономической политики, проводимой общенациональным лидером Гейдаром Алиевым, нефть, национальное богатство, направлена на укрепление политической независимости и государственности нашей страны, ускорение экономического развития и повышение благосостояния людей.*

*По инициативе общенационального лидера Гейдара Алиева был построен Бакинский завод глубоководных кожухов (BDWP) с учетом великого будущего азербайджанской нефтяной промышленности за счет Каспийского моря. Завод основан в 1978 году, введен в эксплуатацию в 1984 году.*

*Активное участие AIOC в доставке в страну самого современного оборудования и технологий, восстановлении инфраструктуры нефтяной отрасли, модернизации и восстановлении старых платформ и объектов, строительстве новых платформ и обучении высококвалифицированных кадров для нефтяной отрасли страны важно для нашей страны.*

# EXPORT OF CASPIAN OIL TO WORLD MARKETS AND STRENGTHENING OF THE INTERNATIONAL POLITICAL AND ECONOMIC POSITION OF THE REPUBLIC OF AZERBAIJAN

**Khaligova Gulshan Kamil kizi**

**Keywords:**, “Caspian Oil.SOCAR, TANAP, Baku-Tbilisi-Ceyhan,Sea bed

*After gaining independence, the Republic of Azerbaijan began to establish political and economic relations with most countries of the world, especially with major powers. In the first years of independence, the Republic of Azerbaijan, experiencing difficult times, began to pursue an independent socio-economic and political line, using the oil factora, which is a valuable natural resource, to establish relations with the world's leading developed countries and major oil companies.*

*As a result of the wise and far-sighted, purposeful and consistent economic policy pursued by national leader Heydar Aliyev, oil, a national treasure, is aimed at strengthening the political independence and statehood of our country, accelerating economic development and improving people's welfare.*

*On the initiative of national leader Heydar Aliyev, the Baku Deepwater Jacket Plant (BDWP) was built, taking into account the great future of the Azerbaijani oil industry at the expense of the Caspian Sea. The plant was founded in 1978 and commissioned in 1984.*

*AIOC's active participation in bringing the most modern equipment and technologies to the country, rebuilding the infrastructure of the oil industry, modernizing and restoring old platforms and facilities, building new platforms and training highly qualified personnel for the country's oil industry is important for our country.*

***

Müasir dövrdə enerji təhlükəsizliyinin təmin edilməsi məsələsi bütün dünyada xüsusilə də Avropa ölkələrinin qarşısında duran qlobal problemlərdəndir. Əsas enerji mənbələrindən olan neft və təbii qaza olan tələbat getdikcə artmaqdadır.Ümummilli lider Heydər Əliyevin yeni neft strategiyasının uğurla həyata keçirilməsi nəticəsində davamlı sosial-iqtisadi yüksəlişdə olan Azərbaycan Respublikası neft-qaz hasilatı və ixrac edilməsi sahəsində ilbəil yeni nailiyyətlər qazanmaqdadır.Özkarbohidrogen ehtiyatlarını

Avropa bazarlarına nəql etmək üçün respublikamız neft kəməri marşurutlarının çoxvariantlığı siyasətini həyata keçirir [1, 254].

Bakı-Novorossiysk və Bakı-Supsaboru kəmərləri istifadəyə verildikdən sonra Respublikamızdan Avropa bazarlarına xam neftin nəqli artmışdır. " Çıraq" yatağından ABƏŞ-in ilkin neft istehsalı sürətlə artdığı və movcud boru kəmərləri ölkəmizin ixrac Bakı-Tbilisi-Ceyhan neft kəməri çəkilmişdir. 2006-cı ilin ortalarından başlayaraq Azərbaycan Respublikasından xam neftin Qərb ölkələrinə nəql edilməsi daha da artırılmışdır.

2008-ci ilin noyabrından Qazaxıstanın Tengiz yatağından ilkin neftin BTC neft kəməri ilə Avropa İttifaqı ölkələrinə nəql edilməsi respublikamızın tranzit ölkəyə çevrilməkdə olduğunu göstərmişdir. Əlverişli geosiyasi məkanda yerləşməsi Azərbaycan Respublikasının tranzit əhəmiyyətini daha da artırmışdır [2, 238].

QİBK, BTC, CQBK marşurutlarının uğurla həyata keçirilib istifadəyə verilməsi nəticəsində Azərbaycan Respublikası ardıcıl surətdə inkişaf edərək regionun aparıcı dövlətinə çevrilmiş , beynəlxalq nüfuzu daha da artmış, siyasi arenada özünə layiqli yer tutmuşdur. Ölkəmizdəki mövcud boru kəmərləri ahəngdar işləyir və neft-qaz ixracı sahəsində böyük nailiyyətlər əldə etmişdir.

2010-cu ilin iyulunda nəqletmə sazişinin imzalanmasından sonra Türkmənistanın xam nefti də BTC boru kəməri ilə nəql edilməyə başlanılmışdır. Türkmənistanneftinin də Azərbaycan ərazisi ilə Avropa bazarlarına daşınması Transxəzər layihəsinin gerçəkləşməsinə inamı daha da artmışdır. Mərkəzi Asiya Respublikalarının karbohidrogen ehtiyyatlarının da ölkəmizin ərazisi ilə Qərb ölkələrinə ixrac edilməsi həyata keçirilmiş, Azərbaycan Respublikasının tranzit mövqeyi xeyli möhkəmlənmişdir..

2010-cu ilədək Azərbayacandan 255,5 milyon ton neft, 22,2 milyard kubmetr qaz ixrac olunmuşdur. BTC boru kəməri ilə bir milyard barel və ya 146 milyon ton neft nəql edilmişdir.

2010-cu ildə "Şahdəniz " yatağının Tam Miqyaslı İşləmə üzrə mühəndis-layihəsi Azərbaycan və Türkiyə hökumətlərinin imzaladığı Anlaşma memorandumu ilə təsdiq edilmişdir. Bu memorandum Azərbaycan qazının Türkiyə ərazisindən keçməklə Avropa bazarlarına nəql edilməsi üçün tranzit şərtlərini tənzimləyən bir əsas olmuşdur[3].

Cənub Qafqaz Boru kəmərinin orta ötürmə qabiliyyəti gündə təxminən 14 milyon kubmetr qaz və ya gündə təxminən 87000 barel neft ekvivalent olmuşdur.

Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda axtarış-kəfiyyat işlərinin genişləndirilməsi nəticəsində neftçilərimiz tərəfindən Şahdənizdən sonra böyük həcmdə qaz ehtiyyatlarına malik olan "Umid" və "Apşeron" yataqları kəşf edilmişdir. Yeni qaz yataqlarının aşkarlanması respublikamızın maye yanacaq ixracı imknlarının daha da artmasına səbəb olmuşdur. Böyük qaz

ehtiyyatlarına malik olan ölkəmiz ixrac strategiyası planlarını gerçəkləşdirmək üçün yeni layihələr irəli sürüb həyata keçirməyə başlamışdır. Belə ən böyük layihələrdən biri TANAP layihəsi olmuşdur. Bu layihənin həyata keçirilməsi nəticəsində Avropa ölkələrinə milyardlarla kubmetr təbii qaz ixrac edilmişdir.

Azərbaycan Respublikası tərəfindən irəli sürülmüş TANAP layihəsi dünyada böyük maraq doğurmuşdur. Son zamanlar Türkmənistan Respublikasının da öz karbohidrogen ehtiyyatlarını Avropa bazarlarına daşımaq üçün Azərbaycan Respublikası tərəfindən irəli sürülmüş enerji layihələrinə qoşulmaq istədiyini dəfələrlə bəyan etmişdir.

Azərbaycan Respublikası yeni iri enerji layihələriningerçəkləşdirməsi Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində fəal rol oynaması, ölkəmizin siyasi-iqtisadi mövqelərini beynəlxalq aləmdə daha da möhkəmləndirir [4].

Yeni neft strategiyasının uğurlarını inamla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fəal enerji siyasəti həyata keçirir. Ölkəmiz öz neft-qaz ixracı potensialını realizə etmək imkanına malikdir

2012-ci il iyunun26-da Türkiyə ilə Azərbaycan Respublikası arasında "Cənub qaz dəhlizi" nin ikinci seqmenti Trans Anadolu Qaz Kəməri (TANAP) layihəsi ilə əlaqədar olaraq İstanbulda yekun saziş imzalanmışdır.

TANAP-da ARDNŞ 58% , Türkiyənin BOTAŞşirkəti 30%, İngiltərənin BP şirkəti 12% paya malik olmaqla konsersium təşkil etmişlər.
Konsersiumda ən çox pay bölüsünə malik olan ARDNŞ TANAP-da operatorluğu öz üzərinə götürmüşdür.

2014-cü il sentyabrın 20-də Bakıda Heydər Əliyev Mərkəzində "Əsrin müqaviləsi"nin 20-ci ildönümünə və "Cənub Qaz dəhlizi"-nin təməlinin qoyulmasına həsr edilmiş təntənəli mərasim keçirilmiş, sonra isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev , dövlət və hökumət başçıları , "Cənub qaz dəhlizi"nin təməlinə qoyulacaq ilk boruya imzalarını atmış, Cənub qaz dəhlizinin təməli qoyulmuşdur[9, 391].

XXI əsrin əvvəllərində Azərbaycan Respublikasının həyata keçirdiyi ən böyük layihələrdən biri Trans Anadolu Qaz Kəməridir(TANAP) .

2015-ci il fevralın 6 –da Bakıda Məşvərət Şurasının birinci iclası keçirilmiş və "Cənub " layihəsi üzvləri arasında əlaqələndirmə orqanı yaradılması təklif irəli sürülmüşdür. Layihə üzvləri arasında keçirilmiş görüşlər nəticəsində əlaqələndirmə uğurla nəticələnmişdir. Həmin ilin martın 17-də Türkiyənin Qars vilayətinin Selim ərazisində Azərbaycan, Türkitə və Gürcüstan prezidentlərinin və digər nümayəndə heyyətlərinin iştirakı ilə Trans Anadolu Qaz Kəmərinin (TANAP) təməlqoyma mərasimi keçirilmişdir [6, 258].

2016-cı il fevralın 29-da Bakıda “Cənub Qaz Dəhlizi “ Məşvərət Şurası çərçivəsində nazirlərin ikinci toplantısı keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də bu mərasimdə iştirak etmişdir.

2017-ci il fevralın 23-də Bakıda “Cənub Qaz Dəhlizi “ Məşvərət Şurası çərçivəsində nazirlərinüçüncü toplantısı keçirilmişdir[7, 416].

Xatırladaq ki, Neft strategiyasının həyata keçirilməsinin ilk dövrlərindən Azərbaycan Respublikası ilə sıx əməkdaşlıq edən və onu güclü dəstəkləyən ölkələrdən biri Böyük Britaniya hökuməti xüsusilə də “Britiş Petrolium “ şirkəti olmuşdur. BP şirkəti energetika sahəsində bizim əsas investorumuzdur. BP ilə SOKAR arasında kontrakt imzalanması strateji əlaqələrimizi daha da gücləndirmişdir[10].

ABƏŞ və “BP-Azərbaycan” şirkətinin fəaliyyəti ümummilli lider Heydər Əliyevin neft strategiyasını inamla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də diqqət mərkəzindədir. Ölkə Prezidenti İlham Əliyev ABŞ, başda olmaqla Qərb ölkələrinin dəstəyinin Azərbaycan Respublikasının həyata keçirdiyi enerji layihələrinin gerçəkləşdirilməsində mühüm rol oynadığını yüksək qiymətləndirmişdir.

Dünyanın ən inkişaf etmiş dövlətləri və onların iri neft şirkətləri ilə əlaqələrin genişlənməsi ölkəmizə ən müasir qabaqcıl neft texnika və texnologiyası gətirilmiş. və bu Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda dərinsulu neft yataqlarının işlənməsinə səbəb olmuşdur.

ABŞ, Böyük Britaniya, Fransa, Yaponiya kimi güclü dövlətlərinin neft şirkətləri ilə yeni neft müqavilələrinin imzalanmasına üstünlük vermişdir [5, 604].Yeni neft strategiyasının uğurları inamla davam etdirən Azərbaycan Respublikası fəal enerji siyasəti həyata keçirir və qaz ixracı potensialını realizə etmək imkanına malikdir. Hal-hazırda Avropada enerji təhlükəsizliyi məsələlərinin həlli Azərbaycansız mükün deyildir.

Yeni enerji layihələrinin reallaşması nəticəsində ölkəmizin iqtisadiyyatının milyadlarla dollar investisiyalar yatırılacaq və bu layihələr Avropanın enerji xəritəsinə böyük dəyişikliklər edəcəkdir.

Sülh, sabitlik, dostluq və əməkdaşlıq layihəsi olan TANAP və TAP ölkələr arasında inteqrasiya proseslərini gücləndirəcəkdir [8,100].

## Ədəbiyyat

1. Abbas Mənsimov. “BP-Azərbaycan “ şirkətinin yaranması və fəaliyyəti Bakı, 2018.254 səh

2.Abbas Mənsimov. Neft-qaz istehsalı və ixracında BP Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin rolu. Bakı, 2020.238 səh.

3.Azərbaycan qəzeti. Bakı Azər Tac 2001-ci il 17 may

4. Azərbaycan qəzeti. Bakı Azər Tac 2004-cü il 4 dekabr
5. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Ikinci kitab, Bakı Azərnəşr 1997.604 səh
6. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. On yeddinci kitab Bakı Azərnəşr 2006 258 səh.
7. Əliyev İ.H. İnkişaf məqsədimizdir. Altıncı kitab Bakı Azərnəşr, 2011 , 416 səh.
8. Əliyev İ.H. İnkişaf məqsədimizdir. Onuncu kitab, Bakı Azərnəşr 2012 100 səh
9. Xəlilov Q.P. Heydər Əliyev adına Bakı_Tbilisi-Ceyhan Neft kəmərinin ekoloji təhlükəsizliyinin beynəxalq hüquq və dövlətdaxili qanunvericilik problemləri. Bakı, elm və Təhsil, 2009 391 səh
10.Yaqubzadə M. Azərbaycandakı neft layihələri uğurla reallaşdırılır. Xalq qəzeti. 2004 22 dekabr

## MÜNDƏRİCAT

**Abbasova Oksana Əbdül.** AZƏRBAYCAN SSR-NİN İQTİSADİ ƏLAQƏLƏRİ 1920-1922-Cİ İLLƏRDƏ......................................................3-11
**Abbaszadə Nigar.** MİLLİ ORDU AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİN QARANTIDIR.......................................................12-21
**Samir Baxşəliyev.** NADİR ŞAH ƏFŞARIN DİNİ BAXIŞLARI................22-32
**Əhmədova Naibə Əhmədağa qızı.** XIX ƏSRİN BİRİNCİ YARISI: TARİXŞÜNASLIĞIN MƏXƏZLƏRİ.......................................................33-41
**Əzizova Rübabə Yasin qızı.** DÖVLƏT MÜSTƏQİLLİYİ UĞRUNDA XALQ HƏRƏKATININ BAŞLANMASI.................................................42-53
**Kərimov Zakir Hafis oğlu.** ŞUŞA ZƏFƏRİ............................................54-64
**Ənvər Fəttah oğlu Məmmədov.** 1920-Cİ İLLƏRDƏ AZƏRBAYCAN SSR-DƏ BAŞ VERMİŞ ÜSYANLARIN TƏŞKİLATİ ƏSASLARI..........65-72
**Məmmədov Xəqani Məmməd oğlu.**TÜRKİYƏNİN İSTİQLAL HƏRBİNDƏ NƏRİMAN NƏRİMANOVUN ROLU................................73-80
**Musayeva Sahibə Xəlil qızı.**ŞƏKİ-ZAQATALA BÖLGƏSİNDƏ YAŞAYAN AZSAYLI XALQLARIN ADQOYMA MƏRASİMİNİN BƏZİ XÜSUSİYYƏTLƏRİ...................................................................81-84
**Гюльнара Абиди .**РОЛЬ П.К.ЖУЗЕ В РАЗВИТИИ АЗЕРБАЙДЖАНСКОЙ НАУКИ...........................................................85-93
**Abbas Q. Seyidov.**CƏNUBİ QAFQAZIN ORTA TUNC DÖVRÜ MƏDƏNİYYƏTİ VƏ NAXÇIVAN ABİDƏLƏRİ....................................94-99
**Vidadi Umudoğlu Umudlu.**İRƏVAN XANLIĞININ ÇAR RUSİYASI TƏRƏFİNDƏN İŞĞALI TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA............100-108
**Xalıqova Gülşən Kamil qızı.** XƏZƏR NEFTINN DÜNYA BAZARLARINA İXRACI VƏ AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ SİYASİ VƏ İQTİSADİ MÖVQELƏRİNİN MÖHKƏMLƏNMƏSİ.....................................................................109-115

# YAZI QAYDALARI

- Məqalələr **Azərbaycan, ingilis** və **rus** dillərində jurnalın elektron ünvanına – jhhsadpu@mail.ru göndərilir.

- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.

- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.

- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 12 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.

- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.

- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, 8].

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.

- Məqalələrin həcmi: 5-12 səhifə.

- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.

- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.

- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodiki jurnal 2021, 1 (31)*

***Çapa imzalanmış 29.03.2021-ci il***
***Kağız formatı 60x84 1/16, çap vərəqi 8***
***Sifariş 73, sayı 100***

***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Telefon: (+994 12)493 05 85***
***E-mail:*** *jhhsadpu@mail.ru*
***www.adpu.edu.az***